# 26 İYUN SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR!

Bu bir xalq qəzetidi

ƏDALƏT

## Özbəkistan və Azərbaycanın media qurumları arasında memorandum imzalanıb



**Daşkənddə Özbəkistan və Azərbaycanın media qurumları arasında memorandum imzalanıb.**

Adalet.az xəbər verir ki, sənədi "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyi arasında Anlaşma Memorandumu"nu Medianın İnkişafı Agentliyinin İcraçı-direktoru Əhməd İsmayılov və Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjon Xocayev imzalayıblar.

## Meymunçiçəyi pandemiya elan edildi



**Ümumdünya Səhiyyə Şəbəkəsi (World Health Network/WHN) meymunçiçəyi xəstəliyini pandemiya elan edib.**

Adalet.az xəbər verir ki, bu barədə qurumun saytında bildirilir.

Qeyd edilir ki, bu günə qədər 58 ölkədə 3 417 təsdiqlənmiş meymunçiçəyi hadisəsi qeydə alınıb. Epidemiya bir neçə qitədə sürətlə genişlənir. Şəbəkə ölkələri və qlobal səhiyyə orqanlarını təcili, effektiv tədbirlər görməyə çağırıb.

"Qlobal epidemiya razılaşdırılmış qlobal tədbirlər olmadan bitməyəcək.

Hətta meymunçiçəyi xəstəliyindən daha aşağı ölüm nisbəti olsa belə, onun davamlı yayılmasının qarşısını almaq üçün tədbirlər görülməsə, milyonlarla insan öləcək və daha çox insan kor və əlil olacaq", - deyə mesajda qeyd edilir.

Vurğulanır ki, qabaqcadan tədbirlər görülsə, ən az səylə epidemiyaya nəzarət etmək və nəticələrin daha da pisləşməsinin qarşısını almaq mümkün olacaq.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) infeksiyanın təyin edilməsinə qərar vermək üçün 23 iyun iclasından əvvəl WHN meymunçiçəyi xəstəliyini pandemiya elan edib.

## Nazir: "Şərqi Zəngəzurda Azərbaycan-Rusiya birgə mərkəzi yaradılıb"

**"Şərqi Zəngəzur regionundakı sənaye parkında Azərbaycan-Rusiya birgə mərkəzi yaradılıb".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, Rusiya şirkətləri ilə 20 min ton təmir yolu relsinin alınması barədə müqavilə var ki, onun artıq üçdə bir hissəsi yerinə yetirilib.

Nazir azad olunmuş torpaqlarda onlarla Rusiya şirkətinin fəaliyyət göstərdiyini vurğulayıb.

## NƏİNKİ POLİS, HEÇ BİR İNSAN ALLAHI SÖYMƏZ

***Deməli, bir qrup dindar müxtəlif yerlərdə mitinq keçirirlər ki, guya polis Allahı söyüb. Nəinki polis, eləcə də heç bir insan Allahı söyməz. İstəyir müsəlman olsun, xristian olsun, yəhudi olsun, ya da bütə inanan olsun.***

***Allahı söyərsə, cəzasını Allahdan alacaq. Allahın mənim, sənin və ya kiminsə müdafiəsinə ehtiyacı yoxdur.***

***Allah böyük və adildir.***

***Və Allah onu söyənləri yox, onun adından sui-istifadə edənləri cəzalandırır.***

## "Qaçqınkom": "Sel Goranboyda 306 məcburi köçkünün evinə ziyan vurub"



**"İyunun 22-də yağan güclü yağış nəticəsində sel suları Goranboy rayonunun Aşağı Ağcakənd kəndi ərazisində məcburi köçkünlər üçün salınmış 306 fərdi evdən ibarət qəsəbəyə ziyan vurub".**

Bu barədə Adalet.az-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

"İlkin məlumata görə, sel qəsəbənin daxili yol və küçələrini basıb, 12 fərdi evin zirzəmisinə su dolub. Məcburi köçkün ailələrin yardımçı təsərrüfatlarına da ziyan dəyib: ev quşları arasında tələfat var, həyətyanı sahələrdə bəzi ağaclar və əkinlər məhv olub.

Qaçqınların və Məcbrui Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Bakıdan ezam olunmuş müvafiq strukturlarının əməkdaşları təbii fəlakət baş vermiş ərazidədir. Dövlət Komitəsinin Mənzil-Kommunal İstismar Departamentinin Goranboy mənzil-istismar sahəsinin (MİS) işçi qüvvəsi və texniki vasitələri təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına cəlb edilib.

MİS-in rəisi Seymur Çobanov bildirib ki, hazırda qəsəbədə sel sularının törətdiyi fəsadlar aradan qaldırılır, zərər görmüş evlərin zirzəmiləri sudan təmizlənir, məcburi köçkün ailələrə dəyən zərər dəqiqləşdirilir", - məlumatda qeyd edilib.

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 29 (5966) 25 iyun 2022-ci il | Qiyməti 30 qəpik

## MİRZOYAN YENƏ SARSAQLADI





**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan xarici mətbuata verdiyi açıqlamada yenə sarsaqlayıb. Deyib ki, Azərbaycan əsirləri təcili qaytarmalıdır. Əvvəla, Azərbaycanda olan hərbi əsirlər qaytarılıb, qalanlar varsa onlar müharibədən sonra Azərbaycan ərazisində terror təşkil eləmiş hərbi cinayətkarlardı. Və təbii ki, humanist olduğumuzdan onları da qaytaracağıq.**

İkincisi, 30 ildi əsir götürdüyünüz 4 min azərbaycanlıdan bir xəbər yoxdu. Özü də onların demək olar ki, hamısı mülki əhalidi - qadındı, uşaqdı.

Sonra deyir ki, Azərbaycan Qarabağdakı erməni abidələrinə hörmətlə yanaşmalıdır. Siz bizim məbədlərimizə, məscidlərimizə, tarixi abidələrimizə hörmətlə yanaşmasanız da, dağıtsanız da biz insanıq, heç bir xalqın, ya millətin hər hansı bir məbədinə, abidəsinə nəinki toxunmuruq, əksinə bərpa edirik. Biz kilsələrə, sinaqoqlara öz məscidimizə baxdığımız kimi, Allah evi kimi baxırıq. Şuşadakı məşhur kilsəni də (özünüzün bizi şərləmək üçün partlatdığınız kilsədən söhbət gedir) hazırda vurhavur bərpa edirik.

Üçüncüsü də deyirsiz ki, ATƏT-in Minsk qrupu çərçivəsində...

**ATƏT-in Minsk qrupu çoxdan çezib, kirvə.**

**Hə, hə, get ağla!**

# Rusiya da təsdiqlədi: "ATƏT-in Minsk qrupu fəaliyyətini dayandırıb"

**"Bu gün danışıqlarda ATƏT-in Minsk qrupunu müzakirə etmədik. Çünki Minsk qrupu öz fəaliyyətini dayandırıb".**

**Adalet.az xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi mətbuat konfransında deyib.**

**O qeyd edib ki, Minsk qrupu ABŞ və Fransanın təşəbbüsü ilə fəaliyyətini dayandırıb.**




## Azərbaycanın əsas müəllifi olduğu qətnamə BMT Baş Assambleyasında qəbul edilib



**Azərbaycan BMT Baş Assambleyasının 24 iyun tarixini "Diplomatiyada Qadınların Beynəlxalq Günü" elan edən Qətnaməsinin əsas müəllifi olmaqdan qürur duyur.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyi rəsmi "Twitter" hesabında məlumat yayıb.

Qeyd edilib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra qadın hüquqlarının müdafiəsi ilə bağlı demək olar ki, bütün beynəlxalq sənədləri ratifikasiya edib və qadınlara bərabər siyasi hüquqlar verən ilk İslam ölkəsi olub.

## SƏRHƏDLƏR AÇILACAQ: RƏSMİ AÇIQLAMA

**Dəvənin quyruğu yerə dəyəndə. Dəvənin olan-qalan quyruğunu da "AZAL" kəsib, dəvə qalıb dalıaçıq.**

## ÜST-ün BAŞQANININ AYAĞI BİZƏ DÜŞMƏDİ



**Ümumdünya Səhiyyə Təşkilatının adı dilimə yatmayan başqanı Bakıda keçirilən 9-cu qlobal forumda iştirak eləmək üçün ölkəmizə gəlmişdi. Gəlməyi ilə COVİD-19-a tutulan xəstələrin sayı birdən-birə artdı.**

Hər şey cəhənnəm, SSRİ-nin dağılmasında fəal iştirak eləmiş Burbulis də Bakıda saunada öldü.

Meymun çiçəyi də Gürcüstanda göründü və gəlib sərhədimizə çatıb. Allah axırını xeyir eləsin.

Mehman CAVADOĞLU



## Kalininqrad böhranı

**Ukrayna müharibəsiylə özünü çıxılmaz dalana dirəmiş Rusiya daha bir keçmiş "qardaş" sovet respublikasıyla ciddi qarşıdurma ərəfəsindədir. Düzdür, "böyük qardaş" hazırda Ermənistan istisna olmaqla öz "kiçik qardaşlarının", demək olar ki, hamısıyla tam və ya nisbi düşmənçilik münasibətlərində olduğu üçün burda qeyri-adi bir şey yoxdur. Lukaşenkonun indiki aşırı Putin sevgisinə gəlincə, bu onun son prezident seçkilərindən sonra üzləşdiyi ağır durumla bağlıdır. Total seçki saxtakarlığı və bu saxtakarlığa etiraz edənlərə qarşı həyata keçirdiyi təqib və represiyalar səbəbindən qərbin ağır təpkiləri, sanksiyaları və total təcrid siyasətiylə üzləşməsi onu Kremlin zorən müttəfiqinə, bir az da dəqiq desək, vassalına çevirib. Bir vaxtlar od püskürən ağzından indi köpük tökülən Batkanın bu gün fəxr elədiyi yeganə şey KTMT üzvləri arasında yalnız Belarusun Rusiyanın yanında olmasıdır. O həmin sözləri tez-tez dilinə gətirir və nə yazıq ki, bununla təkcə şəxsi sədaqətini gözə soxmaq yox, həm də öz hərbi müttəfiqlərini baqaja qoymaq məqsədi güdür.**

Bax:səh-3




**ŞƏRHSİZ...**

## SAYTLAR, SOSİAL ŞƏBƏKƏLƏR BİR AY KEF ELƏYƏCƏK DƏ

***Bunun üçün onlara söyüş söymək və təhqir eləmək üçün geniş meydan verildi: Deputatların maaşı artırılır.***

Aqil ABBAS
aqilabbas@rambler.ru

## ELÇİBƏYİN ÇİÇƏKLƏYƏN MƏZARI



***Bu gün Elçibəyin doğum günüdür. 84 yaşı tamam olur. Elə şəxsiyyətlər var ki, onlar ölmürlər. Vaqif Cəbrayılzadənin təbirincə desək:***

***Su kimi çəkilib***
***torpağa gedirlər.***

***Elçibəy də ölmədi ki… Və ölə də bilməz. O da su kimi çəkilib torpağa getdi və torpağı daha nurlu elədi, daha işıqlı elədi, daha bərəkətli elədi.***

***Elçibəy şəxsən mənə dərs deməyib. Tarix və Şərqşünaslıqda dərs deyirdi. Biz də dərsdən qaçıb gedərdik onun əsasən Tarix fakültəsində dediyi mühazirələrə qulaq asmağa. Bəzən auditoriyada 50 nəfər əvəzinə, 70-80 adam olurdu. Auditoriya dolanda qapıları açıq qoyurdular ki, bayırdakı uşaqlar da onu dinləyə bilsin.***

***Yeganə müəllim idi ki, mühazirə vaxtı siqaret çəkərdi, külqabı da əlində olardı. Biz də heyranlıqla, ayaqüstə olsaq da, onun mühazirələrinə qulaq asardıq.***

Bax:səh-2

## ZADULİN YENƏ BAŞINDAN BÖYÜK DANIŞDI



**Tokayevin Putinlə keçirtdiyi görüşdə sərt danışığından sonra (Simonyanın da gözləri çıxmışdı kəlləsinə) Rusiyada Qazaxıstanı hədələmə kampaniyası başlayıb. Kampaniyanın başında da hamımızın tanıdığı, ermənilərin dabanını yalayan Zadulin dayanır. Və o deyib ki, Qazaxıstanda rusların yaşadığı ərazilər Rusiya torpağıdı. Yəni sözündən belə çıxır ki, Ukraynadan sonra növbə sizindir.**

**Yavaş ye, boğazında qalar.**

## DÜNYA KİNO ULDUZU ÖLDÜ



**Regimantas Adomaytis heç də gözümüzü yağır eləmiş Hollivud ulduzlarından geri qalmırdı. Sadəcə bəxti gətirməmişdi Bloxin kimi, SSRİ-də doğulmuşdu. Dünən 85 yaşında öldü. Maraqlıdır ki, bu xəbəri yayan saytlar onu da qeyd ediblər ki, ölüm səbəbi məlum deyil. 85 yaşında adamın, doğrudan da, ölüm səbəbi nə ola bilər?**

Qız üstə büçaqlayıb öldürüblər, ya Burbulis kimi dözməyib saunada ölüb və sair və ilaxır.

Torpağı nurla dolsun, dəfələrlə film çəkilişlərində Bakıda da olmuşdu.

Bu arada Alen Delon da ölmək istəyir, yazıq ölə bilmir.

Doğrudan, Alen Delon olasan və sonra da qocalıb öləsən. Çox böyük dilxorçuluqdu.

## GÜNÜN LƏTİFƏSİ

Siyavuş Novruzovla Zahid Oruc təyyarə ilə səfərə gedirlər, Təyyarə dənizin üstündə uçarkən xarab olur və şturman stuardessaya deyir ki, sən get sərnişinləri sakitləşdir. Stuardessa mikrafonla:

**- Hörmətli sərnişinlər, bu uçuş sınaq uçuşu olduğu üçün biz indi dənizə girib bir də çıxıb uçuşumuzu davam edəcəyik.**

Təyyarə dənizə çırpılır, qalıqları ətrafa dağılır. Siyavuş Novruzovla Zahid Oruc suyun altından dənizin üzünə çıxırlar. Siyavuş müəllim:

**- Zahid müəllim başa düşmədim, ə bə bunlar bizi dənizin ortasıda qoyub uçub getdilər?**

# “Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən müsbət qəbul ediləcək”



**”Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq”.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla görüşündə deyib.

Dövlət başçısı qeyd edib:

”Bu gün, əlbəttə, regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə danışacağıq. Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək”.

# İlham Əliyev: “Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib”

**”Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib”.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edərkən deyib.

”Müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun işinin intensivləşməsini qeyd etmək istərdim. Lap yaxın vaxtlarda Sankt-Peterburqda yeni görüş keçirilib. Ümid edirik ki, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə məhz kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində də praktiki addımlar atılacaq.

Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib. Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik” - deyə Prezident vurğulayıb.

# Azərbaycan-Özbəkistan ikitərəfli münasibətlərinə daim xüsusi diqqət ayrılır

**Prezident İlham Əliyev Özbəkistanda geniş tərkibli görüş zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirzoyoyevin dəvəti ilə rəsmi səfər edib. Özbəkistan dövlət və hökumət rəsmiləri ilə geniş tərkibdə keçirilən görüş zamanı Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında qarşılıqlı əlaqələr intensivləşməlidir. Hər bir istiqamət - iqtisadi qarşılıqlı fəaliyyət, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat-logistika sferası, energetika üzrə yaxşı nəticələr əldə etmək mümkün olar və bu yolla ticari-iqtisadi sahədə ciddi tərəqqiyə nail ola bilərik.**

”Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəkləyib. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi. Bu, bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Dünyadakı vəziyyəti nəzərə almaqla hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq.

Kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar.

Buna görə də bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaq”.

Kənd təsərrüfatı və texnoparkın inkişafı perspektiv əməkdaşlıq istiqamətləri barədə danışan İlham Əliyev,Azərbaycanda ipəkçiliyin inkişafı ilə bağlı məsələlərin operativ həllində Özbəkistanın yaxından iştirak etdiyini qeyd edərək, Özbəkistanın təcrübəsi və dəstəyi ilə ipəkçilik sahəni inkişaf yoluna çıxarmaq üçün addımlar atmağa imkan verdiyini bildirdi.

”Füzuli şəhərində Özbəkistan hökuməti tərəfindən hədiyyə olaraq orta məktəb inşa olunacaqdır. İşlərə artıq başlanıb və növbəti tədris ilinə qədər məktəbin istifadəyə verilməsi planlaşdırılır. Azərbaycan bunu çox yüksək qiymətləndirir. Qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir.

Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq”.

Prezident İlham Əliyev Daşkənddə Heydər Əliyev Meydanının açılışı mərasimində çıxış edib.



”Daşkəndin mərkəzində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş Meydanın yaradılması Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə hörmətin, həmdə xalqlarımızın qardaşlığının və dostluğunun təzahürüdür.

Küçə, meydan, barelyef, gözəl park - bunlar Azərbaycan xalqının böyük Liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir.

Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib.

Sovet dönəmində də, müstəqillik dövründə də həmişə xalqın yanında olub. Ən ağır dövrdə, xalqımız təcavüzə, təqiblərə məruz qaldığı vaxtlarda o, həmişə xalqın yanında olub. 1990-cı il yanvarın 20-də, Sovet İttifaqının parçalanmasından hələ iki il əvvəl o, sovet ordusunun Bakıya yeridilməsi, Azərbaycanın yüzlərlə günahsız vətəndaşının öldürülməsi və yaralanması ilə əlaqədar sovet rəhbərliyini açıq pisləmişdi. Ən çətin dövrdə, Naxçıvan Muxtar Respublikası təcavüzə məruz qalanda da o, öz xalqının yanında idi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən əslində o, Azərbaycanın bu tarixi hissəsini, qədim torpağını təcavüzdən müdafiə etdi. Yenə onun təşəbbüsü ilə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı məhz Naxçıvanda, Sovet İttifaqı dağılandan və Azərbaycan öz müstəqilliyini bərpa edəndən xeyli əvvəl dövlət bayrağı kimi rəsmən qəbul edilib.

Vətəndaş müharibəsi dövründə xalqın iradəsi ilə məhz Ulu Öndər Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəni inkişaf yoluna çıxartdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf - bütün bunlar onun adı ilə bağlıdır.

”Mənim edə bilmədiklərimi mənim davamçılarım edəcəklər”. Biz, onun davamçıları fəxr edirik ki, onun bütün vəsiyyətlərini həyata keçirmişik və ilk növbədə, tarixi ədaləti bərpa etmişik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik.

Ulu Öndər Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı. 1970-ci illərdə də onun Şərəf Rəşidoviç Rəşidov ilə dostluğu bütün sovet rəhbərliyinə məlum idi, 1990-cı illərdə də onun İslam Abduqəniyeviç Kərimov ilə dostluğu da xalqlarımıza məlum idi və bu, bizim münasibətlərimizin bugünkü inkişafının təməli idi.

Bu gün Azərbaycan və Özbəkistan müstəqil xarici siyasət kursu yürüdən, öz resurslarına güvənən, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanmış qüdrətli müstəqil dövlətlərdir”.

Prezident İlham Əliyev Özbəkistana rəsmi səfəri ilə əlaqədar qəbul edilən bəyanatla bağlı bildirib ki,Azərbaycan-Özbəkistan ikitərəfli münasibətlərinə daim xüsusi diqqət ayrılır.21 iyun tarixli səfər, aparılmış danışıqlar və imzalanmış sənədlər bunun əyani təsdiqidir. Müzakirə olunmuş mövzularvə əldə olunmuş razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaq.

”Strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə gələcək fəaliyyətimizin yol xəritəsidir. Orada xarici siyasətimizin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib.

Bu gün Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı var. Ölkələrimiz arasında münasibətlər daha möhkəm olacaq, aramızda daha çox əməkdaşlıq və qarşılıqlı dəstək olacaq. Bunun əsası-liderlərin siyasi iradəsi, eləcə də iqtisadi zəminlərdir.

Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.Bu sahə hər bir ölkə üçün, xüsusən bizim ölkələr üçün prioritet əhəmiyyət kəsb edir. Bizim yerləşdiyimiz regionlar təhlükəsizliyin və müdafiə qabiliyyətinin möhkəmlənməsi məsələlərinə gündəlik diqqət tələb edir. Biz təcrübə mübadiləsi, hərbi-texniki sahədə, müdafiə istiqamətli təhsil sahəsində əməkdaşlıq üzrə fəal əlaqə saxlayacaq, təhlükəsizliyimizi qarşılıqlı möhkəmlədəcək, addımlarımızı planlaşdıracağıq.

İmzalanmış siyasi Bəyannamə mahiyyət etibarilə münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatdırır. Təbii ki, qarşılıqlı dəstək də olacaq - həm mövcud beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkələrimizin və xalqlarımızın təhlükəsizliyi ilə bağlı bütün başqa məsələlər daimi diqqət tələb edir”.

**Hazırladı:**
**Mehriban Cəfərova**

Aqil ABBAS

# ELÇİBƏYİN ÇİÇƏKLƏYƏN MƏZARI

*Bu gün Elçibəyin doğum günüdür. 84 yaşı tamam olur. Elə şəxsiyyətlər var ki, onlar ölmürlər. Vaqif Cəbrayılzadənin təbirincə desək:*

*Su kimi çəkilib*
*torpağa gedirlər.*

*Elçibəy də ölmədi ki… Və ölə də bilməz. O da su kimi çəkilib torpağa getdi və torpağı daha nurlu elədi, daha işıqlı elədi, daha bərəkətli elədi.*

*Elçibəy şəxsən mənə dərs deməyib. Tarix və Şərqşünaslıqda dərs deyirdi. Biz də dərsdən qaçıb gedərdik onun əsasən Tarix fakültəsində dediyi mühazirələrə qulaq asmağa. Bəzən auditoriyada 50 nəfər əvəzinə, 70-80 adam olurdu. Auditoriya dolanda qapıları açıq qoyurdular ki, bayırdakı uşaqlar da onu dinləyə bilsin.*



*Yeganə müəllim idi ki, mühazirə vaxtı siqaret çəkərdi, külqabı da əlində olardı. Biz də heyranlıqla, ayaqüstə olsaq da, onun mühazirələrinə qulaq asardıq.*

*Elçibəy həbsxanadan çıxandan sonra ən çox Ağdama gələrdi. Həm Milli Qəhrəman Allahverdi Bağırovla dost idi, həm də jurnalist Surxay Əlibəyli ilə. Hətta Surxay Əlibəylinin oğlu Altayın (Məhşur futbol şərhçisi Altay Əlibəyli) kirvəsi olmuşdu. Onun Ağdama son səfərlərindən biri də Rüstəm Hacıyevin toy mərasiminə gəlişi idi ki, orda qeyri-adi bir rəqs elədi, hamı geri çəkildi ki, Elçibəyin rəqsini görsün.*

*Amma Elçibəy Ağdama nə vaxt gəlmişdisə atamın ocağında da bir qismət çörək kəsmişdi, ya da çay içmişdi. Atam da o nə vaxt gəlmişdisə ayağının altında qurban kəsmişdi. Bizim həyətdə atam içkini qadağan eləmişdi.*

*Bununla bağlı müəyyən yazılar yazmışam, təkrar etmək istəmirəm.*

*Bir dəfə atamla Elçibəy bərk mübahisə elədilər. Atam deyirdi:*

*- Bəy, sən elədiyin hərəkət inqilabçılıqdır. Hər il nə qədər gəncə vətənpərvərlik, millətçilik aşılayırdın. Əlli nəfərin içində beş-on nəfər yetişdirsən bəsiniydi. Amma sən inqilabçılıq elədin, həbs olundun və əlindən auditoriya çıxdı. Müəllimlik hüququn qadağan edildi. İndi özün fikirləş, sənin yerinə kimlər dərs deyir və onlar nələr aşılayır? İndi səni yalnız çayxanalarda, hansısa məclislərdə dinləyirlər.*

*Çox qəribəydi ki, Elçibəy atamla razılaşdı.*

*Yeri gəlmişkən, bir zarafat edim. Ağdamda şair Vaqif Bəhmənli ilə gəzərkən bir elanın şahidi olduq: "Poeziya, tarix və musiqi. İştirak edirlər: Əbülfəz Əliyev, Səxavət Məmmədov və Zakir Fəxri".*

*Vaqif gülərək dedi:*

*- Ə, ta denən türemşiklərlə görüş də.*

*Elçibəyin Ağdamda bir mifi vardı. Bunu da rəhmətlik Allahverdi Bağırov yaratmışdı. Zaman gəldikcə Elçibəyin Ağdama səfərlərini xatirələrimdə yazaram.*

*İnsanlar böyük yazı oxumadığından və oxumaq istəmədiyindən mövzunu uzatmaq istəmirəm.*

*Tez-tez Ağdama gedirəm. Dağılmış yurduma-yuvama gedirəm. Çox qəribədir ki, hər dəfə həyətə girəndə ilk ağlıma gələn Elçibəy olur. Ayağının altında atamın kəsdiyi qurbanlıq erkək olur.*

*Mən universitetdə Bəxtiyar Vahabzadə, Mircəlal Paşayev, Bəkir Nəbiyev, Qulu Xəlilov, Firudin Hüseynov, Firudin Cəlilov, Vəkil Hacıyev, Cəlal Allahverdiyev kimi və sair və ilaxır müəllimlərdən dərs almışam. Amma Elçibəy şəxsən mənə dərs deməyib. Yuxarıda qeyd etdiyim kimi, onun Tarix fakültəsindəki mühazirələrinə qulaq asmaq üçün öz dərsimizdən qaçıb gedərdik onun mühazirələrinə.*

*Yəni universitetdə inqilabı, millətçiliyi, vətənpərvərliyi Elçibəydən öyrənmişdik və yenə də öyrənirik.*

*Elçibəy tələbələrinə və ümumiyyətlə, hamıya "bəy" deyə müraciət edərdi. Ona görə də hamı da yığışıb bu müraciəti özünə qaytarırdı: "BƏY". Sonra hamıya "bəy" deyiləndə qayıdıb ona "böyük bəy" dedilər, sonra da "Elçibəy" dedilər.*

*Elçibəy ölmədi, su kimi çəkilib torpağa getdi. Vaqif Cəbrayılzdənin təbirincə desək:*

*Ölsəydi*
*bu dünyanın qara torpaqları*
*dolduramazdı onun*
*üz qırışlarını.*

*Bu gün Azərbaycan torpaqları işğaldan azad olunub. Ən çox da sevinən Elçibəydi.*

*Bəy, bir gün Bütöv Azərbaycan arzun da həyata keçər - Turan da. Onda məzarın çiçəkləyəcək.*

# Sahibə Qafarova Talant Mamıtovla görüşüb

**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti TÜRK PA-nın XI Plenar sessiyasında iştirak etmək üçün Qırğız Respublikasının Çolpon-Ata şəhərinə səfər edib. Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Məlahət İbrahimqızı, Ağalar Vəliyev, Cavanşir Feyziyev, Nizami Cəfərov, Sədaqət Vəliyeva, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslərin daxil olduğu nümayəndə heyətini Joqorku Keneşin (Parlamentin) sədr müavini Ulan Primov, xarici işlər nazirinin müavini Aybek Moldoqaziyev, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, TÜRK PA-nın Baş katibi Mehmet Süreyya Er və digər rəsmi şəxslər qarşılayıblar.**

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova Qırğızıstan Joqorku Keneşinin sədri Talant Mamıtovla görüşüb. T. Mamıtov xalqlarımız arasında dostluq əlaqələrinin dərin köklərə malik olduğunu qeyd edərək, müstəqillik illərində ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdiyini vurğulayıb. Bildirilib ki, parlamentlər səviyyəsində münasibətlərimizin inkişafı həyatın digər sahələrində əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edir. Deputatlarımızın müxtəlif beynəlxalq platformalarda birgə iştirakı ümumi mənafelərə xidmət edir. Joqorku Keneşinin sədri qeyd edib ki, Qırğızıstan və Azərbaycan bütün beynəlxalq qurumlarda ənənəvi olaraq həmişə bir-birini dəstəkləyir. O, TÜRK PA çərçivəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Öz növbəsində ölkələr arasında münasibətlərin yüksək səviyyədə olmasında dövlət başçılarının rolunu vurğulayan spiker Qırğız Respublikasının Prezidenti Sadır Japarovun bu ilin aprel ayında ölkəmizə səfərini və səfər çərçivəsində keçirilən görüşlərin əhəmiyyətini diqqətə çatdırıb.

Qeyd olunub ki, münasibətlərimizin möhkəmlənməsində dövlət başçılarımızın görüşləri və qarşılıqlı səfərləri xüsusi əhəmiyyətə malikdir.

Gələn il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tamam olacağını diqqətə çatdıran Milli Məclisin sədri qeyd edib ki, ötən müddətdə münsaibətlərimiz strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasında əlaqələrin dərinləşməsinə qanunverici orqanların özünəməxsus töhfələr verdiyini qeyd edən Sahibə Qafarova Qırğızıstan parlamentinin sədri ilə bundan öncəki görüşlərini məmnunluqla xatırlayıb.

Spiker xüsusilə TÜRK PA çərçivəsində əməkdaşlığın əhəmiyyətini diqqətə çatdıraraq, qeyd edib ki, müasir dünyada cərəyan edən hadisələr fonunda TÜRKPA-nın rolu və əhəmiyyəti daha da artmaqdadır.

Təşkilatımız ötən illər ərzində fəaliyyəti ilə xalqlarımızı bir-birinə daha sıx bağlamağın səmərəli bir vasitəsi kimi özünü təsdiqləmişdir. O, bu baxımdan, XI Plenar sessiyasına da təşkilatın gələcək fəaliyyətinə və üzv dövlətlər arasında əlaqələrin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin sədri görüşdə həmçinin Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Qələbə və regionda yaranmış yeni vəziyyət barədə məlumat verib. Bildirib ki, Azərbaycan Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib. Ermənistan ərazilərimizi işğal altında saxladığı müddətdə oradakı bütün maddi-mədəni sərvətlərimizi talan edib, şəhərlərimizi, kəndlərimizi, məscidlərimizi dağıdıb. Milli Məclisin sədri bildirib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir.

O, ölkəmizin regionda daimi sülh və təhlükəsizliyin, əməkdaşlığın təmin olunmasında maraqlı olduğunu, bu istiqamətdə bütün lazımi addımları atdığını diqqətə çatdırıb.

**Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

**Nicat Novruzoğlu**

# RUS AYISINA MEYDAN OXUYAN DOVŞAN

**Deməli belə. Bir dovşan hər gün gəlir çayın qırağına. O biri tayda yuva salmış ayını çağırır:**

***- Miş, Miş.***

Ayı yuvasından yuxulu-yuxulu çıxır. Soruşur:

***- Nədi, ə?***

Dovşan başlayır ayını söyməyə, o ki var söyür.

Ayı çayı keçmək istəyəndə dovşan götürülür.

Bu demək olar ki, hər gün təkrar olunur. Dovşan gedir dovşanların içində tripaçlıq edir ki:

***- Sən öl, Mişin üzünə söyürəm, özü də bütün nəslinə, mənə bir söz deyə bilmir.***

Dovşanlar inanmır. Deyir, inanmırsız gedək sizin yanınızda söyüm. Yığışıb hamısı gəlir çayın kənarına.

Tripaç dovşan bağıra-bağıra çağırır:

***- Miş, Miş, ə, sənlə deyiləm?***

Ayı da boğaza yığıldığından çayı bu taya keçib meşədə gizlənibmiş. Qəfil meşədən çıxır, əl atıb dovşanın boynundan tutub qaldırır yuxarı:

***- Ə, nə deyirsən?***

Dovşan yazıq-yazıq baxır və deyir:

***- Dyadya Miş, bax, bütün qohum-əqrəbamı yığıb gətirmişəm ki, səndən üzr istəyim.***

Stalin Litvaya zəng edir. Rus dilində telefonçu qıza deyir ki, birinci katibi bağla.

Telefonçu qız:

***- Poqovarite po litovski, pojalyusta.***

Stalin bir də tələb edir ki, birinci katibi bağlasın.

Qız yenə deyir:

***- Poqovarite po litovski, pojalyusta.***

Stalin:

***- İtin qızı, bu dəqiqə mənə birinci katibi bağlamasan, sabah bütün Sibir Litva dilində danışacaq.***

Qəzetlərdə oxudum ki, Litvanın prezidenti Putini hədələyib.

**Aqil ABBAS**

# MEDİA-dan Venesiya Komissiyasının "Media haqqında" Qanuna dair rəyinə reaksiya

**İyunun 20-də Avropa Şurasının Venesiya Komissiyası ”Media haqqında” Azərbaycan Respublikası Qanununa dair rəyini öz rəsmi veb-saytında yerləşdirmişdir.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən rəydə qeyd olunan məsələlərlə bağlı rəsmi mövqe yazılı şəkildə Venesiya Komissiyasına təqdim edilmiş və bu arqumentlərin bir qismi bu və ya digər formada yekun rəydə öz əksini tapmışdır.

Qanun layihəsi heç də rəydə qeyd olunduğu kimi ”seçilmiş qruplarla” yox, cəmiyyətin müxtəlif seqmentlərindən olan media nümayəndələri və ekspertlərin iştirakı ilə dəfələrlə müzakirə olunmuşdur.

Keçmiş müvafiq qanundan fərqli olaraq ”Media haqqında” Qanun ”jurnalist” anlayışı ilə bağlı beynəlxalq təcrübəyə istinad edərək bu fəaliyyətə

daha geniş prizmadan yanaşmış, yalnız ölkə daxilində deyil, həm də ölkə xaricində Azərbaycan jurnalistlərinin peşəkar fəaliyyətinin məhdudiyyətlərdən qorunmasına yönəlmişdir. Qanun fəaliyyəti Azərbaycan Respublikasının ərazisinə və əhalisinə istiqamətlənmiş media subyektlərinin müdafiə mexanizmlərindən istifadəsinə şərait yaradır, həmçinin fövqəladə vəziyyətlərdə jurnalistlərin təhlükəsiz şəraitdə peşə borclarını yerinə yetirməsini təmin edir.

Rəydə ”zorakılıq” elementi olmadığı təqdirdə dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş çağırışların dəstəklənməsi tərəfimizdən heç bir halda qəbul edilə bilməz. Uzun illər işğalçı siyasətin və terrorun qurbanı olan, ərazi bütövlüyü pozulmuş bir ölkəyə qarşı belə yanaşma hüququn aliliyi, jurnalist peşəkarlığı və xalqımızın milli maraqları ilə bir araya sığmır.

Rəydə iddia edildiyi kimi Qanunun media subyektinə dair tələblərinin (Maddə 26) başa düşülməsində hər hansı çətinlik mövcud deyildir. 26-cı maddə hər hansı mədəniyyət abidəsinə zərər vurduğuna görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri deyil, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə məhkum olunmuş şəxsləri əhatə edir və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu kateqoriya cinayətlər (cinsi zorakılıq, irqi ayrı-seçkilik, seksual xarakterli zorakılıq hərəkətləri və s.) konkret olaraq təsbit edilmişdir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Qanunda media subyektlərinin xarici şəxslər tərəfindən təsis edilməsi və xaricdən maliyyələşdirilməsi qətiyyən istisna edilmir. Belə olan halda sadəcə nizamnamə kapitalında pay nisbəti müəyyənləşdirilir, çap mediası və onlayn media subyekti kimi fəaliyyət göstərmək üçün şəxsin Agentliyə məlumat verməsi icazə deyil, bəyanetmə xarakteri daşıyır ki, bunu lisenziya proseduru ilə eyniləşdirilmək əsassızdır.

Media Reyestrinə daxil edilmək üçün jurnalistlərə qoyulmuş tələblərin şərhi zamanı çox önəmli bir nüansın diqqətdən qaçırıldığı, reyestrin onlar üçün könüllü olduğu, reyestrə daxil edilməmiş jurnalistlərə münasibətdə hər hansı məhdudlaşdırmanın tətbiqinin müzakirə mövzusu olmadığı bildirilmişdir.

Fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli şəxslərin dairəsi izah edildikdən sonra Venesiya Komissiyası bu məsələ ilə bağlı MEDİA Agentliyinin yanaşmasını qəbul etmişdir.

Qanunun 15.1.3-cü və 15.1.4-cü maddələrinin hər hansı cinayət hadisəsinə dair bütün məlumatları deyil, yalnız və yalnız ibtidai araşdırma məlumatlarını nəzərdə tutduğu ətraflı şəkildə izah olunmuş, nəticədə Venesiya Komissiyasının bu maddələrlə bağlı yanaşması daha dəqiq şəkildə ifadə edilmişdir.

Təəssüflə vurğulayırıq ki, bəzi media subyektlərinin Komissiyanın rəyində əks olunmuş fikirləri kontekstdən çıxararaq təqdim etməsi ictimai fikirdə çaşqınlıq yaratmağa hesablanıb və Azərbaycanda həyata keçirilən media islahatlarına tendensiyalı münasibətin nəticəsidir. Venesiya Komissiyasının öz rəyində Qanunun bir çox maddələrini müzakirə predmetinə çevirməməsi, MEDİA Agentliyinin mövqeyi ilə uzlaşan yanaşma sərgiləməsi təqdirəlayiqdir və beynəlxalq təşkilatla səmərəli dialoqun göstəricisidir.

Rəşad MƏCİD

# Ağdamı yarım milyonluq şəhərə çevirə bilərikmi?!

*20 il öncə "525-ci qəzet"də "Yeni paytaxt ehtiyacı" adlı yazı yazmışdım, bu mövzuda müzakirə açmışdıq. Ziyalılar, millət vəkilləri, mütəxəssislər yeni paytaxtın inşasının çox gərəkli olduğunu söyləmiş, maraqlı, məqsədəuyğun təkliflər səsləndirmişdilər. O təkliflər içərisində yeni paytaxtın Qarabağa yaxın ərazidə salınması xüsusilə diqqət çəkmişdi. Neft bumu öncəsiydi, tezliklə ölkəyə axıb gələcək böyük vəsaitlərin hara yönəldilməsi ciddi maraq doğururdu.*

*O vaxtlar ANS televiziyasında bu sahənin mütəxəssisi olan inşaatçı-alimlə debata da çıxmışdıq. Onun bir sözü indiyədək yadımdadır: "Abşeron yarımadasında dörd milyon adamın məskunlaşması mümkündür".*

*Mən isə demişdim ki, artıq Abşeron yarımadasında dörd milyona yaxın insan məskunlaşıb. Demək olar, ölkənin yarısı paytaxtda yaşayır. İndi isə Bakı lap yüklənib.*

*Paytaxt artıq bu qədər yükə dözmür. Bakıda tikintilər belə davam edəcəksə, bir azdan vəziyyət daha çətin olacaq.*

*Paytaxtdakı sıxlığın qarşısını almaq üçün nazirliklərin, universitetlərin regionlara köçürülməsinin vacibliyi barədə indi də tez-tez fikirlər səsləndirilir.*

*Çox şükür ki, torpaqlarımız işğaldan azad olunub artıq, böyük quruculuq işləri başlayıb.*

*İşğaldan azad olunmuş ərazilərdə böyük şəhər salmağın da zamanıdır. Bunun üçün hər cəhətdən ən uyğun yer isə, sözsüz ki, Ağdamdır. Ağdam ərazisində 500 minlik şəhər salınması heç də xülya deyil, gerçəkləşməsi mümkün olan məsələdir. Ötən əsrin 30-cu illərində də Ağdamın daha geniş inkişaf etdirilməsi barədə düşünülüb və bu, gələcək təhlükələrin - məlum separatçılıq cəhdinin qarşısını almaq üçün vacib amil sayılıb.*

*Təsəvvür edək ki, Ağdamda beşyüz minlik, daha sonra da əhalisi bir milyona çatan şəhərimiz var. Onda ətrafdakı 20-30 min separatçının əriyib yoxa çıxması da təbii prosesə çevriləcək. Üstəlik, paytaxtdakı sıxlığın xeyli azalmasına, ümumi tərəqqiyə xidmət edən gözəl, ən müasir tipli yeni bir şəhər - sabahın Ağdamını qazanmış olacağıq.*

# Vilayət Eyvazov Bolqarıstan prezidenti ilə görüşdü



**Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovun dəvəti ilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti bu ölkədə iki günlük rəsmi səfərdə olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, iyunun 23-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev daxili işlər naziri Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş olduğunu söyləyən ölkə rəhbəri dövlətlərimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, hərtərəfli əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, iki ölkə arasındakı dostluq münasibətlərini və Sofiya ilə Bakı arsında ümumi maraq doğuran bir sıra sahələrdə strateji dialoqu yüksək qiymətləndirib, cinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanları arasında əməkdaşlığın təşviqinin Bolqarıstanın Azərbaycanla tərəfdaşlığının yüksəldilməsi üçün mühüm amil olduğunu bildirib.

Beynəlxalq arenada hər iki dövlətin bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, olduqca mürəkkəb regionda yerləşməsinə baxmayaraq cənab İlham Əliyevin liderliyi altında respublikanın son illər böyük uğurlara imza atdığını deyən cənab Rumen Radev Azərbaycanın öz milli maraqlarına xidmət edən müstəqil siyasət apardığını, dünyada nüfuzunun günü-gündən artdığını vurğulayıb, səmimi salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırmağı xahiş edib.

Göstərilən diqqətə, Azərbaycan haqqında xoş sözlərinə, dəyərli fikirlərinə, eləcə də nümayəndə heyətini qəbul etdiyinə görə Bolqarıstan Prezidenti cənab Rumen Radevə təşəkkkürünü bildirən daxili işlər naziri Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Bolqarıstan Prezidentinin diqqətinə çatdırıb.

Daha sonra Bolqarıstan Respublikasının daxili işlər naziri Boyko Raşkovla general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı mövcud əlaqələr yüksək qiymətləndirilib, əməkdaşlığın bütün istiqamətlər üzrə bundan sonra daha da möhkəmlənəcəyinə və inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Daxili işlər və təhlükəsizlik sahəsində ikitərəfli əlaqələrin inkişafı və dərinləşməsi imkanları, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizənin diqqət mərkəzində dayandığı, yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının vacibliyi vurğulanıb.

Ölkələrimiz arasında tarixi dostluq əlaqələrinin inkişafını qeyd edən daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Bolqarıstana səfərindən məmnunluğunu ifadə edərək səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib. O, bolqarıstanlı həmkarları ilə əməkdaşlığa, transmilli mütəşəkkil cinayətkarlığın müxtəlif təzahürləri, terrorçuluq, kibercinayətkarlıq, insan alveri, narkotik vasitələrin qeyri-leqal dövriyyəsi, qanunsuz miqrasiya sahəsində təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

**Sonda daxili işlər nazirləri "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə Bolqarıstan Respublikası Daxili İşlər Nazirliyinin Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalayıblar. Qeyd olunub ki, bu Memorandum tədris sahəsində qabaqcıl təcrübə mübadiləsinin imkanlarını genişləndirəcək və polis əməkdaşlarının peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə öz töhfəsini verəcək.**

# DEPUTATLAR ŞUŞADA TOPLANDI

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin Şuşada birgə iclası keçirilib.**

Komitə sədri Tahir Mirkişili Milli Məclisin komitə iclaslarının Şuşa şəhərində keçirilməsinin tarixi əhəmiyyət daşıdığını və qürurverici olduğunu qeyd edərək bu günləri bizə bəxş edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Ordumuza, şəhidlərimizə, qazilərimizə borclu olduğumuzu vurğulayıb və bugünkü iclasın Şuşada keçirilməsinə yaratdığı şəraitə görə Milli Məclisin sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

İclasda əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Tahir Mirkişili iclasın gündəliyinə daxil edilən məsələlər barədə məlumat verib. İlk iki məsələnin "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) və "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) cari büdcənin dürüstləşdirilməsi ilə bağlı olduğunu qeyd edən komitə sədri hər iki məsələ ilə əlaqədar fikirlərini açıqlayıb. Komitə sədri təqdim olunan qanun layihələrində dövlət büdcəsində yaranan əlavə gəlirlərin dövlətin qarşısında duran əsas məsələlərin həllinə, xüsusən də işğaldan azad edilmiş ərazilərin bərpa-quruculuq işlərinə yönəldilməsini yüksək dəyərləndirib. Bildirib ki, dövlət büdcəsində yaranan bu yeni imkanlar müdafiə, təhlükəsizlik, işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin öz yurdlarına qayıtması istiqamətlərində işləri qısa müddət ərzində təmin etməyə imkan verəcək.

Sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxış edərək tarixi Azərbaycanın mədəniyyət paytaxtı olan tarixi Şuşa şəhərində olmaqdan keçirdiyi hissləri bölüşüb. O, Azərbaycan şəhidlərinin qanı ilə yoğrulan Şuşa torpağının bizim üçün müqəddəsliyindən, Şuşanın Azərbaycan xalqının tarixində, mədəniyyətində tutduğu yerdən danışıb.



Sonra Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev də komitələrin Şuşada iclasının keçirilməsinin, Azərbaycanın son 12 ilinin ən böyük büdcə artımı ilə bağlı rəsmi qərarların qəbulunun əhəmiyyəti barədə fikirlərini bölüşüb. O, Böyük Zəfərin və dəmir yumruq kimi birliyimizin rəmzi olan Şuşa şəhərinin xalqımızın hayatında və türk dünyasındakı yeri haqqında fikirlərini səsləndirib.

Gündəliyin ilk iki məsələsi barədə danışan Maliyyə nazirinin müavini Azər Bayramov deyib ki, işğaldan azad olunmuş ərazilərimizin bərpasının ikinci ilində bərpa proqramlarını qabaqlayıcı templərlə həyata keçiririk. Bu baxımdan əlavə vəsaitlərin ayrılması çox önəmli məsələdir. Mümkün qədər qısa müddət ərzində burada normal həyatın bərpası, insanların yaşayışı üçün lazımi şəraitin yaradılması dövlətin prioritet məsələlərindəndir.

İclasda çıxış edən İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, büdcəmiz inkişaf büdcəsidir və növbəti illərdə Qarabağ regionu Azərbaycan iqtisadiyyatının mühüm hissəsi olacaqdır. Büdcədə də məhz Qarabağ regionunun inkişafı üçün əlavə vəsaitin ayrılması nəzərdə tutulub. Nazir müavini diqqətə çatdırıb ki, artıq Araz vadisi və Ağdam iqtisadi zonaları yaradılıb və Ağdam iqtisadi zonasında ilk rezidentlərimiz də var. Bütün bunlar bu regionda iş yerlərinin yaradılmasına və zonanın iqtisadi inkişafına müsbət təsir edəcəkdir.

Sonra çıxış edən Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev şəhid ailələrinə və qazilərə dövlət qayğısından, bu sahədə həyata keçirilən dövlət proqramlarından danışıb. Bildirib ki, bu məsələlər ölkə rəhbərliyinin nəzarəti altındadır, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də bu sahədə əlindən gələni etməyə hazırdır.

İclasda Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov çıxışında yenidən baxılan büdcənin gəlir parametrləri üzrə icra göstəricilərindən danışıb. O, diqqətə çatdırıb ki, əldə edilən nailiyyətlər göz önündədir. Hesablama Palatası bu qənaətə gəlib ki, ölkəmiz Dövlət Büdcəsinin gəlirləri baxımından öz üzərinə götürdüyü öhdəliklərin icrasını artıqlaması ilə təmin edəcəkdir.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanunda dəyişiklik edilməsi və "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

**İclasda Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında iki qanun layihəsi (ikinci oxunuş), "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Daşınar əmlakın yüklülüyü haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Mülki Məcəllədə, Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri də müzakirə olunaraq Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə edilib.**

**Nicat Novruzoğlu**

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ, GENERAL-POLKOVNİK ZAKİR HƏSƏNOV CƏNABLARINA



**Cənab Nazir!**

26 iyun Azərbaycanda Silahlı Qüvvələr günüdür. Bu münasibətlə Sizi və Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini ürəkdən təbrik edir, hər birinizə can sağlığı və xidmətinizdə uğurlar diləyirik.

**Cənab General!**

Ölkəmizdə hər kəs yaxşı bilir ki, Azərbaycan Ordusu Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Böyük Vətən Müharibəmizdə öz gücünü ortaya qoyaraq torpaqlarımızı işğaldan azad etmiş, bayrağımızı Şuşada dalğalandırmışdı. Ali Baş Komandanımızın uzaqgörən siyasəti, Orduya göstərdiyi qayğı və diqqət, yeni silahlarla təminat, hər bir əsgərə önəm verilməsi, Dəmir Yumruq və düşünülmüş strategiya təkcə düşməni yox, həm də bütün dünyanı heyrətə saldı. Hərb tarixində Azərbaycan Ordusunun şücaəti göstərdi ki, Azərbaycan Əsgəri yenilməzdir. Bu gün də məhz Ali Baş Komandanımızın Sizin rəhbərlik etdiyiniz Silahlı Qüvvələrimizə böyük diqqəti göz önündədir. Belə ki, işğaldan azad olunmuş ərazilərimizdə yerləşən hərbi kontingentimiz üçün yaradılan şərait, keçirilən hərbi təlimlər, silahlanmaya daxil edilən yeni və müasir silah-sursatlar və eləcə də hərbçi ailələrinə yaradılan şərait Ordumuzun gücünü birə-beş artırır.

**Cənab General!**

Bu gün Azərbaycan Ordusu dünyanın ən nüfuzlu orduları sırasında öz yerini təsdiq edib. Biz Ordumuzla fəxr edir, Komandanımıza güvənirik. Xalqımız birmənalı şəkildə əmindir ki, Ali Baş Komandanımızın rəhbərliyi altında Ordumuz istənilən düşməni yerində oturtmağa qadirdir. Odur ki, Sizin rəhbərliyiniz altında zabit heyətinin artan peşəkarlığı, əsgərlərimizin müasir silahlardan istifadə bacarığı sevindirici və qürurvericidir.

**Cənab Nazir!**

Biz 44 günlük Zəfər salnaməmizdə Ordumuzun qüdrətini görüb onunla qürur duyduq. Bu gün də həmin qürur hissi hər birimizin qəlbinə hakimdir. Məhz həmin qürur hissi ilə də Ali Baş Komandanımız başda olmaqla hər bir əsgər və zabit heyətimizi, bütövlükdə Silahlı Qüvvələrimizin hər bir təmsilçisini Peşə bayramı münasibətilə ürəkdən təbrik edir, onlara Vətənimizi qorumaqda, səmamızın aydın olmasının təmin edilməsində uğurlar diləyirik.

**Bayramınız mübarək!**

**Allah Azərbaycan Ordusunu qorusun!**

**Hörmətlə:**
**Millət vəkili Aqil Abbas və**
**"Ədalət" qəzetinin kollektivi**

# QƏDDAFİ NİYƏ ÖLDÜRÜLDÜ?

*Qəddafinin öldürülməsinin "16 əsl səbəbi":*

*1. Liviyada elektrik haqqı yox idi, elektrik enerjisi bütün vətəndaşlar üçün pulsuz idi.*

*2. Kredit faizi yox idi, banklar dövlətin idi, vətəndaşlarına verilən kredit qanunla 0% idi.*

*3. Qəddafi valideynlərinə söz vermişdi ki, Liviyada hər kəs ev sahibi olana qədər ev almayacaqdır. Qəddafinin atası onun hakimiyyəti dövründə çadırda dünyasını dəyişmişdi.*

*4. Liviyada bütün yeni evlənən cütlüklər hökumətdən 60.000 dinar alırdılar ki, onlar öz mənzillərini alıb ailələrini qururdular.*



*5. Liviyada təhsil və müalicə pulsuz idi. Qədafiyə qədər cəmi 25%, onun dövründə 83% savadlı insan var idi.*

*6. Liviyalılar təsərrüfatda işləmək istəsələr idi, pulsuz məişət texnikası, toxum və mal-qara alırdılar.*

*7. Əgər kimsə Liviyada müalicə oluna bilmirdisə, dövlət onlara +2300 ABŞ dolları ödəyir və müalicə üçün xaricə səyahət şəraiti yaradırdı.*

*8. Liviyalı maşın alırdısa, qiymətinin 50%-i dövlət tərəfindən maliyyələşdirilirdi.*

*9. Benzinin litrinin qiyməti 0,14 dollar idi.*

*10. Liviyanın xarici borcu yox idi və 150 milyard dollar ehtiyatı var idi (hazırda bu pullar bütün dünyada dondurulmuşdur)*

*11. Liviyalıların bir qismi məktəbdən sonra iş tapa bilməyəndə dövlət onlara ölkıdə olan orta maaşı ödəyirdi.*

*12. Liviya neftinin satışlarının bir hissəsi bütün vətəndaşların bank hesabları ilə birbaşa əlaqəli idi.*

*13. Uşaq dünyaya gətirən ana 5000 dollar alırdı.*

*14. 40 çörəyin qiyməti 0,15 dollar idi.*

*15. Liviyalıların 25%-i bütün diplomlara sahib idi.*

*16. Kadafi səhra ölkəsində suyun mövcud olmasını təmin etmək üçün "BÖYÜK İNSAN LAYİHƏSİ" kimi tanınan dünyanın ən böyük suvarma layihəsini həyata keçirmişdi.*

*Bunun adı "DİKTATORLUQ"dursa, demokratiya nədir?*

*mənbə: facebook*

*Aqil ABBAS*

# DEYƏSƏN, SƏRHƏDLƏRİ AÇANA SÖYÜŞ QOYUBLAR

*Bütün dünya sərhədləri açıb, qapıbir qonşumuz Gürcüstan lap çoxdan açıb. Yay, turizm vaxtı... Gürcüstanın da çörəyi turizmdən çıxır. Deyirlər, ovu bərədə vurarlar. Biz o ovu çoxdan qaçırtmışıq. Söhbət turistdən gedir.*

*Srağagün dəniz kənarındaydım, bulvarda gəzirdim. Həmişə bu vaxtlar dəniz kənarı İrandan, Cənubi Azərbaycandan gələn turistlərdən aşıb-daşırdı. Eləcə də ərəb ölkələrindən.*

*Bir saat gəzdim, gözümə bir dənə də turist dəymədi. Sərhədlərimizi nə təhər bağlamışıqsa quş quşluğuyla keçə bilmir. Düzdür, arada erməni güllələri sərhədyanı kəndlərimizə keçə bilir.*

*Türkiyədə 20 min azərbaycanlı tələbə oxuyur. Bu yay onların evlərinə gəlməsi sual altındadı. Bunun nə qədəri "çərəz" Naxçıvan gələ bilər? Uzaqbaşı beş-on faizi. Türkiyə ingiltərə deyil, Fransa deyil, Almaniya deyil, Amerika deyil ki, orda təyyarə bileti almağa imkanı olan varlı ailələrin uşaqları oxusun. Qardaş ölkədə təhsil alanlar əsasən kasıb-kusubun balalarıdı.*

*Qəzetlərdə, saytlarda da tez-tez yazırlar: "Şad xəbər! Sərhədlər açılacaq. Açıqlama"; "Sərhədlər açılır" və sair və ilaxır. Heç biri də rəsmi açıqlama deyil. Ya bir ekspertin fikridi, ya da bir deputatın fərziyyəsidi.*

*Deyəsən, sərhədlərin açılmasına kimsə möhkəm söyüş qoyub, özü də pis söyüş. Ona görə də Operativ Qərargah sərhədləri açmaqdan çəkinir, söyüş sahibi olmaq istəmir.*

*Uşaq vaxtı belə bir şey vardı - biri o birisinə söyəndə söyülən tez bir dəmir parçasından tutub deyirdi: "Əlim dəmirdə". Mənası o idi ki, yəni əlim dəmirdədisə söyüş mənə yox, söyənə çatır.*

*İndi Operativ Qərargah, bəlkə siz də əlinizi dəmirə qoyasınız, sərhədləri açasınız.*

*Turistlərin xətrinə yox ey, Azərbaycandan kənarda qalan və Vətənə gəlmək üçün lələy döyən kasıb-kusub soydaşlarımızın xətrinə.*

*Zəngəzur dəhlizi də hələ açılmır ki, gedək İrəvandan uçaq.*

*Mehman CAVADOĞLU*

# Kalininqrad böhranı

**Ukrayna müharibəsiylə özünü çıxılmaz dalana dirəmiş Rusiya daha bir keçmiş "qardaş" sovet respublikasıyla ciddi qarşıdurma ərəfəsindədir. Düzdür, "böyük qardaş" hazırda Ermənistan istisna olmaqla öz "kiçik qardaşlarının", demək olar ki, hamısıyla tam və ya nisbi düşmənçilik münasibətlərində olduğu üçün burda qeyri-adi bir şey yoxdur. Lukaşenkonun indiki aşırı Putin sevgisinə gəlincə, bu onun son prezident seçkilərindən sonra üzləşdiyi ağır durumla bağlıdır. Total seçki saxtakarlığı və bu saxtakarlığa etiraz edənlərə qarşı həyata keçirdiyi təqib və represiyalar səbəbindən qərbin ağır təpkiləri, sanksiyaları və total təcrid siyasətiylə üzləşməsi onu Kremlin zorən müttəfiqinə, bir az da dəqiq desək, vassalına çevirib. Bir vaxtlar od püskürən ağzından indi köpük tökülən Batkanın bu gün fəxr elədiyi yeganə şey KTMT üzvləri arasında yalnız Belarusun Rusiyanın yanında olmasıdır. O həmin sözləri tez-tez dilinə gətirir və nə yazıq ki, bununla təkcə şəxsi sədaqətini gözə soxmaq yox, həm də öz hərbi müttəfiqlərini baqaja qoymaq məqsədi güdür.**

**Bu dəfə Kremlin hədəfinə və qəzəbinə Litva tuş gəlib. Onun Rusiya ilə Kalininqrad arasında yükdaşımalara qoyduğu bəzi qadağalar Moskvada top-tüfənglə qarşılandı. Hazırda ölkədəki bütün rəsmi və hökumətyönlü (artıq başqası qalmayıb) informasiya vasitələrinin, rəsmi və hökumətyönlü şəxslərin və ekspertlərin (artıq başqası qalmayıb) bu ölkəyə qarşı apardığı şantaj və hədə-qorxu kampaniyası öz əndazəsini aşıb.**

**Xatırladaq ki, Kalininqrad vilayəti Potstam konfransının qərarıyla Rusiyaya verilmiş Almaniya ərazisidir. Həmin ərazinin keçmiş SSRİ ilə yeganə quru sərhəddi Litvadan keçirdi. Litva öz müstəqilliyini əldə etdikdən sonra vilayətin Rusiya ilə birbaşa quru yol əlaqəsi kəsilir və o, yarımekslav əraziyə çevrilir. Ona görə yarımekslav ki, Baltik dənizi vasitəsilə birbaşa əlaqə mövcuddur.**

**Avropa Birliyinim üzvü olan Litvanın sözü gedən qərarı Qərbin Rusiyaya qarşı tətbiq etdiyi çoxsaylı sanksiya paketləriylə bağlıdır. Bu qərara görə Litva öz ərazisindən keçən dəmiryolu vastəsilə Kalininqrada daşınan bir çox yüklərə qadağalar tətbiq edib. Bu qadağalar yalnız sanksiyaların təsir dairəsinə düşən strateji yükləri, məsələn, metal, sement və başqa tikinti materiallarını əhatə eləyir və zəruri tələbat mallarına aid deyil.**

**Təbii ki, Litvanın bütün digər sovet resbublikaları kimi Rusiyaya qarşı hər hansı sərt addım atması, necə deyərlər, qaşınmayan yerdən qan çıxarmaq kimi bir şeydir. Ölkənin xarici işlər nazirliyinin rəsmi izahatında da bu addımın məhz AB-nin sanksiya siyasəti zəminində atıldığını və heç də Litvanın şəxsi təşəbbüsünün məhsulu olmadığı bildirilir və əlavə edilir ki, sanksiyaya düşməyən malların daşınması bu gün də davam edir.**

**Bu cür izahatlar isə Rusiyanı qane eləmir. Əslində, yuxarıda da dediyimiz kimi Kalininqradla dəniz yolu vasitəsiylə birbaşa əlaqə olduğu üçün o qədər də çıxılmaz situasiya yaranmayıb. Sadəcə, Baltik ölkələrinə qarşı növbəti aqressiv kampaniyaya şərait yaranıb və belə bir fürsəti dəyərləndirməmək eqoist əxlaqın əsiri olan bir ölkənin ad-sanına və imicinə ağır zərbə vurar.**

**Bu baxından, Rusiya XİN-in "cavab diplomatik yox, "praktik" olacaq" açıqlamasının, xüsusilə burdakı "praktik" kəlməsinin arxasında hansı müəmmalı məqamların gizləndiyi çox maraqlıdır. Putinin mətbuat katibi D. Peskov da eyni isterik ritorikayla danışıb və bunu bütün normaların tapdanması kimi qiymətləndirərək çox sərt tədbirlərin görüləcəyini istisna etməyib.**

**Düzdür, Litvaya qarşı birbaşa hərbi müdaxilə nəzəri cəhətdən mümkünsüz görünür. Təkcə ona görə yox ki, Putinin "ruslarla eyni mənşəli xalq" sevimli arqumenti (o, Kremlin Ukrayna üzərində hakimiyyətini bərqərar eləmək üçün iki il əvvəl yazdığı xüsusi "elmi-nəzəri" məqaləsində bu arqumentdən çox geniş istifadə eləmişdi) Ukraynadan fərqli olaraq Litvaya münasibətdə keçərli deyil, həm də ona görə ki, bu ölkə NATO-nun üzvüdür və "Vaşinqton müqaviləsi" nin 5-ci maddəsinə əsasən alyansda üzvlərin kollektiv müdafiə prinsipi hökm sürür.**

**Hərçənd, bütün siyasi, iqtisadi, hərbi və s. və i.a. gücünə görə Rusiyanı qat-qat qabaqlayan kollektiv Qərb bu ölkədən sözün həqiqi mənasında çox qorxur. Onun aqressiv xislətindən, antihumanist mahiyyətindən qorxur. Ukrayna müharibəsindəki davranışları da bunun bariz nümunəsidir. Anqlosaks ölkələrini çıxmaq şərtilə Avropanın, xüsusilə onun iki aparıcı ölkəsi olan Almaniya və Fransanın Ukraynaya münasibətdəki tərəddüdlərinin Litva və digər Baltik ölkələrinə münasibətdə də təkrarlanmayacağına zəmanət yoxdur. Putinin ötəri bir nüvə silahı hədə-qorxusu mövqelərin yüz səksən dərəcə dəyişməsi üçün yetərlidir. Qərbin vaxtilə Qorbaçovun Bakıda, Tbilisidə, Riqada və elə həmin o Vilnüsün özündə törətdiyi qətliamlara münasibəti çox da uzaq tarixin söhbəti deyil. O vaxt SSRİnin qəzəbləndirilməsindən və dağılmasından qorxanlar indi eyni mövqeyi Rusiyaya münasibətdə sərgiləyirlər.**

**Ancaq Rusiya XİN-in "praktik cavab" ifadəsinin altında Litvaya müdaxilə yox, təmiz başqa niyyət gizlənə bilər. Yalnız Polşa və Litvayla quru sərhəddə malik olan Kalininqrad vilayətini Belarusla ayıran yüz km. uzunluğunda bir ərazi var. Polşayla Litvanın sərhəddində yerləşən həmin ərazi hipotetik olaraq Suvalki dəhlizi adlanır.**

**Ona görə hipotetik ki, məsələn, ərazi hal-hazırda ermənilərin istifadə elədiyi Laçın dəhlizi, nə vaxtsa bizim istifadə etdiyimiz və çox güman ki, yaxın illərdə yenidən istifadə edəcəyimiz Qərbi Zəngəzur dəhlizi kimi yol infrastrukturlarına malik deyil, sadəcə, quru ərazidir. Düzdür, bəzi məlumatlara görə NATO uzun müddətdir ki, Rusiyanın bu ərazini işğal edərək daha etibarlı müttəfiqi olan Belarus vasitəsilə Kalininqrada dəhliz açacağından bərk narahatdır və həmin ərazinin müdafiəsi üçün xeyli tədbirlər də görüb.**

**Amma təəssüf ki, bu tədbirlərin atom hədəsi şüarlarıyla hücuma keçən rus ordusunun qarşısını almaq üçün yetərli olub-olmayacağını bilən bir kimsə yoxdur. Həmin ərazinin Rusiyanın nəzarətinə keçməsi isə hər üç Baltik ölkəsini həm NATO-dan, həm də AB-dən tam təcrid olunmuş vəziyyətə salacaq.**

**Düzdür, Ukrayna cəbhəsində tam fiaskoya uğramış Kremlin hazırda ikinci belə bir avantüraya əl atacağı o qədər də real görünmür. Amma islanmışın yağışdan nə qorxusu?! Odur ki, klassikin sözləriylə desək, ağılla dərk olunmayan bir ölkədən istənilən sürprizlər gözləmək mümkündür.**

## Bakıda mənzillərdən silsilə oğurluqlar edən Gürcüstan vətəndaşı saxlanılıb

**Bakıda mənzillərdən silsilə oğurluqlar edən Gürcüstan vətəndaşı saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, paytaxtın Nərimanov rayonunda yerləşən mənzillərdən birindən oğurluq edilib.

Zərərçəkən Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsində müraciət edərək hadisə barədə məlumat verib.

Bakı Şəhər Baş Polis İdarəsi, Nərimanov Rayon Polis İdarəsi və 18-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbiri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Gürcüstan vətəndaşı Paata Grineviç saxlanılaraq istintaqa təqdim edilib. Həmin şəxs ifadəsində bir müddət əvvəl yaşadığı ölkədən Bakı şəhərinə məhz oğurluq məqsədi ilə gəldiyini bildirib. Paata Grineviçin ətrafında aparılan tədbirlərlə onun paytaxtın Nizami rayonunda da bir mənzildən oğurluq etdiyi müəyyən edilib.

Qeyd edək ki, saxlanılan şəxsin oğurluq etdiyi ünvanlara getməsi təhlükəsizlik kameraları vasitəsi ilə də lentə alınıb.

Faktlarla bağlı toplanan materiallar Nərimanov Rayon Polis İdarəsinə göndərilib. Paata Grineviç əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Nərimanov Rayon Polis İdarəsinə, ərazi polis orqanlarına, DİN-in "102" Zəng Mərkəzinə və Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər.

## Qazaxıstan şirkəti Azərbaycana uçuşlara başlayacaq



**7 iyul tarixindən başlayaraq Qazaxıstanın "Qazaq Air" aviaşirkəti Nur-Sultan - Aktobe - Bakı və geriyə reyslərə başlayır. Şirkətdən Trend-ə verilən məlumata görə, reyslər həftədə iki dəfə, cümə axşamı və bazar günü yerinə yetiriləcək.**

Biletlərin qiyməti 74 658 tənqədən başlayır (160 ABŞ dolları).

## Silahlı Qüvvələr Günü münasibətilə media-turlar təşkil edilib



**26 iyun - Silahlı Qüvvələr Günü münasibəti ilə kütləvi informasiya vasitələrinin (KİV) nümayəndələrinin Azərbaycan Ordusunun qoşun növlərinə, nazirliyin idarə və xidmət, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrinə media-turları təşkil edilib.**

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, media-turlar çərçivəsində KİV nümayəndələri şəxsi heyətin xidməti və döyüş fəaliyyətinin təşkili, eləcə də sosial-məişət şəraiti və maddi-texniki təminatı ilə yaxından tanış olublar.

Media nümayəndələri azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə, eləcə də Azərbaycan Ordusunun dövlət sərhədində yerləşən döyüş mövqelərində olublar, burada xidmət edən hərbi qulluqçularla görüşüblər.

Hərbi qulluqçularımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində yaradılan şəraitdən məmnunluq ifadə ediblər, Azərbaycan Ordusuna xidmət etməkdən qürur duyduqlarını bildiriblər.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Get, sabah gəl!

**Yəqin bu ifadələr, bu sözlər sizə tanış gəlir. O qədər idarələrə, təşkilatlara və müxtəlif qurumlara yolumuz düşəndə bu sözləri eşitmişik ki?! Elə adam tapılmaz ki, istər Sovet dönəmində və istərsə də müstəqillik qazandıqdan sonra bu cür bürokratik və süründürməçi məmurlara rast gəlməsinlər. Təbii ki, heç də biz demək istəmirik ki, bütün məmurlar bu "üsulla" və bu "metodla" işləyiblər və işləyirlər...**

**Amma görünən odur ki, bu gün də əksər idarə və təşkilatlarda süründürməçilik var, insanların işi onlara düşəndə istədiklərini, el dilində demiş olsaq, "şirinliklərini" almasalar, elə həmin adamları get-gələ salacaqlar. O vaxt get-gəl bitəcək ki, həmin məmur və yaxud onun əməkdaşı ona üz tutan insandan istədiyini qoparda bilir...**

**Nə yaxşı ki, son vaxtlar ölkəmizdə "Asan" və "Dost" xidmətləri var. Bax, bu yeni sistem sözün həqiqi mənasında məmur özbaşınalığına, bürokratiyaya və süründürməçiliyə son qoyub. Ona görə də insanlar hər hansı məsələ ilə bağlı adını çəkdiyimiz bu qurumlara müraciət edəndə çox asanlıqla işlərini həll edir və heç bir süründürməçilik və bürokratiya ilə üzləşmirlər. Min şükür!**

**Həyatımızın başqa sahələrində bu süründürməçilik davam edir. Hər hansı bir idarədən, yaxud xəstəxanadan, təhsil müəssisəsindən, "mənzil istismar sahələrindən" arayış almaq istəyirsən, çox nadir halda o sənədləri bir neçə saatın ərzində hazırlayıb sənə verirlər. Ancaq əksər vaxtı səni "ötür-ötür" oyununa salır, süründürür, bir neçə dəfə aparıb gətirir və bundan sonra məlum arayışı sənə verirlər. Bu isə o deməkdir ki, bir çox məmurlar xalqa xidmət etmək yox, xalqdan bir şey qopartmaq üçün bu vəzifə kreslosunda əyləşib.**

**Səhərin gözü açılanda düşünür ki, bu gün işə gedəcək və nə qədər pul qazanacaq. Məmur var ki, bir gün pul qazanmasa, ürəyi partlayar. Hətta bəzən əvvəlki günlərə nisbətən az pul qazanır və deyir ki, bu gün işlərim yaxşı getmədi. Kişinin oğlu yəni həmin günü əvvəlki vaxtlarda olduğu kimi yaxşı pul qazanmayıb. Bu düşüncə, bu yanaşma ilə yaşayan insanların heyvandan heç bir fərqi yoxdur. Üzr istəyirəm, bəlkə də fikrimi düzgün ifadə eləmədim. Amma görünən odur ki, qarnını, öz şəxsi həyatını, yaşam tərzini hər şeydən üstün tutan insana heç adam demək olmaz. Onların vəzifəsi var, yüksək kresloda əyləşib, amma onların ürəyi yoxdur və o ürəkdə mərhəmət çatışmır. Mərhəmət olmayan ürəkdə insanlıqdan, adamlıqdan və Allaha yaxınlıqdan söhbət belə gedə bilməz.**

**Onların həyatı yalan və dələduzluq üstündə qurulub və bu yalanla, dələduzluqla çox adam aldadır, istədiyi məbləği onlardan alır və sonra da guya "işləri" yoluna qoyurlar. Yalan sakit görürən, amma daha dərin olan bir gölə, bir çaya, bir dənizə bənzəyir və bu yalana inanırsan və axırda da bu sakit və dərin görünən su kimi yalanın içində batırsan. Bax, bundan dəhşətli, bundan qorxulusu, bundan faciəlisi yoxdur.**

**Molla Nəsrəddinin bir lətifəsi yadıma düşür. Mollanın bir adama uzun illərdir borcu olur. O da hər gün onun qapısını döyür, borcunu istəyir. Molla da hər dəfə onu bir şirin dillə "yola verir" və deyir ki, get, sabah gəl. Və beləcə sabahlar açılır, borcu olan molladan borcunu ala bilmir. Bir gün də həmin kişi mollanın yenidən evinə gəlir və soruşur ki, molla evdədir, ya yox?! Oğlu da deyir ki, evdə yoxdur. Nə lazımdır? Borclu adam yenidən dillənir:**

**- Borcumu almağa gəlmişəm!**

**Mollanın oğlu fikirləşir və deyir:**

**- Get, qara daş göyərəndə gələrsən!**

**Kişi də çıxıb gedir.**

**Molla evə qayıdır və oğlundan soruşur ki, o borclu adam gəlməmişdi ki? Oğlu da deyir gəlmişdi. Nə dedin ona. Dedim ki, get, qara daş göyərəndə gələrsən və borcunu alarsan. Mollanın bu cavabdan xoşu gəlmir və qanı itin qanına dönür. Oğlunu danlayır, deyir ki, ay bivec oğul, birdən qara daş göyərdi. O pulu necə verəcəm. Amma ən yaxşı cavab isə get, sabah gəldir. Çünki sabahlar qurtaran deyil...**

**Sözümüzün canı odur ki, bax, bizim bəzi məmurlar da mollanın sözü olmasın, yanına gələn şikayətçilərə deyir ki, get, sabah gəl! Çünki mollanın nə vaxta qədər həyat var, o vaxta qədər də sabahlar var. Yəni yalançı məmurlar bax belə insanları arxayın salmaqla "sabah-sabah" deyir və axırda da istədiyini almasa onların işini yoluna qoymur.**

**Sabahınız xeyir olsun, a bu millətin qanını soran, dərisini soyan və əlində, ovcunda nəyi varsa, qapazlayıb alıb üstündən də su içən insafsız, mərhəmətsiz məmurlar! Bu camaatı, bu insanları meşin qapıları arxasında çox gözlətməyin və incidib bezdirməyin və unutmayın ki, günlərin birində ya dövlət, ya da Allah tərəfindən bu əməllərinizə görə cəzanızı alacaqsınız. Hələ ki, kef edin! Hər işin gec-tezi var. İndi kef edirsiniz, bir azdan xalqın hesabına, var-dövlət qazandığınız nə varsa, hamısı bir-bir burnunuzdan töküləcək...**

## Kombaynlar hardadır?



**Arpa və taxıl biçini başlayanda birinci yada düşən kombaynlar olur. Ölkəmizdə də kifayət qədər kombaynlar var. Amma biçin vaxtı görürsən ki, kombayn çatışmazlığı yaranır. İmkanlı və varlı adamların min hektarlarla taxıl sahəsi tez bir zamanda biçilir, ancaq kasıb və bir o qədər də maddi durumu yaxşı olmayan insanların əkdiyi bir-iki hektar sahə biçilmir. Və həmin adam da durub gözləyir ki, ona növbə nə vaxt gələcək.**

Çünki taxıl biçini elə bir şeydir ki, bir-iki gün ləngiyəndə nə qədər itki yaranır. Belə ki, havanın kəskin dəyişməsi, leysan yağışın və dolunun düşməsi taxılın yarısının məhv olması deməkdir. Ona görə də heç olmasa bu mövsüm bir-iki hektar taxıl sahəsi olan minlərlə insanın da taxıl sahələrini vaxtında biçmək lazımdır. Ki, onlar da sevinsinlər.

## Sürücülər ara məsafəsi saxlamırlar

**Havalar get-gedə daha da istiləşir. Belə bir isti havada müxtəlif markalı avtomobilləri idarə etmək bir qədər də çətinləşir. Biz bir neçə gün bundan əvvəl rayona gedirdik, Bakı-Astara avtomobil yolunun Salyan istiqamətində bir sürücü avtomobili idarə edərkən gah sağa, gah da sola dönürdü. Xoşbəxtlikdən yol ikitərəfli olduğu üçün qarşıda təhlükə yox idi. Amma bizim əyləşdiyimiz avtomobilin sürücüsü 50 metr ara məsafəsi saxlamışdı, üstəlik də siqnal səsi ilə sağa, sola hərəkət edən avtomobilin sürücüsünü oyatdı.**

Görünür, sürücü sükan arxasında yatıbmış və nə yaxşı ki, maşını beton arakəsməyə, yaxud da yanından keçən digər nəqliyyat vasitəsinə vurmayıb. Ona görə də respublikanın avtomobil yollarında hər bir sürücü ara məsafəsi saxlamalı, sükan arxasında yatmamalı, özünün və yanındakılarının taleyini düşünməlidir. Yol polisi xəbərdarlıq edir, çox təəssüf ki, sürücülər isə buna məhəl qoymurlar.

**Emil FAİQOĞLU**



Soner Yalçın

# Türkcəyə qarşı allergiyanın səbəbi nədir?

**Namaz, ərəbcə deyil, farsca...**

**Oruc ərəbcə deyil, farsca...**

**Dəsatəmaz ərəbcə deyil, farsca...**

**Peyğəmbər ərəbcə deyil, farsca...**

**Müsəlman ərəbcə deyil, farsca...**

**Xuda ərəbcə deyil, farsca...**

**Rəbbəna farsca, Səhabə farsca...**

Mövla farsca... Xoca farsca, molla farsca, Dərviş farsca, pir farsca, dərgah farsca, çilə farsca, türbə-türbədar farsca, ney farsca, niyaz farsca, günah-günahkar farsca, kafir farsca, bəd dua farsca,kəramət farsca, təsbeh farsca, lülə farsca, çarşaf farsca, təkkə farsca, münzəvi farsca, dəstur farsca, mövlud farsca, sancaq farsca, cahan farsca...

Bu gün İslamı yaşayarkən, anladarkən istifadə cetdiyimiz sözlərin çoxusuərəbcə deyil, farscadır.

Yaxşı...

Türkcə adını eşidən kimi niyə bəziləri sərt reaksiya verir?

İslam ilə türk dilinin yan-yana gəlməyini niyə istəmirlər?

Türkcəyə qarşı allergiyanın səbəbi nədir? Bu düşmanlıqdırmı? İbranicə "Rab" deyərsən, səsləri çıxmaz, türkcə Tanrı deyərsən, aləmi dağıdarlar.

Tayyibiyyə azanı

Deyir ki, zati-möhtərəm:

"Azan dünyanın hər yerində eynidir!".

Görəsən, bilmirlər ki, İslam dünyasının yarısı başqa, yarısı da başqa azan verir?

Çox da uzağa getməyək...

Səudiyyə Ərəbistanının tez-tez bombaladığı, qətliyamlar törətdiyi Yəməndə, İrandan dəstək alan şiə husilər Ənsarullah iqtidara gələn kimi ilk olaraq nə etdi:

Dövlət televiziyasında "yeni azan" oxutdu. Çünki onlara görə azan Səudiyyə ərəbləri tərəfindən təhrifə uğrayıb.

Şiələr azana bu cümləni əlavə ediblər: "Əşhədu ənnə Əliyyən Vəliyullah". Yəni "Mən iman gətirirəm ki, Əli Allahın vəlisidir".

Şiələr iddiasına görə, ilk azanda bu söz var idi, amma Məhəmməd peyğəmbərin ölümündən sonra Ömər bunu azandan çıxartdı.

İsmayılliyyə, Mustaliyyə, Tayyibiyyə kimi məzhəblər azana bir əlavə də elədilər:

Məhəmmədin və Əliyin qəyril-bəşər və itratu-huma qəyril itar.

Yəni "Məhəmməd və Əli ən uca insandır və onların soyları ucadır. Kimi bu sözləri oxuyarkən bir dəfə söyləyər, kimisi iki dəfə. Nə isə...

"Dünyanın dörd bir yanında azan eynidir" deməyin!

Həqiqətən də siz Türkiyədəki şiə məscidlərində azanın necə oxunmağını bilirsinizmi?

Baxın:

Din insanları birləşdirib ədalətli bir cəmiyyət yaratmaq məqsədi güdür.

Dini rituallar bu müqəddəs qayənin sadəcə açarlarıdır. İslamiyyət semvollara məhkum edilməməlidir. Edilsə belə bu sadəcə "Qardirob müsəlmanığı" olar.

Osmanlıda türkcə ibadət

Abdullah İbni Zeyd (591-652)...

"S?hibü'l-Azan" ləqəbiylə tanınan Mədinəli səhabə.

Hicrətin birinci ilində "Məscidi Nəbəyi" tamamlananda müsəlmanların necə çağırılacağı mövzusunu Hz. Məhəmməd səhabəsinə açır.

Kimisi.... "Namaz vaxtı məscidin başına bayraq asaq" dedi.

Kimisi "Zəng çalaq" dedi.

Kimisi "Boruyla çağırış edək" dedi.

Kimisi isə "Məşəl yandıraq" dedi. Hz. Məhəmməd bu təkliflərlə razılaşmadı.

Bir gün...

Abdullah İbni Zeyd, səhər erkəndən Hz. Məhəmmədin hüzuruna gələrək yusunu danışdı. Yuxusunda iki qat yaşıl paltar geyinmiş bir adamın qibləyə dönüb yüksək səslə "Allahu Əkbər" deyə başlayaraq azan oxumuşdu.

Hz. Məhəmməd namaz zamanı müsəlmanların məscidə Azanla çağırılmasını qərar verid.

Bəli, azan sünnət...

Amma hər dövrdə də bir mübahisə mövzusu oldu. Məsələn, ilk minarələr Müaviyyənin əmriylə 673-də Qahhirədəki Əmr ibn əl-as məscidinin dörd küncünə tikdirildi.

Amma minarədən azan oxunmasına qarşı çıxanlar oldu.

Səs gücləndiricidən də azan oxunması sərt reaksiya gördü. Bizdə də Din işləri naziri Hamdi Akseki qarşı çıxdı, vəfatından sonra 1951-də ilk dəfə buna Eyyub məscidində cəhd olundu.

Zamanla...

Minarələr "səs gücləndirici dirəyi" halına gəlib çıxdı.

Yüksək azan səsi bugün hətta bəzi müsəlmanları çilədən çıxarır.

Gələk türkcə mövzusuna.

Osmanlıda türkcə ibadət mübahisələri 19-cu yüzillikdə başladı. Banisi Ali Suavi oldu. II Əbdulhəmid dövründə Bəyazit məscidi və Ayasofya məscidi kürsülərində xalqa türkcə xütbələr oxudu. "Ulüüm" qəzetində "Lisan və xəəti-türki" namaz surələrinin türkcələşdirilməsini, türkcə namaz qılınması müdafiə edildi. Referans qaynağı İmam Əzəm Əbu Hənifənin "Hər millətin Quranı öz dilinə tərcümə edərək ibadət edə biləcəyi" fətvası idi.

**Bu tarixi həqiqətlərin bugün deyilməsinin qarşısı alınır.**

**Çünki kimlərsə...**

**Allaha din öyrətmək istəyirlər.**

**Dilimizə uyğunlaşdıran: Eminquey**

Rza Rzayev,
Rejissor , aktyor

# QADIN NƏ İSTƏYİR?



**Kişinin öyrənmək istədikləri qadının bildikləridir.**

**Savad, bilik qadınlara çox vaxt xoşbəxtlik gətirmir, savadlı qadınlar savadsız qadınlara nisbətən daha çox bədbəxt olurlar, çünki qadınlarda irrasionallıq daha güclüdür, nəyin daha çox səhv və doğru olduğunu irrasional olaraq daha çox dərk edirlər.**

**Rasionallıq qadınlarda daha çox mənasız eqoizm, özgüvən, intriqa, qisasçılıq, fərqlənmə və eşitlik (bərabərlik) hissi yaradır.**

**Qadın eşit olmaq istəyir, amma qadın bənzərsizdir, bunu dərk etmir, etsə, ona xəyanət edən kişiyə xəyanətlə eşit olmaz.**

**Qadın məqsədlərinə çatmaq üçün özü vasitə olmamalıdır, nəticə əldə edənlər başqalarından vasitə kimi istifadə edirlər, qadınsa özü vasitə olur və çatılan məqsəd nəticəni dəyişmir.**

**Qadın güzgüdə özünü görmür.**

**Bütün rənglər qadının əlindədir, tək fırçadan başqa.**

**Fırça kimin əlindədirsə, qadın onun tərəfindədir.**

**Qadın tutduğu tərəf yıxılar, olduğu tərəf ucalar.**

**Qadın yer davası edər, yerində olmaz.**

**Qadın üçün uca yer var, ucalıq yoxdur.**

**Qadın durduğu yeri görmür, uzağa baxır, uzaqdan gəlir, sonda əldə etdiyi bir zamanlar əlindən verdikləri olur.**

**Qadın dəyişiklik istəyir, amma dəyişmək iqtidarında deyil.**

**Qadın kişidən fərqli olaraq statusunu dəyişdikcə, mahiyyət və məzmununu da dəyişir - həyat yoldaşı kimi, ana kimi, bacı kimi.**

**Qadına elə gəlir ki, o, hər şeyi bilir, amma qadın tək nə istədiyini bilmir, çünki qadın olmayanı istəyir, var-dövlət olanda sevgi istəyir, sevgi olanda var-dövlət!**

## Özünü kommunal xidmət idarəsinin əməkdaşı kimi təqdim edən dələduz saxlanıldı

**Abşeron rayonu Xırdalan şəhərində özünü "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin və digər kommunal xidmət idarələrinin əməkdaşı kimi təqdim edərək vətəndaşları dələduzluq yolu ilə aldadan şəxs saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, daxil olan şikayətlər əsasında Abşeron Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbir zamanı qeyd edilən qanunsuz hərəkətlərə yol verən Rəfail Əsgərov tutulub.

Araşdırma zamanı onun Xırdalan şəhərində bir neçə şəxsi bu yolla aldadaraq onlardan müxtəlif məbləğlərdə pul aldığı məlum olub. Faktlarla bağlı Rəfail Əsgərov barəsində toplanan materiallar Abşeron Rayon Məhkəməsinə göndərilib. O, məhkəmənin qərarı ilə iki ay müddətinə inizbati qaydada həbs edilib.

Qeyd edək ki, Rəfail Əsgərov bundan əvvəl də Gəncə şəhəri və paytaxtın Nizami rayonunda eyni əməllər etdiyi üçün polis əməkdaşları tərəfindən saxlanılaraq inzibati qaydada həbs edilmişdi. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Abşeron Rayon Polis İdarəsinə, ərazi polis orqanlarına, DİN-in "102" Zəng Mərkəzinə və Nazirliyin sosial şəbəkələrdəki rəsmi səhifələrinə məlumat verə bilərlər.

# HOLLİVUDDA DAVA-QIRĞIN



**Dünyanın ən məşhur kino ulduzları Mel Gibson, Robert De Niro, Al Paçino, Riçard Gir bir-birlərinə giriblər.**

Mel Gibson De Niroya deyib ki, sənin əlindən mən tutub gətirmişəm kinoya, De Niro da deyib ki, axmağın biri axmaq, başından böyük qələt eləmə. Riçard Gir də Mel Gibsona əsəbləşib ki, sən nə vaxtdan aktyor olmusan. Mel Gibson da Riçard Girə deyib ki, mənə salam verməyi sən özünə şərəf bilirdin.

Söyüşün biri bir qəpik, bizim pulla pulsuz. Deyirlər buna səbəb uzun zamandan başlayıb. Mel Gibson Amerika İraqa girəndə etiraz eləmişdi və hökumətin gözündən düşmüşdü. Hollivuda göstəriş verilmişdi ki, nə ona rejissor kimi film verin, nə də filmə çəkin. Başqa bir səbəb də onu deyirdilər ki, Mel Gibson yəhudilərin əleyhinə danışıb, ya nəsə çəkib. Hollivud da yəhudilərin əlində olduğundan Al Paçino "kruquna" göstəriş verib ki, Mel Gibsonu harda görsəniz vurun. Robert De Niro ilə Riçard Gir də təbii ki, Xaç atasının yanında yer alıb. Bir sözlə, Mel Gibson təklənib. Amma o da yava oğuldu, heç kəsin qarşısından qaçan deyil.

İndi "Nyu-York tayms" qəzetinin yazdığına görə, ulduzların davası haqqında yeni bir film çəkilir və əsl həqiqətlər üzə çıxacaq. Filmin rejissorluğu Oliver Stouna tapşırılıb.

Maraqlısı bu deyil, maraqlısı odur ki, filmdə çəkilmək üçün Azərbaycanın kino ulduzları dəvət olunub. Mel Gibson roluna Şeyx Əbdül, Robert De Niro roluna Rasim Balayev, Al Paçino roluna Baba Vəziroğlu, Riçard Gir roluna isə İlham Namiq Kamal çəkiləcək.

Və belə razılığa gəlinib ki, film Hollivud və Cəfər Cabbarlı adına "Azərbaycan" kinostudiyasının birgə istehsalı olsun.

Şeyx Əbdülü, Rasim Balayevi, Baba Vəziroğlunu, İlham Namiq Kamalı ürəkdən təbrik edirəm, onlara uğurlar arzulayıram.

**Adımızı batırmayın, qardaşlarım! İmkanınız olsa Hollivudu da parçalayın, iki Kinematoqrafiya İttifaqı yaradın (Hollivud-1, Hollivud-2), bəlkə canımız Hollivuddan qurtula.**

**Aqil ABBAS**

# Mənim gördüklərim də, Vəfa Şəhlayinin gördükləri də qazilərə hörmətsizlikdir – Təfərrüat

**Ötən ilin sonunda daha dəqiq 27dekabrda, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə bir qrup jurnalist Şuşaya səfər etdi. Qrupda mən də vardım. Dahi şairimiz Mirzə Ələkbər Sabirin təbiricə desək: müxbirəm çünki vəzifəm budur yazı yazım, Gördüyüm nikü bədi eyləyim izhar, yazım". Sevindiyim, qürur duyduğum, həyəcan verici anlarla bərabər necə deyərlər xəyal qırıqlığına uğradığım məqamları da qələmə aldım.**

Yeri gəlmişkən əgər bir yazarın qələmindən yalnız mədhiyyə çıxırsa, ya o yazar düzgün əqidəyə malik deyil, ya da ümumilikdə heç yazar deyil. Yazarsansa, jurnalistsənsə, yaxşını dediyin kimi "yamanı" da deməyə cəsarətin olmalıdır.Çalışdım da, yazdım da. Yazdıqlarımın içində həmin o hissəni sizə xatırladıram.

## Mənim gördüklərim

***" Artıq saat 14 00.. Şuşalıların ""avtovağzal bildikləri iki mərtəbəli iki pilləkanlı binaya gəlirik. Bildiyim qədəri ilə Avtovağzal Köçərli məhəlləsində, Pənah Əli xan küçəsi yerləşib. Amma bura artıq avtovağzal deyi. "Koç Ət" restoranıdır. (Yəqin ki, avtovağzal üçün başqa yer düşünülüb) . Pillkanlarla 2-ci mərtəbəyə qalxırıq. Gəlişimizi bildikləri üçün hazırlıq görülüb. Qapıda belə bir elana da rast gəldim. "Hərbiçilərimizə 20 faiz endirim". Sevindim. Haqq üçünə deyək ki, süfrəmiz bol idi:Paytaxt salatı, çoban salatı, mərci şorbası, lülə-tikə- toyuq kababı və langet. Limonad və çay...***

Kababların dadı ya doğrudan gözəl idi ya biz acmışdıq. Amma tanınmış tərcüməçi Sevil Gültən iddia etdi ki, hələ ömründə belə yumşaq və dadlı ətdən kabab yeməyib Evdə onun yolunu gözləyən qızı üçün də kabab sifariş etdi.

***-Oğlum bir şiş lülə kabab hazırla evə aparacam***

***- Xörəkpaylayan: "Başüstə" dedi,***

***-Oğul bir şişdə neçə lülə olur, şişin biri neçəyədir?***

***-1 şişdə bir lülə olur, qiymətidə 7 manat. (həmin vaxt 1 kq ətin qiyməti 7-8 manat arasında dəyişirdi)***

Sevil xanım razılaşıb alır.

Hesablamağa başlayıram: Əgər bir şiş kabab 7 manatdırsa, onun 20 faizi təxminən 1 manat 40 qəpik edir. Hərbçilərə böyük güzəşt ediblər deyə düşünürəm. Naharımızı edib həyətə düşürük".

Xatırladım ki bu dekabr ayında Şuşa səfərindən olan reportajımdan olan təəssüratlardı.




*Şuşadakı yeganə "KOÇ-ƏT" restoranı...*

Biz Şuşada olarkən , oradakılardan eşitdik ki, orada KOÇ-ƏT dən başqa restoran, kafe, yaxud yüngülcə bir yeməkxana fəaliyyət göstərmir. Acından ölsəndə mütləq KOÇ-Ətin yeməyinə möhtac olmalısan.

***Təsəvvür edin: Şuşada həmin vaxt yalnız "KOÇ-ƏT" restoranı fəaliyyət göstərir və orada tikinti və bərpa işləri ilə bağlı xeyli adam varŞəhərin mühafizəsini həyata keçirən Azərbaycan ordusunun heyətini və polisləri də nəzərə alsaq xeyli soydaşımızın yeməyə olan tələbatı məhz bu restoranda belə yüksək qiymətlərlə həyata keçirilir..(Üstəlik iaşə, ticarət obyektlərində çörək sexində işləyənləri hələ demirəm)***

Yenə də təsəvvür edin, bir insan şəhadət barmaqdan azca böyük olan lüləkababın neçəsini yeməlidir ki, doysun? Adi mərci supunun (bir kasa) bir porsu 3-4 manat arasında dəyişir. Azərbaycan ordusunun heyətinə 20 faiz endirim" yazılmış xəbərdarlıq kağızı isə çox gülün görünür. 7 manatlıq bir şiş lüləkababın 20 faizi 1 manat 40 qəpik edir. O kağızı o qapıya yapışdırıb, nə Şuşanı canları bahasına bizə ərməğan edən şəhidlərin ruhuna saygısızlıq, nə də qazilərə hörmətsizlik etməyin! Yığışdırın o gülünc faizinizi!

## Vəfa Şəhlayinin gördükləri

Həmkarım Vəfa Şəhlayinin Şuşada yerləşən "Qoç Ət" restoranında Vətən müharibəsi qazilərinə hörmətsizlik etməsi xəbəri əslində məni təəccübləndirmədi.

***Jurnalistin sosial şəbəkədə paylaşdığı həmin məlumatı təqdim edirik: "Şuşadakı "Qoç Ət", səviyyəsizliyin bu qədəri olmaz... Vətən Müharibəsi qaziləri ilə Şuşaya gəlmişik. Günorta yemək yedik deyə, bizi qəbul elədilər. Axşam girdik çay içməyə, əvvəlcə dedilər, yaxşı, gətirərik. Sonra ofisiant getdi, adminstratorla məsləhətləşib gəldi ki, indi sizə çay verə bilmərik, çünki Bakıdan qonaqlar gəliblər, millət vəkilləri var. Buna görə bizim sadə çay sifarişimiz qəbul olunmadı. Gedib dedim ki, millət vəkili bunların sayəsində Şuşadadır, siz utanmırsınız onların formalarından?! Deyir, yuxarıda adamlar var, samovarda su qurtarıb...***

Bir ara da guya qazilərə endirim piarı edirdilər. O da boş şey imiş, yalnız Şuşadakı hərbçilərə və xüsusi endirim kartı olanlara aiddir".

Qeyd edim ki, bu yaxınlarda Bakıda yerləşən KOÇ-ƏT restoranlar şəbəkəsinin bir filialında nahar etdim .

Bütün kafe və restoranlarda 2.50 - 3 manata olan sadə lahmacun burada 4 manatdan təklif edilirdi. Deməli, KOÇ-ƏT üçün maraqlı olan odur ki, kim yaxşı pul xərcləyirsə, ona xidmət göstərmək lazımdı. Vəfa xanım da yəqin həmin günü anladı ki, orda nahar edən deputatlarda olan pul qazilərdə yoxdu deyə, qazilərə xidmət də yoxdu.

***Xüsusi Qeyd:*** Cebhe.info-nun əməkdaşı məsələ ilə bağlı "Qoç Ət" restoranı ilə əlaqə saxlayıb.Restorandan sosial şəbəkədə yayılan məlumatın həqiqətə uyğun olmadığı bildirilib:"Dünən sosial şəbəkələrdə haqqımızda yayılan məlumat heç bir halda həqiqəti əks etdirmir. Bu, çirkin şər, böhtan və qarayaxmadan başqa bir şey deyil.

Şuşa şəhərindəki restoranımızda sifarişin gecikməsini guya imtina edilməsi kimi qələmə verənlərə ayıb olsun! Xalqın gözü tərəzidir.

Azərbaycanın yerli brendi olaraq daim müzəffər Ali Baş Komandan, cənab Prezidentin, şəhid ailələrimizin, qazilərimizin, hərbçilərimizin və xalqımızın yanındayıq və bundan qürur duyuruq!"

**Sonda müxbir xatırladıb ki, ötən il də sosial şəbəkədə "Qoç ət"in Şuşa filialında nahar edən hərbçilərimizə 700 manat məbləğində hesab gəlməsi ilə bağlı xəbər yayılmışdı. İddia edilirdi ki, bu səbəbdən restoranın idarəçiləri ilə hərbçilər arasında mübahisə düşüb. Restoranlar şəbəkəsindən isə sözügedən məlumatı təkzib edərək böhtan və təxribat adlandırmışdılar.**

**Əntiqə Rəşid**

# Lozan'ın gizlenen gerçek yüzü




**Hiç düşündünüz mü, madem Kurtuluş Savaşı'nda sadece Yunanla savaştık, o halde Mudanya Ateşkesi'ni neden İngilizle, Fransızla ve İtalyanla yaptık? Tam olarak kurtulduğumuz neydi? 1922'de ordularımız İzmir'i alınca vakit kaybetmeden İstanbul'a yöneldik. Malum İstanbul İngilizlerin elinde. Bütün ordu İzmit'e yığıldı ve harekat için gün sayıldı derken ateşkes önerdiler. Lozan görüşmeleri başladı. Ordumuz İzmit'te beklerken, Lozan süreci 8 ay sürdü. İyi ama niye? Hangi konuda anlaşamıyorduk? Musul mu? Hayır. Musul 1 ay konuşup geçildi. Lozan'ın 8 ay sürmesinin 3 sebebi vardı...**

**1-** Yüzyıllarca padişahlar "kapitülasyon" adı altında yabancılara öyle imtiyazlar verdi ki gün geldi tepemize çıktılar. Bankalar, işletmeler, limanlar vs onlarındı. Ordumuz Voynuklar, Martolozlar, Cerahorlar ismiyle Hristiyan askerlerle doluydu. Gün geldi Almanlar yönetti. Paralarımızın üzerine Fransızca, Ermenice, Yunanca ibareler kondu. Devlet dairelerinde onların bayrakları dalgalanıyordu. Faturalardan istasyon isimlerine her şey onların dilindeydi. Aynı bugün Suriyelilere tanınan vergi, askerlik gibi ayrıcalıklar o kadar artmıştı ki bir yabancı suç işlediğinde Osmanlı zabiti onu tutuklayamıyor, kendi konsolosu gelip ilgileniyordu. İşte bu rezil düzenin yani kapitülasyonların Lozan'da kaldırılması için ısrar ettik. 8 ay buna direttiler ve sonunda kabul ettiler.

**2-** Bilindiği üzere Osmanlı ekonomisi çökünce Duyun-u Umumiye kurulmuş ve yabancılar Osmanlı maliyesine el koymuştu. Yabancıların bu egemenliği bitecek dedik. Yani Türkiye'nin ekonomisi bağımsızdır dedik! 8 ay direttiler ve sonunda kabul ettiler.

**3-** Gayrimüslim ile Müslümanın anlaşmazlığı bile çözülemiyordu çünkü Osmanlı mahkemelerini tanımıyorlardı. Lozan görüşmelerinde "idari, adli, hukuki bağımsızlığımızı tanıyacaksınız." dedik. Yani Türkiye egemen olacaksa o halde bir yabancı suç işlediğinde Türk mahkemesinde yargılanacak! dedik. 8 ay Türk yargısını tanımak istemediler ama sonunda kabul ettirdik!

Yani Lozan'da Türkler, yüzyıllarca yabancılar tarafından tanınmayan Türk hukukunu ve egemenliğini yabancılara tanıttılar. Lozan imzalandığı gün, imtiyazlı olan bütün yabancılar, evlerinden, dükk?nlarından, idari kurumlardan yabancı bayraklarını kaldırdılar. Yabancı gazeteler, "Türk Zaferi" diye başlıklar attılar. Hükümeti düşen İngiltere eski Başbakanı Lloyd George, Lozan Anlaşması'nın İngiltere için bir hezimet olduğunu açıkladı.

**İşte Lozan budur. Unutmayın, Kurtuluş Savaşı'mız sonunda İngiliz hükümeti düştü, Yunanistan'da ihtilal oldu, Yunan bakanlar Altılar Davası'nda kurşuna dizildi, kral sürgün edildi, Mısır'daki milliyetçileri ayaklandı, Hindistan'daki direniş sertleşti, İngiltere ve Fransa ilişkileri kopma noktasına geldi ve Türkiye'nin yeni sınırlarını tüm dünya onayladı.**

**Hakan Sayıner**



Emin Piri

## Təhsildə milyonlarla manatlıq abunə soyğunçuluğu

*Hə, Azərbaycan təhsilində bir abunə soyğunçuluğu var ki, qəpik-qəpik görünsə də ildə milyonlarla manata çatır.*

*Ümumiyyətlə, müəllim hansı qəzet və jurnala abunə olduğunu belə bilmədiyi halda hər ay maaşının bir hissəsini bu abuna soyğunçuluğuna qurban verir.*

*Hər gün yaratdıqları, kimsəyə lazım belə olmayan jurnalların haqqı müəllimlərin cibində çatlayır.*

*Lap olsun, əla jurnal, qəzetdi, axı niyə onsuz da bərbad olan maaşlarını bu mediaya məcbur verməlidirlər?*

*Məcbur?-Əsla, könüllüdür-deyəcəklər. Amma bu könüllülük peyvənd kimidir. Könüllüsən abunəyə, amma verməyə məcbursan. Verməsən, hansısa yazıq kənd direktorunun boğazından yapışacaqlar ki, müəllimin vermir, sən özün ver. Sən də baxırsan ki, direktoru sənlə şantaj edəcəklər, onun da balasını düşünüb verirsən.*

*Yaxşı, bildim, abunə olaq. Amma mənə lazım olmayan yazılara, mənə, Azərbaycan təhsilinə xeyri olmayan bir mətbuata niyə verim?*

*Deyim ki, köşələrimin çap olduğu "Ədalət"di, şeirimin çap olduğu "Ədəbiyyat qəzeti"dir, ya "525"dir? Qəzet adlarını misalçün sadaladım.*

*Axı, hansısa qəzetdə qaziləri düzüb əllərinə verilən 3-4kqlıq düyü çantalarını dərc edən mətbuata niyə məcbur abunə ödəyim?*

*Hesablamışam, müharibə veteranı pulumun bir neçə aylığı qədər bu qəzetlərə pulum çıxıb.*

*İndi balaca yerləri çıxdıq, daha böyük olan şəhərlərdə, regionlarda -Abşeron, Bakı, Sumqayıt, Gəncə və.s kimi yerlərdə müəllimlərdən ildə milyonlarla manat pul yığılır bu abunələrə.*

*Təsəvvür edirsiniz, milyonlarla manat.*

*Sonra vallah, müəllim nəinki əyləncə mərkəzində, lap elə klubda rəqs edib sinəsinə pul salınmasını gözləyəcək.*

*İnsaf ya, heç olmasa regional müdirlər qəzet pullarını özləri versinlər. Kasıblamazlar.*

*Hə, sentyabrdan mövsümü başlayacaq. Bu dəfə necə olacaq?*

*Necə olacağını məndən daha yaxşı bilirsiniz.*

*Təhsil Nazirliyi bu məsələyə aydınlıq gətirsə yaxşı olar.*

*Yəqin deyəcəklər könüllüdür, peyvənd kimi...*

## Rusiyanın cini

*Bir abid eşidir ki, 40 il kim günah etmədən ibadət edərsə, Allah ona şeytanı şüşədə həbs edib verər.*

*Abid lazımi avadanlıqları toparlayıb dağlara çəkilir...*

*40 il ibadətdən sonra ona şüşədə şeytan həbs edilib verilir. Abid evinə dönür. Bir müddət sonra səfərə çıxarkən şüşəni həyat yoldaşına verib bərk-bərk saxlamasını və ağzını açmamasını dönə-dönə tapşırır. Amma qadın marağı tapşırığa baxmaz.*

*Ər gedəndən sonra arvad şüşəni qulağına yaxınlaşdırır və ah-nalə eşidir. Şüşəyə baxır, amma heç nə görmədiyi üçün marağından qapağı açır. Elə bu zaman şeytan şüşədən çıxıb:*

*-Ha ha haaa...Ərinin 40 illik ibadətini puç edib məni azad elədin-deyir*

*Qadın:*

*-Sən nə yalançı imişsən. Məyər sən boyda məxluq bu şüşəyə yerləşər?*

*Şeytan:*

*-Məgər görmədin ki, mən o şüşədən çıxdım.*

*Qadın:*

*-Sən ordan çıxa bilməzdin, yalançı cadugər.*

*Şeytan and-aman etsə də qadın ona inanmır və sonunda şeytan əsəbləşib qadına sübut üçün şüşəyə girir. Elə bu zaman qadın cəld şüşənin ağzını bağlayır və şüşəyə ağzın dirəyib deyir:*

*-Ərimin 40 ilə etdiyini mən 5 dəqiqəyə elədim.*

*Şeytan ah-nalə edib ağlayaraq üzünü Allaha tutub deyir:*

*-İlahi, qadını yaratmışdınsa mənə nə ehtiyac var idi?*

*Bu əhvalat niyə yadıma düşdü? Bütün dünya yığılsaydı Rusiyanın özünə etdiyini edə bilməzdi. 4cü onilliyə yəni 40-cı ilə doğru gedir ki,(sovetdən sonrakı müstəqil Rusiya) Qərb baş sındırır, müxtəlif layihələr yürüdür ki, Rusiyanı çökdürsün. Amma bir yolla bacarmırdı. Amma Rusiya özü bacardı.*

*Qərar verdi, Ukraynaya girdi. İndi nəticə nə olacaq, dəqiq deyə bilmərəm. Bildiyim odur ki, Qərbin Rusiyanı çökdürmək planından, onun 30-40 illikbacarıqsızlığından Rusiya axırda şüşənin ağzını açdı.*

*Hə, sonra cini aldadıb şüşəyə qaytara biləcəkmi? Bu ayrı məsələdir.*

*Emin Piri*

## 14 yaşında Nobel mükafatçısı olan qız kimdir?



**Özünü və haqqını müdafiə etmək hər bir insanən təbii hüququdur. Kimlərsə ədalətsizliyə boyun əyməklə qurtulacağını sanırsa səhv edir. Bu dəfə uşaqlığı təhlükələr içində keçməsinə baxmayaraq cəsarətinə görə dünyada məhşurlaşan Pakistanlı qızdan danışacağam. Beləliklə 2008-ci ildə, Taliban Pakistanın ucqar hissələrindən biri olan Svat vadisini ələ keçirir. Ələ keçirdikdən dərhal sonra radikal İslam birliklərini həmin bölgəyə göndərir. Televizor, film, qadağan edilir, qadınların yanında kişi olmadan küçəyə çıxmasına və qız uşaqlarının məktəbə getməsinə qadağa qoyulur.**

Lakin 2009-cu ildə 11 yaşındakı pakistanlı bir qız uşağı, Malala Yuosafzai məktəb qadağası aleyhinə danışmağa, adsız bloqlar yazmağa başladı. Həm özünün, həm də atasının həyatını riskə ataraq, məktəbə getməyə davam edirdi. Yaxın kəndlərdəki konfranslara qatılır, internetdə "Taliban mənim məktəb həyatımı necə əlimdən ala bilər" deyə araşdırma edirdi. 2012-ci ildə, 14 yaşında ikən məktəbdən evə qayıdanda üzündən vuruldu.Maskalı Taliban əsgəri əlində silahla avtobusa minib, "Malalanın kim olduğunu deməsəniz, hamınızı öldürəcəm!" dedi. Malala özünü təqdim etdi və adam qızı digər sərnişinlərin gözü önündə vurdu. Malala komaya girdi, az qala öləcəkdi… Əgər Malala, həyatda qalsa, Taliban həm qızı, həm də atanı öldürəcəyini açıqladı. Amma Malala hələ də həyatdadır. Müsəlman ölkələrindəki şiddət və təzyiqdən danışır. Kitabları ən çox satılanlar siyahısındadır və 2014-cü ildə çabaları sayəsində Nobel Sülh Mükafatına layiq görülüb. Üzündən vurulması, ona əvvəlkindən daha çox cəsarət verdi və təbii ki, izləyənlərinin sayını artırdı. Qeyd edək ki, 2015-ci ildə Mələlə suriyalı qaçqın qızlar üçün Livanda məktəb açdırıb. Bir bacısı və iki balaca qardaşı olan Mələlə yaratdığı fond (malalafund.org) vasitəsilə ehtiyacı olan qızlara təhsil almaları üçün yardım göstərir. Malala, "mənim əlimdən gələn bir şey yoxdur", "başqa seçimim yoxdur" deyərək, edilən təzyiqlərə boyun əyib, təhsildən boyun qaçıra bilərdi, amma tam əksini seçdi…

**Nəticə olaraq bir qız uşağının həyat mücadiləsi də bir daha sübut edir ki, haqlı olduğun zaman mübarizədən qalmamaq lazımdı. Gec və ya tez haqq nahaqqa qalib gələcək...**

**Bünyamin BÜNYADZADƏ**

# Normadan artıq yük daşıyan avtomobilər...

## Onlar yolları dağıdırlar

**Son 20 ildə respublikamızda avtomobil yolları dünya standartlarına uyğun olaraq yüksək keyfiyyətlə tikilib, əhalinin istifadəsinə verilib. Bu gün respublikamızın hansı regionuna, hansı əyalətinə avtomobillə getsən, heç bir çətinliklə və problemlə üzləşməzsən. Çünki bayaq dediyimiz kimi, Azərbaycanda avtomobil yolları dünya standartlarına uyğun inşa edilib.**

Bakı-Astara, Bakı-Qazax, Bakı-Şamaxı-Ağsu, Biləsuvar-İmişli avtomobil yolları demək olar ki, çox rahat və təhlükəsizdir. Əgər 20-25 il bundan əvvəl o yollarla mənzil başına 6-7 saata çatmaq olurdusa, indi uzaq başı 4-5 saata respublikanın istənilən ucqar rayonuna getmək olur. Deməli, ölkəmizdə yol infrastrukturu çox yüksək səviyyədə öz həllini tapır.

Təəssüflə qeyd etmək istəyiriki ki, adını çəkdiyimiz yolların bir neçə istiqamətində normadan artıq yük daşıyan iri tonnajlı avtomobillər problemlər yaradır. Yəni həmin yolların müəyyən istiqaməti ağır yükə tab gətirməyərək sıradan çıxır.

Aydındır ki, yolların mühafizəsini qoruyan məlum qurum da fəaliyyət göstərir. Bu qurum yetərincə yolların dağılmasının qarşısını almaq üçün tədbirlər həyata keçirir. Ancaq bu da problemi tamamilə həll eləmir. Çünki bir çox şirkətlər və onların tabeliyində olan iri tonnajlı yük maşınları mövcud qaydalara əməl etmir, bir çox halda həmin avtomobillərə həddindən çox tikinti və inşaat materialları yığır və nəticədə respublikanın avtomobil yolları bərbad günə düşür.





Heç uzağa getməyək, Bakı-Quba avtomobil yolu 10 il bundan qabaq əsaslı surətdə betondan tikilərək istismara verilmişdi. Amma heç 10 il keçmədi, həmin yolun böyük bir hissəsi ağır tonnajlı yük maşınlarını normadan artıq yük aparması nəticəsində sıradan çıxdı. İndi yenidən Bakı-Quba yolunun tikintisi həyata keçirilir.

Havaların isti keçdiyi günlərdə isə ağır tonnajlı maşınlar normadan artıq yük daşıyaraq yolları daha tez sıradan çıxarır. Çünki isti yay günlərində asfalt örtük yumşalır, ağır yükə tab gətirmir və nəticədə yol dağılmağa başlayır. Bayaq dedik, artıq respublika əhəmiyyətli yolların bir neçə istiqamətində asfalt örtüklər sıradan çıxıb. Xüsusən də "Şadman", "Kamaz", "Kraz" markalı yük maşınlarına normadan artıq yük vurarkən avtomobilin ağırlığı və yükün çoxluğu yolları yararsız vəziyyətə gətirib çıxarır. Axı bu yolların inşa edilməsinə dövlət milyonlarla manat vəsait ayırıb. Və eyni zamanda yol polis idə stasionar postlarda normadan artıq yük daşımasına qarşı ciddi mübarizə aparır. Belə ki, hər hansı yük maşınında normadan artıq yük olduqda, həmin avtomobil saxlanılır, mişar daşları boşaldılır və bundan sonra sürücü sükan arxasına keçərək maşını idarə edir. Əlbəttə, bu kimi hadisələrin baş verməsi son nəticədə ölkəmizin yol infrastrukturuna və büdcəsinə milyonlarla manat ziyan vurub. Düzdü, bəzi hallarda normadan artıq yük daşıyan fiziki şəxslər və onların rəhbəri olan hüquqi şəxslər məsuliyyətə cəlb olunurlar. Yəni İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə beləleri cərimə edilir və inzibati məsuliyyətə cəlb olunur.

Normadan artıq yük daşıyan və yolları dağıdan sürücülərlə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli də öz fikrini bildirib. O deyib ki, yay mövsümündə ağır çəkili avtomobillərin hərəkəti nəticəsində asfalt örtüklü yolların deformasiyaya uğraması ehtimalı yüksək olduğu üçün belə halların qarşısının alınması məqsədilə və yük daşıması ilə məşğul olan fiziki və hüquqi şəxslərin diqqətinə çatdırırıq ki, təyinatından asılı olmayaraq istənilən yük Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş kütlə hədlərindən artıq olmamalıdır. Əks halda onlar inzibati məsuliyyətə cəlb olunacaqlar.

Göründüyü kimi, Baş Dövlət Yol Polisi İdarəsi müxtəlif markalı iri tonnajlı yük maşınlarını idarə edən sürücülərin nəzərinə qanunun müvafiq maddəsini çatdırır. Daha doğrusu, onların maarifləndirilməsi üçün lazımi tədbirləri vaxtında həyata keçirir. Əgər yol polisi öz üzərinə düşən funksiyanı yerinə yetirirsə və iri tonnajlı avtomobillərin sürücülərinə xəbərdarlıq edərək bildirirsə ki, bu cür normadan artıq yük daşınması qanun pozuntusudur, deməli, hər bir yük daşıyan sürücü buna əməl etməli və respublika əhəmiyyətli yolların dağılmaması üçün məsuliyyətli olmalıdır.

**Çünki bu yollardan biz istifadə edirik. Hər hansı avtomobil yolunun müəyyən istiqaməti yararsız hala düşürsə, onun yenidən təmiri üçün milyonlarla manat vəsait xərclənir. Üstəlik də yollar təmir olarkən sürücülər də vaxt itirir və müəyyən problemlər yaşayır. Ona görə də bütün sürücülər yük daşıyarkən normadan artıq yük vurmamalı, qanuna hörmətlə yanaşmalıdır.**

**Faiq QİSMƏTOĞLU**

## "Xanlar Vəliyevin vəzifədən getməsini istəyirlər"

**"Bəzi generallar, yüksək post tutmuş şəxslər hədəfə tuş gəlməklərindən qorxurlar".**

Bunu şərti adı Tərtər işi olan prosesla bağlı Hərbi Prokurorluq qarşısında keçirilən aksiyaya münasibət bildirərkən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi polisinin keçmiş rəisi, hərbi ekspert Rövşən Məhərrəmov Yenicag.az-a açıqlamasında deyib.

Rövşən Məhərrəmov bildirib ki, məlum aksiyanı bəziləri özlərini qorumaq üçün təşkil edib:

"Şərti adı Tərtər işi olan prosesi hazırda Hərbi Prokurorluq yox, Baş Prokurorluq aparır. Hesab edirəm ki, aksiya təşkil edilmişdi. Çünki Xanlar Vəliyev bəzilərinə sərf etmir. Son zamanlar qurumlarda çox ciddi yoxlamalar aparılır. Yeyinti, korrupsiya və qeyri-döyüş şəraitində ölüm halları var və bunların səbəbləri araşdırılır. Nəyin bahasına olursa-olsun Xanlar Vəliyevin vəzifədən getməsini istəyirlər. Bu işdə də Tərtər işində zərərçəkənlərin ailəsi istifadə olunur. Son günlər belə bir fikirlər səslənir ki, Tərtər işi qala-qala Xanlar Vəliyev başqa işləri yoxlayır. Hərbi Prokurorluğun işi təkcə Tərtər işi ilə bitmir. Başqa sahələrdə də yoxlamalar aparılmalıdır. Yeyinti olan yerdə yoxlamalar da olacaq. Son günlər çox prinsipial yoxlamalar gedir. Yoxlamaların qarşısının alınmasına çalışılmasında hansısa qüvvələrin birbaşa əli var.

Çox maraqlıdır ki, aksiyada veteranlar və mülki geyimdə hərbi qulluqçular da olub. Hesab edirəm ki, hüquq mühafizə or-



qanları bu məsələni araşdırmalıdır. Bəziləri deyir ki, Hərbi Prokurorluq ləğv edilməlidir. Bütün dünyada bu sistem var. Belə tələb absurddur.

Hesab edirəm ki, bəzilərinin kürkünə birə düşüb. Bilirlər ki, yoxlamalar onlara qədər gedib çıxacaq.

Orduda çoxlu sayda gənc generallar var. Ancaq onların bir çoxu vəzifədən və ordudan uzaqlaşdırılıb. Ancaq yaşlı generallar hələ də yüksək post tutmaqda davam edirlər. Yaxın günlərdə "Ordu Günü" gələcək, kimlərin general rütbəsinə təqdimatı göndəriləcək, kimlərin yüksək vəzifəyə gedəcəyini dövlət qurumları indidən araşdırmalıdır. Çünki bu işdə çox çirkin oyunlar gedir.

Bütün bunları deməklə Hərbi Prokurorluğu müdafiə etmək niyyətim yoxdur. Tərtər işi araşdırılmalıdır, nəinki hərbçilər, istintaqı düzgün aparmayan şəxslər də cəzalandırılmalıdır. Məsələ ondadır ki, aldığım informasiya bu cür aksiyalarda bəzi şəxslərin maraqlı olması yönündədir.

Düşünürəm ki, dünənki aksiyanı təşkil edənlər və sifarişçilərin özlərini müdafiə etməyin yolunu bunda görüblər. Hazırda Tərtər işini Hərbi Prokurorluq yox, xüsusi komissiya aparır. Narazıların seçdiyi ünvan özünü ifşadır".



Gürkan Hacır

# Amerikanın arxa həyəti

**Cənubi Amerikaya ABŞ-ın arxa həyəti deyilirdi.**

**Çünki bütün dünyada hegemoniya qurmamışdan əvvəl öz cənubundakı ölkələri nizama salmaq istəyirdi.**

**Kastronun Kubası ilə yaşadığı gərginlik istisna olmaqla qalan hamısını zaman-zaman nizama salmağa başladı.**

**Bu gah çevrilişlərlə baş tutdu, gah da altdan-altdan dəstəklədiyi yerli liderlərlə.**

**Ya ABŞ tərəfdarı qatı sağçı lider iqtidara gəlir.**

**Gah da ABŞ-a qarşı olan və solçu lider.**

**Bu bütün Latın Amerikası ölkələrinə aiddir.**

**Bu transformasiya elə qısa intervalda baş verir ki... O səbəbdən buna "kəfgir demokratiyası" deyirlər.**

**Dörd ildə bir cəmiyyət bir qatı sağçını iqtidara gətirir.**

**Sonra da bir qatı solçunu.**

**Amma indi vəziyyət biraz başqa, qəribə forma almağa başlayıb.**

**Bütün Cənubi Amerikanı ağuşuna alan böyük solçu küləkləri var. Hətta buna sadəcə sol demək də yersizdir.**

**Bildiyiniz Marksist havası var.**

**Niyəsini bir-bir izah edim.**

**Ən cənubdan başlayım.**

**Çilinin başına 36 yaşlı Qabriel Borik gəldi.**

**Hüquqşünasdır, amma vəkillik etməyə fürsəti olmadı.**

**24-25 yaşında olanda qoşulduğu tələbə aksiyalarının lideri idi.**

**Özünü ABŞ əleyhdarı və Marksist olaraq tanıdır.**

**Peru...**

**Təqaüdçü bir müəllimi prezident seçdilər.**

**51 yaşında.**

**Pedro Kastillo.**

**Özünü solçu-filan elan etməyib.**

**Birbaşa deyir ki, mən kommunistəm.**

**Kənddəki evindən çıxıb gəldi və prezident kürsüsünə oturdu.**

**ABŞ açıq-açıq Peru ordusuna çevriliş çağırışı etdi.**

**Amma ordu vecinə almadı. Seçim nəticələrini tanıdığını bəyan etdi.**

**Argentina...**

**Alberto Fernandez**

**2019-cu ildəki seçkilərdə qalib oldu.**

**Mərkəz solçu bir lider olaraq tanınır.**

**ABŞ-la arası heç də yaxşı deyil.**

**Bolivya**

**Marksist lider Eva Morales**

**Özünə qarşı çevriliş baş tutan kimi ölkədən qaçmağa məcbur oldu.**

**Özü geri qayıda bilmədi, amma köməkçisi, eks-naziri Luis Arce seçkilərdə qalib oldu.**

**ABŞ əleyhdarı və solçu bir lider.**

**Maduronu tanıyırsınız.**

**O da Venesuelada iqtidarı əlində saxlayır.**

**Bu son enerji krizində ABŞ ona saman çöpü uzatsa da, ABŞ-la qanlı-bıçaqlıdır.**

**Brazilya**

**Orada hal-hazırda prezident Bolsanarodur.**

**Ona Tropik Tramp deyirlər. Qatı sağçı və ABŞ tərəfdarı olduğu üçün.**

**Amma əli qulağındadır.**

**Payızda seçkilər olacaq.**

**Korrupsiya ittihamı ilə vəzifəsindən uzaqlaşdırılan və həbsxanaya atılan solçu lider LULA bəraət qazandı.**

**Və bu dəfə onun qarşısında kifayət qədər möhkəm dayanır...**

**Artıq sorğular LULA-nın 10 xal irəlidə olduğunu deyir.**

**Hətta Bolsonaro da bundan xəbərdardır.**

**Deyir, seçkidə uduzsam, təyyarəmə minib ölkəni tərk edəcəm.**

**Braziliyada solçu hakimiyyətin qurulması çox yaxındır.**

**(Yeri gəlmişkən, sizə mükafat qazanmış "Demokratiyanın həddi" sənədli filminə baxmağı məsləhət görürəm... Bu, Lulaya qarşı qurulan tələni çox yaxşı izah edən bir istehsaldır... Netflix-də mövcuddur.)**

**Adı narkotiklə hallanan Kolumbiyada...**

**3 il əvvəl ABŞ-ın dəstəklədiyi azadlıq əməliyyatı baş tutmuşdu. ABŞ Parlamentin spikeri Quadionu tələm-tələsik tanımışdı.**

**Amma Quadi seçkidə qalibzad olmamışdı.**

**Yeni seçkilərdə FARC-ın (Kolumbiyalı İnqilabçılar) dəstəklədiyi namizədin qalib gələcəyi görünür.**

**Belə...**

**ABŞ-ın arxa həyətində vəziyyət budur.**

**Latın Amerikasında solçu küləklər çox güclü əsir.**

**Amma kiçik bir detalı da vurğulayım, sonra yazını bitirərəm.**

**Bu solçu iqtidarların ən yaxşı yola getdiyi və silahdan ticarətə qədər ən çox alış-veriş etdiyi iki ölkə hansıdır, bilirsiniz?**

**Rusiya və Çin!**

**Dilimizə uyğunlaşdıran: Eminquey**

Səxavət Məmməd

## Mətbuatın bu günə düşməsinin səbəbi



*Xaricilərlə, xarici təşkilatlarla işləyənlərlə müsahibə götürmək çox rahat olur. Adam özünü jurnalist kimi hiss edir. Çünki onlar mətbuatla işləməyi çox yaxşı bilirlər, məsuliyyətləri son dərəcə çox olur. Nəyi, necə demək lazım olduğunu bilirlər. Diktafon açılır. Suallar verilir. Bəzi sualdan sonra "off the record" deyirlər. Bəzən suala cavab verdiyi yerdə məlum ifadəni işlədib, mətbuatda getməyəcək məlumatları verirlər. "Off the record"un hərfi tərcüməsini boş verin, loru dildə desək mənası "mətbuat üçün deyil" deməkdir. O ifadə işlənəndən sonra onlar da bilir ki, əgər o sözü deyiblərsə, bu yazılmayacaq.*

*Məmurların mətbuatla işləməsi üçün çoxlu təlimlər keçirilir, ancaq hamısı təlimlərdə mürgüləyir, qarşılarındakı kağıza qoyun, quzu, quş şəkilləri çəkirlər.*

*Müsahibə üçün müraciət edirsən, açıqlama almaq üçün zəng edirsən, danışırlar. Yazırsan. Yazı dərc olunandan sonra zənglər başlayır. Əvvəl "bəy, xahiş edirəm, filan yerin çıxarın, onu deməməliyidim", aradan biraz keçir daha bir zəng "müəllim, xahiş edirəm, o sualı və cavabı tamamilə silin, aləm qarışıb", bir qədər sonra zəng edir ki, "qardaş, başına dönüm, yuxarı məni zorrayır, mümkünsə yazını tamamilə silin". O məqamda ürəyimdə deyirəm, kaş o zorrayır yox, zorrayırlar olaydı. Belə halla çox rastlaşmışam.*

*Səbəb nədir? Mətbuatla işləməyi bilməmək, jurnalist qarşısında özünü "yaxşı oğlan" kimi göstərib, gördün bütün suallara cavab verirəm eqosudur.*

*Həmin bu varlıqlar, daha sonra mətbuata qənim kəsilir, mətbuatın lazımsız bir şey olduğunu iddia edirlər.*

*Düzdür, mətbuatda da çox çaqqalıqlar var. Dəfələrlə olub ki, xaricilərlər və ya xarici təşkilatlarla işləyənlərlə müsahibə götürəndə "off the record" deyəndən sonra izləyiblər ki, görüm söndürür, ya yox. Çünki bir çoxu söndürüb deyəndən sonra səsi qeyd edib, sonra yazıblar.*

*Mətbuatın bu günə düşməsinin səbəbi məsuliyyətsiz məmurlar və çaqqal xislətli media nümayəndələridir.*

İlhami Cəfərsoy

## ÇİN MƏKRLİ İBLİSDİR



**Hər millətin bir xoş üzü, beş bəd üzü varsa, Çinin yüz xoş üzü, min bəd üzü var. Çin ən qəddar cəza üsullarını kəşf edən millətdir. Onların kişiləri qadınların qarnını xəncərlə yarır, uşaqları çıxardırdılar.**

**Qadınları başqa xalqların kişilərini özlərinə məftun edir, doğduqları uşaqları atalarına düşmən kimi böyüdürdülər. Çin qızları şəhvətin ən şirin yerində oğlanın dilini dilçəyinə qədər sümürür, qəfildən dişləyib dibindən qopardırdılar. İki-üç dəqiqə çəkmirdi ki, oğlan ölürdü. Çinin həkimləri zəhərin çoxlu növlərini kəşf ediblər. Onların zəhərləri çox dadlı və ətirli olurdu, şərbətdən fərqlənmirdi. Ən güclü pəhləvanlar zəhəri şərbət bilib içə-içə ölürdü. Qadınlar xüsusi üsullarla öz .... daraldırdılar. Aşnaları heyran olub başqa qadınlara yaxınlaşmırdılar. Türk xanlarının çoxunu Çin qızları zəhərləyib öldürüblər.**

**Tarixən çoxlu virusları onlar kəşf ediblər və indi də kəşf edirlər. Çinlilər ruslar və ingilislər kimi çox da müstəmləkəçiliyə meyilli deyillər. Onlar nə qədər qəddar olsalar da, həmişə tabe etdikləri xalqlara açıq zülm eləmirlər. Zövqlərini dəyişir, beyinlərini yuyur, bir milləti başqa bir millətə, bir irqi başqa bir irqə çevirirlər. Vaxtında tədbir görülməsə, dünyanın yumru gözlü xalqları qıyıq gözlü adamlara çevriləcəkdir. Dünya xalqları öz dilini unudub, Çin dilində danışacaqdır. Dövlətlər dağılacaq, mədəniyyətlər məhv olacaqdır. Çingiz xan tarixdə yeganə adamdır ki, Çini ən zəif yerindən, tamah dişindən tələyə sala bilmişdir.**

**Dünyaya yeni Çingiz xanlar gərəkdir. Amerikanın, Rusiyanın prezidentləri Avropanı zəiflədib Çini dünya ağalığına tərəf aparırlar. Yeganə ümid Roma papasınadır. Papa üçüncü dünya müharibəsini, nəticədə Çinin dünya ağalığını istəmir.**

## İranda 84 nəfər spirtli içkidən zəhərləndi, 2 ölü var



**Adalet.az xəbər verir ki, İranın Əhvaz şəhərində 84 nəfər saxta spirtli içkidən zəhərlənib, 2 nəfər həyatını itirib, 7 nəfər isə görmə qabiliyyətini itirib.**

Qeyd edək ki, spirtli içkilərin qadağan olunduğu İranda adətən evdə hazırlanmış və ya qaçaq içki istehlak edilir. Zəhərlənməyə səbəb olan içkilərin istehsalında bəzən etil spirtinin əvəzinə metil spirtinin istifadə edildiyi bildirilir.

**Eminquey**

## İrandan Türk limanlarına 50 min tondan çox yük daşınıb

**2022-ci ilin yanvar-may aylarında İrandan Türk limanlarına 50 min 734 ton yük daşınıb.**

Trend xəbər verir ki, bu barədə TurkicWorld-ə Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyindən məlumat verilib.

Nazirlikdən verilən məlumata görə, Türkiyə bayrağı altında üzən gəmilər İrandan limanlara heç bir yük daşımazkən, digər ölkələrin bayraqları altında üzən gəmilər 45 min 1 ton yük çatdırıb.

Bu müddət ərzində İran bayraqlı gəmilərlə Türkiyə limanlarına 5 min 733 ton yük çatdırılıb. 2022-ci ilin yanvar-may aylarında Türkiyə limanlarına İrandan heçbir tranzit yük daşınmayıb.

Qeyd edək ki, bu ilin may ayında Türkiyə limanları 33 milyon 431 min 149 ton yük qəbul edib. Bu yüklərin 2 milyon 355 min 407 tonu Türkiyə bayrağı altında üzən gəmilərlə, 31 milyon 75 min 741 tonu isə əcnəbi bayraqlı gəmilərlə qəbul edilib.

May ayında Türkiyə limanlarından 7 milyon 509 min 987 ton tranzit yük aşırılıb.

Bu ilin yanvar-may aylarında Türkiyə limanları 164 milyon 292 min 61 ton yük qəbul edib. Bu yüklərin 11 milyon 414 min 29 tonu Türkiyə bayrağı altında üzən gəmilərlə, 152 milyon 878 min 32 tonu isə əcnəbi bayraqlı gəmilərlə qəbul edilib.

Yanvar-may ayında Türkiyə limanlarından 35 milyon 282 min 27 ton tranzit yük aşırılıb.

Əbülfət MƏDƏTOĞLU



## Bizi bir-birimizdən soruşa bilərlər

### Faiq Balabəylinin bir şeiri əsasında

**Hər dəfə ədəbiyyat ilə, əsasən də poeziya ilə bağlı düşüncələrimi dostlarla, oxucularla bölüşəndə təkrar olsa da vurğulayıram ki, şeir o vaxt uğurlu alınır, söz o vaxt dəyərli olur ki, o, insanın bütün iç dünyasını, bütün yaşadığı cizgiləri bir-bir kino lenti kimi oxucu gözlərinin önündən keçirir və söz sahibi ilə bir araya gələn oxucu həmin anda ən azı 70-80 faiz şairin özünə çevrilir, onun şəriki olur. Çünki yaşam gerçəkliyi təsvirə qalib gəlir.**

Bax, bu mənada ruh dostlarım, qələm yoldaşlarım arasında özəl yeri olan Faiq Balabəylinin şeirləri hər zaman məni özünə çəkib. Bu ÇƏKMƏK gücü onun, mənim inancıma görə iç dünyasındakı həyatla mənim iç dünyamdakı yaşamın bənzərliyindən, bəzən də bir-birini tamamlamasından irəli gəlir. Necə deyərlər, qarşılıqlı etimad, qarşılıqlı güvənc və qarşılıqlı sevgi bizim duyğularımızı elə bir formada araya-ərsəyə gətirir ki, bəzən onlar əkiz kimi görünürlər. Bu da o deməkdir ki, fikir, ruh doğmalığı şairin, müəllifin, bütövlükdə sözə könül verənin bir inanca, bir məsləkə xidməti həmişə sözün getdiyi, çatdığı ünvanda özünü ehtiva edir, təsdiqləyir.

Əlimin altındakı "Yaşıl yuxulu dəniz" kitabı bilmirəm sayca Faiqin oxucularla neçənci görüşüdü. Və indiki məqamda heç bunu bilməyimin də elə bir önəmi yoxdur. Çünki həqiqi şeirin kitabda, qəzetdə, dərgidə çap olunması o demək deyil ki, bu şeir uğurludu və uzun ömür yaşayacaq. Xeyr, mən yüzə-yüz bilirəm ki, minlərlə kitab var ki, elə müəllifinin sağlığında artıq ömrünü başa vurub. Amma dillərdə dolaşan elə şeirlər var ki, mən onların bəzilərinə kitablarda rast gəlməmişəm. Deməli, söhbət həqiqi ŞEİRDƏN gedir. Elə mən də bu gün əhvalıma uyğun olaraq bir ŞEİRLƏ dərdləşirəm. Ona görə bu şeir məni tutdu ki, burada Faiq öz-özü ilə danışır. Necə ki, mən də bu dünyada ən çox Allah, dörd divar və Sənlə danışıram. Faiq öz-özünə deyir ki:

*Sevincinə şərik çıxan çox oldu*
*Bölmədilər heç vaxt qəmin Faiqin.*
*Xoş günlərə yadırğamış qəlbinə*
*Sevinc gəlib dola, çətin, Faiqin.*

Doğru deyirsən Faiq, doğru yazırsan. Yaxşı günümüzə, xoş anlarımıza həsəd və riyakar "sevgi" ilə qoşulanlar, alqışlayanlar çox olub. Amma ağrılı-acılı anımızda, kədərin qəddimizi bükdüyü məqamımıza isə ən azından sadəcə təsəlli verənlər barmaqla sayılıblar. Bu da onu göstərib ki, sevinc payımız yorğun, kədər payımız yüyrəkdi və nəticədə könlümüz xoş günlərə, xoş anlara yadırğayıb. Və mən də bunu görə-görə, anlaya-anlaya dostlarıma, sevdiyimə üzümü tutub pıçıldamışam:

*Daş da həmən, tərəzin də yerində*
*Sağalmayıb, mərəzin də yerində...*
*Ömür adlı çərəzin də yerində -*
*Əbülfət!*

Hər şey yerindədi. Hər şey o qədər "yerində"di ki, heç adamın ruhunu da incitmir. Ona görə yerində sözünü dırnaq içərisində yazıram ki, sən də, mən də hər şeyin harada olduğunu, necə olduğunu daha yaxşı bilirik. Ən azından ona görə ki, vurğuladığımız həmin o hər şeylər bizim ömürlüyümüzün içimizdə cücərtdiyi ümidlər, arzular, xəyallar və daha nəsnələrdir. Bu isə nə zamanla, nə imkanla, nə də güclə düz gəlmir. Şairliyimiz bizi yola verir. Həmin o yola ki, sən də nə deyəcəyini, nə yazacağını, daha doğrusu necə deyib, necə yazacağını tərəddüdlə pıçıldayırsan:

*Eh, nə deyək bu fələyin çarxına,*
*Salıb bizi qəm, kədərin arxına.*
*Görəcəksən bir gün çıxıb axrına -*
*Yaxşı bilir fələk çəmin Faiqin.*

Belə olan halda başqa bir suala, başqa bir him-cimə yer qalmır. Ona görə ki, sən birmənalı şəkildə deyib təsdiqləmisən ki, fələk yaxşısını bilir! Əgər o bilirsə, bizim nəyisə dəyişəcəyimiz heç cür alınası iş deyil. Ona görə də mən sənin xatırlatdığına öz xatırlamamı da qoşuram, şərik edirəm. Və yazıram ki:

*Qışı qışdı, yay yaydı - sənə nə*
*Önə çıxıb, çox da döymə sinənə...*
*Qurbanlıqsan ürəyinə - sinənə,*
*Əbülfət!*

Bilmirəm, bu misralarla sənə qoşulmam düz gəldi yoxsa yox, amma həqiqətən qışı da, yayı da öz işində olan bu dünyada fələyin, eləcə də Allahın işinə qarışmaq ağılsızlıqdı. Çünki son söz onundu. Və mən elə sənin özün də istəyimizin, məqsədimizin, sevgimizin qurbanlarıyıq. Burda mütləq sən deməsən də, mən deyəcəm:

**- Allah qəbul etsin!**

Hə, sən onu da vurğulayırsan ki, doğmalar, eləcə də çevrəmizdəki olan hər kəs öz həyatını yaşamaqla, öz ömrünü idarə etməklə bizdən addım-addım uzaqlaşırlar. Bu təbii bir prosesdir. Öncə ona görə ki, yollar "Ol!" ilə başlayır. Və nə ilə də bitdiyi hər kəsə məlumdur. Məsafə də beşik-məzar arasıdır. İtirdiyimiz, bizdən ayrılan hər kəs qəza deyil, bu yaşam qanunudur. Ona görə də pıçıltın nə qədər kövrək, duyğusal olsa da, özün də dediyin kimi, sən də, mən də artıq kölgə kimi qalırıq. O da sənin tərəfindən bu cür ifadə olunur:

*Ata, əmi, Vəkil, Vüsal yanından -*
*Köç eyləyib, can ayrılıb canından.*



*Bu dünyada ömür sürür yalandan,*
*Kölgəsidi qalan həmin Faiqin.*

Mən yaşımın bu kölgələnən vaxtında sənin dediklərini təkcə canımdan, qanımdan deyil, həm də özəl olaraq xəyalımdan keçirərək dünyasını vaxtlı-vaxtsız dəyişən neçə insanı gözümün önünə gətirdim. Və hiss etdim ki, o gedənlərlə birlikdə məndən də çox şeylər gedib. Ona görə də təəssüf hissini cilovlamaq, durdurmaq amacı ilə bir az fərqli bir şəkildə yazdım:

*Bu dənizin adı Qara, günü ağ*
*İşlərinə qarışmağın bir günah!*
*Tutar səni çəkdirdiyin bir gün, ah! -*
*Əbülfət...*

Deməli, insan, özü də müdrik, kamil insan heç vaxt yalnışlıq etmir. Ola bilsin ki, müəyyən yanılma olsun, amma yalnışlıq heç vaxt müdriklərin qələmindən gəlib keçməyib. Bunu ona görə xatırladıram ki, biz bəzən dözməyəcəyimizi, yaşamayacağımızı, daha nəbilim nələri dilə gətiririk. Amma sonra görürük ki, dözürük də, yaşayırıq da. Deməli, biz yanıldığımızı görür və bunun özünü də hissə, duyğuya çevirməyi bacarırıq. Bax, bu bizim Allahdan gələn duyğusallığımızın bəhrəsidi. Sən onun şeirində təkcə mərhumlarla bağlı yox, həm də üz tutduğun oğlun Vüsalın simasında da təsdiq edirsən. Daha doğrusu, etiraf edirsən. Bu böyüklük həm də yaşadığının gerçəkliyini bir daha sərgiləyir. Bir şair olaraq köynəyindən keçirtdiklərinin reallığını sözündə büruzə verir və...

*Necə dözür, dözülməzdi bil, bu hal,*
*Ürəyini didir, sökür bu sual.*
*Atanı, ananı demirəm, Vüsal,*
*Belini qırmısan əmin Faiqin.*

Mən də elə həmin o sözün, fikrin işığında yönümü sənin tutduğun ünvana çevirirəm. Mən də dolayısı ilə, həmin fikirləri qələmin ucunda, vərəqin yaxasında nişanlayıram:

*Sözə qatma bu məscidi, kilsəni...*
*Oğul! - deyib anacaqdı kim səni?*
*Varlığınla ovutmadın kimsəni -*
*Əbülfət...*

Bütün yazı boyu, əslində söhbət etdiyimiz bu vaxt ərzində bir ümid işığı nə ürəyimi, nə duyğularımı tərk etmədi. Bu işıq Allahın bəxş etdiyi sevgi və dostlar idi.

Mən də həmin o sevginin və dostların varlığına şükürlər etməklə demək istəyirəm ki, nə Faiqin, nə Əbülfətin, nə də başqa bir kimsənin bu düzəndə, bu meydanda çapıb-talamaq, özgəsinin yerini tutmaq istəyi olmayıb və yoxdur. Biz sadəcə olaraq öz içimizi, öz sözümüzü bölüşürük. Bu bölüşmədə də qazandığımız yenə ağrı-acı və yenə oxucu diqqətidi. Əgər həqiqətən onu qazana bilmişiksə, biz bu dünyada olmağımızla öyünə bilərik. Axı:

*Məhəbbətsiz, can dostlarsız ömür boş*
*Yığ dəftəri, at qələmi xoşaxoş!*
*Sən özünü yol istəkli köçə qoş -*
*Əbülfət!*

**Hə, Faiq Balabəyli, biz ikimiz neçə saat, neçə gün deyə bilmərəm, amma maraqlı bir yol getdik. İki şeiri bir-birinə qoşub, iki ürəyi bir-birinə həmsöhbət edib getdik. Zənnimcə daha bizi birmənalı şəkildə bir-birimizdən soruşa bilərlər. Axı biz yol yoldaşı olduq!**

# O DA BELƏ ŞAİRDİR...



VAQİF YUSİFLİ

*Gənc idim, şeirə həvəsli idim,*
*Sözdə Əli Kərim olmaq istədim.*
*Hətta şöhrətlənib, könüllərdə də*
*Əli Kərim kimi qalmaq istədim.*
*Əli bulağından təb tutanların*
*Şair sayılmağa gümanı vardı.*
*Mənə davamçısı deyilsəydi lap*
*Bu mənə ən böyük şöhrət olardı.*
*Vaxt ötdü-bildim ki, Əli sözütək*
*Sözüm o qədər də təsirli deyil-*
*Sehrli-sirli, xətirli deyil.*
*Gördüm Əli Kərim olmaq istəyim,*
*Heç özüm olmağa yetərli deyil.*
*Gənc idim, bilmirdim-sonra anladım*
*Yeni Əli Kərim bir də yetişməz...*

Cavan yaşlarında Əli Kərim olmaq istəyilə yaşayanlar çox olub. Bu da təbiidir, çünki aşağıdan yüksəkliyə, zirvəyə baxanda çoxlarının ürəyindən o zirvəyə ucalmaq keçir. Səksəninci illərin gənc şairi Elşad Səfərlinin ürəyində belə bir arzunun doğması təbii idi. İllər keçdi və Elşad Səfərlinin o şeirində deyildiyi kimi, Əli Kərim olmaq çətin imiş, çünki "Yeni Əli Kərim bir də yetişməz". Amma Elşad Səfərli Əli Kərim kimi bir şair olmasa da, müasir poeziyamızda seçildi, Əli Kərim yox, Elşad Səfərli oldu.O, Lənkəran ədəbi mühittinin yetirməısidir, Şəkər Aslanın "Uğulu yolu" ilə ədəbiyyata gəlib, elə sonralar sonetlər və sonetlər çələngi yaratmağı da Şəkər Aslanın təsiriylə yaranıb, -desək, səhv etmərik. İndi Elşad Səfərli 65 yaşındadır, həm elmi fəaliyyətlə məşğuldur, həm də şeir yazır, Elmi təfəkkürlə bədii təfəkkürün vəhdətinin bir çox müəlliflərdə alınmadığını-yəni hansınınsa üstünlüyü o birisini kölgədə qoyur- amma Elşad Səfərlidə hər ikisi alınıb. O, Lənkəran Dövlət Universitetinin "Azərbaycan dili, ədəbiyyatı və onların tədrisi metodikası" kafedrasının müdiri, filologiya elmləri namizədi, dosentdir. Xeyli sayda elmi məqalələri və altı monoqrafiyası işıq üzü görüb. "Sonet janrı və Azərbaycan soneti" monoqrafiyasını xüsusilə qeyd etmək olar. (Bu haqda yazının sonunda söz açacayıq).

Elşad Səfərlini bir şair kimi səciyyələndirən xüsusiyyətlər var. O, "şəhər uşağı" deyil, bizim bir çoxumuz kimi kənddən-kəsəkdən çıxıb. Amma vaxtilə (səksəninci illərdə) cavan şairlər şəhərlərə qədəm basan kimi kənd üçün darıxdıqlarını, şəhərlərə alışmadıqlarını təçəssüf hissilə etiraf edirdilər.

Amma indi şəhərlə kəndin az qala bir-birinə qovuşduqlarını görürük, urbanizasiya kəndlərə də addımlarını atıb. Elşadın şeirlərində də bu dəyişilmə, kəndin öz təbii stixiyasından ayrılmaq prosesi "Nostalji" şeirində əksini tapıb. Təkcə dəyişilən kənd deyil, kəndlə bağlı xatirələrin üzərinə də qar yağıb:

*Görən qalmışammı-kəndin başında*
*Şahidtək çinarın mən yaddaşında?*
*Orda bir ocağa mələk yaşında*
*Yolumu gözləyən qız kilidlənib.*

*Həsrətimi söz-söz misralayıram,*
*Dərdi misra-misra sıralayıram.*
*Ömrün payızıdır-çabalayıram,*
*Hansı dalandasa yaz kilidlənib.*

*Ah, cavanlıq ömrü, cavanlıq ömrü!*
*Qəhər buludları yuyur üzümü.*
*Sınıb da, tükənib ruhun dözümü,*
*Ayaqlar işləmir, diz kilidlənib.*

*Hərdən üz tuturam gözü geriyə,*
*Qaytarmaq olarmı bizi geriyə?*
*Daha gecdir, gecdir, üzü geriyə*
*Qar yağıb, yol itib, iz kilidlənib.*

Şeirimizin son otuz ili bir də onunla səciyyələnir ki, şairlər daha çox öz ömür-gün yollarından (artıq xatirələrə çevrilən, ya da bu günün gerçəkləşən hadisələrindən), subyektiv hisslərindən dünyada, cəmiyyətdə baş verən olaylara, ictimai həyata, təbiətə üz tuturlar. Və bu prosesdə Şair obrazı ön plana keçir. Əlbəttə, "mən"in öz hiss və düşüncələrini ifadə etməsi çox zaman elə subyektiv çərçivədə qalır, az qala şairin tərcümeyi-halının bir parçasına dönür. Amma "mən"də bu günün gerçəkliyi, dünyanın təzadları, məmləkətimizin ictimai-siyasi, mənəvi həyatına təmas varsa, bu, başqa məsələ. Təbii ki, şeir də gərək ŞEİR ola Elşad Səfərli bir çox şeirlərində bunun əyani şahidi oluruq. Bəlkə də, sizə qəribə görünər, E.Səfərlinin "Dövr" şeiri bizə bu günün həqiqətlərindən birini xatırlatdı:

*Tülkünün də həccə gedən dövrüdü,-*
*Qarğanı ağzında pendir axtarır.*
*Məcnun tində olsun gözləməyində,*
*Leyli başqa sevda indi axtarır.*

*Halala qatılır min gür qatmalar,*
*Dubayda kef edir qaşı çatmalar.*
*Neyləsin, arxasız göyçək Fatmalar,*
*Vətəndə yapmağa təndir axtarır.*

*Zor da yox, damlardan ya atılmağa-*
*İp altında ipə ya dartılmağa.*
*Boyun keçirtməyə, ya asılmağa-*
*Kimsə indi özü kəndir axtarır.*

Deyəsən, bu şeirin "intihar" çaları sizə xoş gəlmədi.Onda bir kövrək şeirinə müraciət edək.

Bu şeir gözəl şair Camal Yusifzadəyə həsr olunub və onun şair portreti canlanır. "Şeir yazdı. Dəmirağaca- Dəmir ağaca, Güllərinə, sərvlərinə, divarlarının nəminə, qəminə, dərdinə. "Dəfn olunmamış kəndlər"in İldırım boşalmasına bənzər yollarına. Şeir yazdı, Bayraqsevər, Torpaqsçevər, Doğma yurda Qanı qaynar, istiqanlı- Lənkəranda heç vaxt görmədiyim Əsil lənkəranlı". Lənkəranda-dəniz kənarında yaşayan Elşad Səfərlinin "Dəniz" silsiləsindən çoxlu şeirləri var. "Əslində, Dənizin bu sahilində Üfüqün yerlə birləşdiyi yerdə durmuşam. Əlimi Sahil qayalarına yox, Üfüqün çiyninə qoymuşam" və s. belə misralar Dəniz obrazını poetikləşdirir. Əlbəttə, məqsədimiz o deyil ki, Elşad Səfərlinin müxtəlif mövzularda yazdığı şeirlərindən və poemalarından geniş söz açaq. Hər halda, müəyyən təsəvvür yarandı. Bəyəndiyimiz, təqdir etdiyimiz bu şairi tənqid də edək. Nədə? Elşad Səfərlinin bir xeyli şeiri var ki, "sənət xainlərinə", plagiat şairlərə, "ağışdan sonra göbələklər" kimi artan cızmaqaraçılara həsr olunub. Bəzi şeirlərində də ona "oyun quran" kimsələr tənqid atəşinə tutulur. Bizim fikrimizcə, bu tipli şeirlərə ehtiyac varmı? Elşadın çox sevdiyi Əli Kərimdə belə şeirlər heç yoxdu, ya da bir-ikisi olar. Qoy Elşad Səfərli bu misralarına arxayın olsun ki: "Ən möhkəm istehkam, Alınmaz qalam Ürəyimdi. Ürəyim ömür damıma, İlhamıma Dayağımdı, Dirəyimdi, Çörəıyimdi. Söz qalamdı- Öz qalamdı".

Öncə qeyd olundu ki, Elşad Səfərli "Sonet janrı və Azərbaycan soneti" monoqrafiyasının müəllifidir. Təkcə bu kitabın yox, "Müşfiq yaradıcılığında sonet ganrı", "Azərbaycan sonetinin poetik xüsusiyyətləri" kitablarının da müəllifi odur. Bu üç kitabın elmi redaktoru isə mərhum professor, 1 nömrəli sonetşünas alim Hüseyn Həşimlidir. Amma qeyd edək ki, Elşad Səfərli bu tədqiqatlarla yanaşı, özü sonetlər və sonet çələngləri yaradır, Azərbaycan sonetistikasında janrın heç vaxt təsadüf edilməyən sonet haqqında sonet, məsnəvi sonet, yarımçıq sonet, başsız sonet, çevrilmiş sonet, sonet-verlibr, sonet-broxokoln, axsaq sonet, birbaşa sonet, quyruqlu sonet, ikiqat sonet növlərini Azərbaycan poeziyasına gətirir. Bütün bu sonet növlərini o, 2017-ci ildə nəşr olunan "Lənkəran sonetləri" kitabında təqdim edib. Burada həm ingilis, həm də italyan soneti formasında nümunələr var.

**Elşad Səfərli Şekspirdən, Petrarkadın, Dantedən, bizim ədəbiyyatda isə Müşfiqdən, Əliağa Kürçaylıdan, Adil Babayevdən, Şəkər Aslandan, Vaqif Hüseynovdan, Sabir Mustafadan gələn ənənələri-həm mövzu, həm də sənətkarlıq xüsusiyyətlərinə layiqincə əməl edir. Təbii ki, bu kiçik yazıda Elşad Səfərlinin sonet yaradıcılığından geniş söhbət açmağa imkan yox (Biz "Azərbaycan soneti" adlı məqaləmizdə onun sonetlərindən də geniş söz açmışıq).. Amma onun bir sonetiylə bu yazını sona çatdıraq:**

*Sizi sonet yazmağa çağırıram, a dostlar,*
*Bir az qoşma, gəraylı yazmağa aram verin.*
*İndi ki, təbinizdə yaratmaq qüdrəti var,*
*Sonet üfüqlərini genişləndirin şeirin.*

*Nə qədər eyni ruhda əsərlər yazmaq olar,*
*Bir az da addımlayaq böyük sənətə doğru.*
*Bəlkə də aranızda yatıbdır Petrarkalar,*
*Oyanın, Petrarkalar, üzü sonetə doğru.*

*Qataq öz şeirimizə intibah incisini,*
*Yeni əsri döndərək gəlin, sonet əsrinə.*
*Biz fəth etsək sonetin Şekspir zirvəsini,*
*Bu, bir bəzək olacaq Azərbaycan şerinə.*

*Zaman yetişdirdikcə sonet yazan kəsləri,*
*Gec-tez üzə çıxacaq Dantenin varisləri.*

# Veravul Xəzərə qovuşan kimi...

## Şair Ağamir Cavadın yaradıcılığı barədə düşüncələr

**Cənub məkanlı, Lənkəran ünvanlı qələm dostum Ağamir Cavad ömrünün 60-cı baharını yaşayır. Qırx illik bədii yaradıcılıq "ehtiyat"ı var. Çoxdandır ki, ədəbi cameədə məxsusi dəst-xətti və saflığı ilə tanınır. Özünə tələbkar olduğu qədər də ad-sana, şöhrətə təmənnasız bir şəxsiyyətdir.**

İşimlə əlaqədar tez-tez Lənkəranda oluram. Hər dəfəsində də ilk zəng edib görüşə çağırdığım dostların sırasında Ağamir Cavad birinci yeri tutur. Onun telefon nömrəsi mənim üçün zümrüd quşunun ləléyi timsalındadır - yandıran kimi dost hüzurunda müntəzir olur. Özünə də demişəm, onunla görüşəndə həmin gün işlərim düz gətirir, çətinliklərin az olur. Çünki təmiz ürəyi var, heç nədə gözü yoxdur.

### Şair dostum

***ədəbiyyatdan danışanda gözləri işıqlanır, özəl fikirləri yaxınlıqdakı Xəzər dənizinin həlim dalğaları kimi ard-arda düzülür. Seyyid cəddinin nurundan yoğrulduğuna görə ona "İşıq adam", gözləri mavi olduğuna görə isə "Dəniz adam" da demək olar. Yeri gəlmişkən, şairin şeirlərinin toplandığı kitabların ikisi elə belə də adlanır.***

Ağamir Cavadı düşündükcə yadıma unudulmaz unudulmaz Xalq şairimiz Məmməd Arazın Lənkəranda yaşayıb-yaratmış gözəl şair Şəkər Aslana xitabla dediyi sözlər düşür: "Sən bölgə şairi deyilsən, ölkə şairisən!" Qısaca, həm də hörmət və rəğbət nişanı olaraq "Ağa" deyə müraciət etdiyim dostum da sələfi kimi əyalət sərhədlərini çoxdan aşmış qələm sahibidir. AYB Lənkəran bölməsinin ədəbi məsləhətçisi,"Söz" jurnalının redaktor müavinidir. 2017-ci ildə Prezident təqaüdünə layiq görülüb.

Sələf dedim, vurğulamağı gərəkli bilirəm ki, Ağamir Cavad imzasını tanıdan amillərdən biri elə onun şair babalarına layiqli xələf olmasıdır. 1995-ci ildə "Füzuli" pyesinin Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulması, əruz vəznini dərindən öyrənərək türfə qəzəllər yaza bilməsi bunu sübut edir. Ədəbiyyat tarixindən bilirik ki, XIX əsrdə xanlıq mərkəzi Lənkəranda şeir məclisləri keçirilib, yarışmalar, deyişmələr təşkil edilib. "Fövcül-füsəha" ("Gözəl danışanlar dəstəsi") ədəbi dərnəyində çıxış eləmək heç də hər kəsin hünəri olmayıb. İnamla deyə bilərəm ki, bu gün Ağamir Cavadın çalışdığı AYB-nin Lənkəran bölməsi elə dövrümüzün "Fövcül-füsəha"sıdır. Bplmənin rəhbərləri - yuxarıda adını çəkdiyim Şəkər Aslan, bu yaxınlarda xatirəsi urvatda tutularaq, 85 yaşı təmtəraqla qeyd olunan mərhum İltifat Saleh, indi isə gözəl yazıçı Qafar Cəfərli, eləcə də Ağamir Cavad və digər fəal təşkilatçılar bölmədə çeşidli tədbirlər təşkil etməklə, yaddaqalan təqdimat və imza günləri keçirməklə ənənəni yaşadırlar.

Hərdən Lənkəran bölməsinin tədbirlərindən çəkilib sosial şəbəkələrdə yayılan videolara, şəkillərə baxanda elə bilirəm ki, "Fövcül-füsəha"nın növbəti bir məclisidir və Ağa da orada məclisin hazırkı üzvləri İlham İlhami, Əlizaman Baxış, Aqil Yaqub, Şahverən Cavad, Mehman Qaraxanoğlu, Ziyafət Yəhya, Tərlan Əbilov, Elşad Səfərli, Məmməd Həbib, Mübariz Süleymanlı, Tofiq Həsənli, Əhməd Haqsevər, gənc Ziya Dilsuz (adlarını çəkmədiklərim üzrlü saysınlar) ilə bərabər, əsl mənada alovlu çıxış edir. Tədbirdə bölmənin sədri Qafar müəllim eynən həmin məclisə başçılıq etmiş Mirzə İsmayıl Qasir kimi dəyərli fikirlərini bölüşür . Qalan iştirakçılar da elə babaları Molla Ələkbər Aciz, Mirzə İsa Xəyali, Hüseynqulu Şuriş və başqaları kimi ürək sözlərini söyləyir, nəzirələr səsləndirir, ədəbi-fəlsəfi məsələlər ətrafında müzakirələr açırlar...

*Sənin eşqin mənə, yurdum, nə gözəl qiymətdir,*
*Birə-min var gətirər torpağına düşsə dənim.*

Ağamir Cavadın Füzuli sözünün işığında yazdığı bu misralar onun Vətən sevgisinin mayası sayıla bilər. Deyim ki, şairin bu yaxınlarda işıq üzü görmüş "Dəniz adam" adlı kitabında 12 qəzəli də yer alıb. Bunun özü onun klassik janra dəyər verdiyini və bu sahədə yetərincə bacarıqlı olduğunu göstərir. Məncə, dostum yaşının bu müdrikləşən, yetkin çağında qəzəl janrında bitkin şeirlər yazmağa daha çox meyillənsə, uğurlarını daha da möhkəmləndirər və poeziyamız da bundan qazanar. Əlbəttə, daha yaxşısını özü bilər, necə ki yazıb:

*Ən böyük usta qəzəlxan böyük Allah özüdür,*
*Ən böyük sevgi ilə yazdığı dastanı mənəm.*

Elə anlaşılmasın ki, Ağamir Cavadın əruzu onun hecada və sərbəstdə yazdığı şeirlərini kölgədə qoyur. Son kitabında "Ruhu bölünməyən Azərbaycanam", "Bir oxu kitabıyam", "Ədəbiyyat nəzəriyyəsi silsiləsi", "Tanrının eşq payı" başlıqları altında toplanmış qoşma, gəraylı və səkkizlikləri, həmçinin "Veravulçay nəğməsi" adlı sonet çələngi elə düşünməyə qətiyyən əsas vermir. Çünki:

*Sevinc ilə bir doğulur qəm, kədər,*
*Mizanında düz ölçülər hər qədər.*
*Ariflərlə haqqa doğru yol gedər,*
*İnamadır, imanadır bu kitab.*

Ağanın yazdıqları əsasən dünyanın, həyatın, imanın hikmətləri haqqındadır. Allaha şükranlıq nəğmələridir. "Bu yuxu ömrümə yozum ver, Allah" deyən şair mövluda, meraca, varlığa məna axtarır. Allaha sevginin gözəlliyini vəsf eyləyir. "Təndirinə çırpı daşı, sönməsin, Ocaq sönsə, yel sovuran kül yazıq" - deyir.

### Ömrü boyu haqqa, ədalətə, imana baş əyən şair

özü demişkən, həqiqətin önündə müntəzir duraraq, tərcümeyi-halını ayaq üstə yazıb. Eyni zamanda qəlbinin göylərdən əngin olduğunu iddia edərək, dünyaya sığmadığını söyləyir və bununla da ustad İmadəddin Nəsimiyə varislik qayəsini ortaya qoyur. Amma "Tanrı bizdən uzaqlaşır özümüzdən çıxanda" deməyi də unutmur.

Bu misralar isə ömrü bihudə yaşamağın fürsəti fövtə vermək olduğuna poetik bir işarə kimi diqqət çəkir:

*Tanrı səma verib bizə uçmağa,*
*Biz göydə kağızdan quş uçurduruq...*

Ağamir Cavadın sevgi şeirləri bir ayrı aləmdir. Bu şeirlərin baş qəhrəmanı elə Cavad adının mənasını doğruldan comərd bir insandır.

Eşq yolunda kirpiyi ilə od götürüb sözə ehya verən şair sevgilisini unuda bilmir, amma acizlik də göstərmir, mərdanəliyini, qürurunu qoruyub saxlaya bilir:

*Ömrün yollarını bürüyəndə çən*
*Sevda dənizində boğdum ahımı.*
*Tanrının hökmüylə oxuyuram mən*
*Bitib-tükənməyən "Çahargah"ımı.*

### Ağanın poetik "Çahargah"ı

bir özgə dəstgahdır. Bəmi, zili, çoxsaylı şöbə və guşələri ruh oxşayır. Bərdaştı, ma-




yəsi, bəstə-nigarı, hasarı, müxalifi, məğlubu, mənsuriyyəsi sevgi, dözüm ifadə edir. Hər tarzən biləyinin gücünə, barmaqlarının itiliyinə, ifaçılıq üslubuna görə "Çahargah"ı tamam-dəstgah çala bilmir. Ağamirsə mizrab-qələmi və ürək odu sayəsində bunu yaxşı bacarır. Onun "Çahargah"ında yalvarış, sızıltı və inilti motivləri yox dərəcəsindədir.

Şairin "Dəniz adam" kitabında vətənpərvərlik pafosu ilə yazılmış şeirlər xüsusi yer tutur.

Bu da təbiidir. İllərcə Qarabağ dərdini qələmə alan şair qalibiyyətlə başa çatan 44 günlük Vətən müharibəsinin qəhrəmanlarını sevə-sevə vəsf edib, "ölümün xasını qazanmış" şəhidlərin ruhuna əbədi ehtiramımızı geniş qəlblə etirafda bulunub. Müzəffər Ali Baş Komandan, böyük sərkərdə İlham Əliyevin həmin vaxt etdiyi müjdəli çıxışlarının birində "Şuşaya bir nəfəs qədər yaxınıq" deməsi özünün obrazlılığı ilə şairi cəzb edib və o, bu fikri leytmotiv kimi götürərək araya gözəl bir şeir gətirib:

*Ən odlu gilizdir sözün qurşunu,*
*Sən açdın həsrətin hərb qırışını.*
*Sevirik bu yurdun hər qarışını,*
*Zəfər xəbərini verən kəs qədər,*
*Yaxınıq Şuşaya bir nəfəs qədər!*

Şəhid Vüsal Kazımovun atası Kamran kişi deyib ki, oğlunun ona bağışladığı və çox yaxşı işləyən saat onun cənazəsi həyətdən çıxanda dayanmışdı. Ağamir Cavad bunu eşidincə hər kəsə xas olan adi bir kövrəlmə ilə kifayətlənməyib və isti-isti bu barədə gözəl şeir yazıb:

*Açır haqq qapısın eşqin əliylə,*
*Ölümün üzünə gülən şəhidlər.*
*Zamanı saxlayır ölümləriylə*
*Vətənin uğrunda ölən şəhidlər.*

Bəli, sanki Vüsalın ölümünə görə saat da heyrətdən quruyub qalıb. Sanki ona da Əzrayılın nəfəsi dəyib... Şəhidlik elə uca zirvədir ki, orda saat işləmir. Çünki şəhidlər əbədi həyat qazananlardır.

Ağamir Cavad Lənkəranın Veravul kəndində anadan olub. Mənbəyini Talış dağlarının Burovar silsiləsindən götürən çayın da adı Veravuldir. Toponimikasına görə bu ad "söyüd və gül", eləcə də "bol sulu çay" mənasını verir.

Hər iki versiya poetikdir. Elə Ağamir də Veravula bənzəyir: söyüdü pərişan telli qız bilir, gülləri behişt sakinləri sayır, özünün də ki, gur ilhamı, çağlar təbi var.

Özü demişkən, sözün niqabını qaldırıb,üzündən öpən şair qondarma təsirlərə uymadan, ilğımlara aldanmadan haqqa yürüməyindədir.

*Hərcayı nəğmələr ötmədi könlüm,*
*Sevgisiz bir yerdə bitmədi könlüm.*
*Hər səsin dalınca getmədi könlüm,*
*Göydən eşitdiyi ünə bağlandı.*

### ... Bir neçə ay əvvəl

Astaraya getdiyimdə Ağamir Cavadı da özümlə apardım. Orada elə onun özü kimi gözəl şairimiz Şahverən Cavadla görüşdük. Onları başbaşa buraxıb jurnalist yazı-pozumun dalınca getdim. Qayıdanda mənə dedi: "İki Cavadı görüşdürməklə savab qazandın, qardaş!" Mən də cavabında: "Sizi bir-birinizə mən yox, şairlik qanı çəkib, Ağa!" - deyə bildirdim.

Şahidəm ki, ünsiyyətcil adam olan Ağamir Cavad dəyərli qələmdaşları, dərddaşları, eşqdaşları ilə birlikdə olanda özünü suda balıq kimi hiss edir. Yeri gəlmişkən deyim ki, bir dəfə də o, Mübariz Süleymanlı və mən Masallıya, gözəl şair Nurməmməd Ağanın görüşünə getmişdik. O qədər maraqlı söhbətlər oldu, o qədər gözəl şeirlər söyləndi ki, süfrədəki təamlar az qaldı yaddan çıxa.

Bax, Ağamir Cavad belə bir məcliskar dostdur, belə bir dostcanlı insandır, belə bir qənimət yoldaşdır! Yaradıcı ziyalılığı da öz yerində! İnanıram ki, onun 60 illik yubileyi də, Allah qoysa, Lənkəranda və Bakıda layıqıncə keçəcək!

**Sonda əlavə edim ki, ədəbi tənqid Ağamir Cavad yaradıcılığının özəlliklərini daha sanbalı şəkildə araşdırmalı, örnək nəticələr çıxarmalıdır. Veravul çayı çapa-çapa gəlib Xəzərə qovuşduğu kimi, Ağamir Cavad və onun qələm avarı ilə irəliləyən sevgi qayığı da çağdaş ədəbiyyat tariximizə qovuşmağa layiqdir.**

Əli NƏCƏFXANLI

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# AZAD OLUNMUŞ BÜTÜN TORPAQLARDA HƏYAT BƏRPA OLUNACAQ

***"Bəli biz qayıtdıq! Şuşa indi azaddır! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq!***

***2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq! Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu böyük bir qələbədir və şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözün aydın olsun, dünya Azərbaycanlıları!***

***Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"***

***(İlham Əliyev)***

Beş minillik dövlətçilik tariximizdə çoxsaylı tarixi sınaqlarla qarşılaşmışıq. İşğala məruz qalmışıq, böyük imperiyaların maraq dairəsinin toqquşmasında maraq obyekti kimi misilsiz əzab-əziyyətlər görmüşük. Lakin heç birində tarixi səhnədən silinməni qəbul etməyərək praqmatik addımlar ataraq varlığımızı qoruyub bu günlərə gəlib çatmışıq. Hər bir dövrdə xalqımızın içərisindən çıxmış liderlər tarixdəki varlığımızı bəyan etdirməklə yanaşı, gələcək nəsillərə ən azından, yaddaş mirası, buraxmışdır. Erkən orta əsrlərdən bu günə nəzər yetirdikdə görürük ki, bu ənənə dinamik şəkildə nəsildən nəsilə keçmişdir. Alban hökmdarı Cavanşirin mirasına Babək sahibləndi. Babəkin mirasını Şəmsəddin Eldəniz, Uzun Həsən, Qara Yusif, Cahan Şah, Şah İsmayıl Səfəvi, I Şah Abbas, Nadir Şah, Cavad Xan, Məmməd Əmin Rəsulzadə kimi sələflərimiz min bir əzabla özündən sonrakı nəsillərə çatdırmışlar. Ötən əsrin əvvəlində deyilmiş "Bir kərə yüksələn bayraq bir daha enməz" şüarı əsrin sonunda və yeni əsrin başlanğıcında dünya şöhrətli siyasətçi, dövlət xadimi, xalqımızın Ulu Öndəri Heydər Əliyev tərəfindən praktiki reallığa çevrildi. Bütün dünya Azərbaycan dövlətinin varlığını siyasi və hüquqi cəhətdən tanıdı. Bu balansı daha da inkişaf etdirən Ali Baş Komandan cənab İlham Əliyev yeni bir eranın başlanğıcın qoydu. Azərbaycan reallığını, Dəmir Yumruq siyasəti ilə beynəlxalq aləmə qəbul etdirdi. Altı ilə düşmənin işğal etdiyi ata yurdumuz olan tarixi torpaqlarımızı 44 günə azad etdik. Xalq-Ordu-Hakimiyyət vəhdəti bir yumruq kimi düşmənin mənfur başını əzdi. Azərbaycan xalqı müdrik xalqdır, hər zaman görkəmli sərkərdələr, görkəmli dövlət xadimləri və xalqı arxasınca qələbəyə apara bilən liderlər yetişdirmişdir. Bəşəriyyət yaranandan bu günə qədər hər bir toplum, cəmiyyət, xalq və dövlət üçün onun liderinin kim olması çox vacib amil olub. Bəşəriyyətin dünyaya bəxş etdiyi az sayda liderlər vardır ki, tarixdə onların bənzəri olmur, onlar insanlığın zirvəsinə çevrilir, xalqının sevimlisi, istinad mənbəyi olur, bütün ictimai və siyasi fəaliyyətini onun xoşbəxt gələcəyi naminə qurur, bir sözlə, insanlıq tarixində əbədiyaşarlıq qazanırlar. Bu gün hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı arxasında ümummilli liderimiz Heydər Əliyevin yetirməsi, onun yaratdığı siyasi məktəbin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev dayanır. Hələ 2003-cü ildə dövlət başçısı kimi səlahiyyətlərinin icrasına başlayarkən "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab prezident çox qısa zamanda sözünün həqiqiliyini sübut etdi. Nəticədə, Azərbaycan xalqı hal-hazırda tarixinin ən əlamətdar günlərini yaşayır. Azərbaycan xalqı bu gün yaxın keçmişindəki qara səhifələri ilə vidalaşaraq gələcəyimiz üçün yeni tarix yazır.



Təbii ki, 44 günlük müharibədə qalib gəlmək heç də asan məsələ deyildi. Amma cənab prezidentin xalqla birlikdə nümayiş etdirdiyi Dəmir yumruq nəticəsində biz bu günlər işğaldan azad olunan ərazilərin yenidən bərpasının şahidi oluruq. Hərbi əməliyyatların bitməsindən sonra Prezident İlham Əliyevin mütəmadi olaraq işğaldan azad edilmiş rayonlara səfər etməsi dövlət başçısının bu məsələlərə nə dərəcədə həssas yanaşdığının sübutudur.

17 oktyabrda Füzulinin işğaldan azad olunmasının birinci ildönümünü məhz Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə qeyd edən cənab Prezident Füzulinin işğaldan azad olunmasının əhəmiyyətindən, Azərbaycan Silahlı Qüvvələrinin öz tarixi missiyasını layiqincə yerinə yetirməsindən, düşmənin 30 il ərzində törətdiyi vəhşilikdən söz açıb.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Çünki digər rayonlara da yol açıldı, qələbələr ard-arda gəldi. Xalq-dövlət birliyi bütün dünyaya nəyə qadir olduğumuzu göstərdi. Cənab prezident nəinki tarixi torpaqlarımızın bütövlüyünü bərpa etdi, eyni zamanda qısa vaxt ərzində dərin zəkası, uzaqgörən siyasəti nəticəsində onların müasir dövrə uyğun bərpasına nail olur.

Beləliklə, Prezident İlham Əliyevin başçılığı ilə bölgədə yeni prosesləri seyr etməkdəyik. Erməni işğalçıları torpaqlarımızdan qovulub, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə start verilib. Artıq 2021-ci il dövlət büdcəsində işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatı da yaradılıb. İlkin rəqəmlərə görə işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün 2,2 milyard manat nəzərdə tutulub.

Azərbaycan rəhbərinin siyasi iradəsi, verdiyi vədlərlə əməllərinin vəhdəti belə deməyə əsas verir ki, çox keçməyəcək, işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq, bu ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş məskənlərindən birinə çevriləcək. Bu gün Füzuli rayonunun inkişafı ilə bağlı böyük işlərin şahidi oluruq. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər aparılmışdır. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni, Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılıb. Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra yaxşı evlər tikiləcəyini, daha gözəl şərait yaradılacağını qeyd edən prezidentin əməllərinin artıq nəticəsini görə bilirik. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm də potensialımızı göstərir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır. Bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir. Füzulidən Şuşaya elektrik xətləri çəkilib. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur.

Bütün bunlar göstərir ki, məcburi köçkünlər tez bir zamanda öz doğma yurdlarına qayıda biləcəklər. İşğaldan azad olunmuş rayon və kəndlərdə həyat qaynayır. Bərpa işlərində həvəslə iştirak edən mütəxəssislər, müxtəlif peşə sahibləri doğma torpaqlarına qayıdacağı günlərin həsrəti ilə yaşayan insanları daha tez sevindirmək üçün yorulmadan çalışır, vurulan yaraları sağaltmaq üçün ana torpağa övlad qayğısı ilə yanaşırlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli və Xocavənd rayonlarına səfərləri zamanı ölkə rəhbəri işğaldan azad olunmuş ərazilərdə çoxsaylı infrastruktur layihələrin həyata keçiriləcəyi, genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılacağını bildirmişdir.

İlk növbədə ermənilər tərəfindən viran qoyulmuş ərazilərdə həyatın yenidən dirçəlməsi üçün əsas şərt olan elektrik enerjisi ilə təchizatın vacibliyi nəzərə alınaraq bu istiqamətdə planlaşdırılan işlərə start verilib.

Qarabağın incisi olan Şuşanı elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlar atıldı. Mədəniyyət paytaxtımızı və bölgəyə yaxın əraziləri dayanıqlı enerji ilə təmin etmək üçün "Azərenerji"" Səhmdar Cəmiyyəti Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir və yüksəkgərginlikli xətlərin çəkilişinə başlanılıb. Laçın rayonunun Güləbird kəndində generasiya gücü 8 meqavat olan Su Elektrik Stansiyasının açılması ilə bölgədə etibarlı generasiya gücələrinin formalaşması, Həkəri çayından səmərəli istifadə imkanları yaranır. Ümumiyyətlə, Kəlbəcər-Laçın zonası su elektrik stansiyaları üçün əlverişli olduğundan bu ərazilərdə enerji ilə təchizat məsələsinə diqqət artırılır. Düşmənin təkcə Laçında dağıtdığı 5, Kəlbəcərdə 12 su elektrik stansiyası yenidən qurulacaq və ümumi gücün həcmi 120 meqavata çatdırılacaq. Ən böyük potensiala malik "Xudafərin" və "Qız qalası" stansiyalarının istismarı ilə bölgənin enerjiyə tələbatı tam ödəniləcək. Bərpaolunan enerji növlərindən istifadə etməklə ilk olaraq Zəngilanda həyata keçirilən pilot "ağıllı kənd" layihələrinin tətbiqi ilə "yaşıl enerji" zonalarının sayı artırılır.

Artıq təməli qoyulan Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun çəkilişi işğaldan azad olunmuş torpaqların iqtisadi, sosial inkişafını xeyli sürətləndirəcək. Bu yol istifadəyə verildikdən sonra uzun illərdən bəri blokadada qalan Naxçıvan Muxtar Respublikası ilə əlaqələr bərpa olunacaq. Tarixdə ilk dəfə Azərbaycanla Türkiyəni birləşdirəcək bu yol bölgə dövlətlərinin iqtisadi inkişafına, regionda sabitliyin qorunmasına ən önəmli töhfədir. Kənd təsərrüfatının inkişafı üçün əlverişli mühitə malik Qarabağ zonasında aqrar sahənin dirçəlməsi əhalinin ərzaq təhlükəsizliyinin təminatı baxımından daha önəmli olmaqla dövlətin diqqətdə saxladığı əsas prioritetlərdəndir. Qısa müddətdə minalardan təmizlənmiş 7 min hektarda əkin işləri aparılmışdır. Bütünlükdə isə mövsüm ərzində işğaldan azad olunmuş torpaqlarda təqribən 20-25 min hektar sahədə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi nəzərdə tutulur. Bununla yanaşı Prezident İlham Əliyev Füzuli və Xocavəndə səfərləri zamanı şəhər və kəndlərimizdə gördüyü ürəkağrıdan mənzərədən narahatlığını da diqqətə çatdırdı. Ağdam kimi Füzulinin də tamamilə dağıdılmasını, tarixi abidələrimizin viran qoyulmasını inkarolunmaz erməni vəhşiliyi adlandıran dövlət başçımızın vurğuladığı kimi 10-dan artıq su elektrik satnsiyasının, 67-yə yaxın məscidin, yol-nəqliyyat infrastrukturunun, su mənbələrinin dağıdılması erməniliyin mahiyyətini göstərir. Bölgədə həyatın yenidən, yüksək səviyyədə davamı üçün bütün infrastruktur müasir tələblərə uyğun yenilənməli, dağıdılan evlər, sosial obyektlər müasir səviyyədə inşa olunmalıdır. Görülən bütün işlərin bir məqsədi var: məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına qaytarılması.

Beləliklə, azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. İşğaldan azad olunmuş ərazilərdə icra olunan layihələr Azərbaycanın potensialının göstəricisidir.

**Yekunda qeyd etmək istəyirəm ki, heç bir ölkənin rəhbəri öz çıxışında "Mən hər bir vətəndaşımın xidmətində duran prezidentəm" ifadəsini işlətməyib. Prezidentimizin bu ifadələri şəhidlərimiz üçün axan göz yaşlarında, Cıdır düzündəki sevinc göz yaşlarında özünü praktiki olaraq bir daha nümayiş etdirdi. Bu günümüz, gələcəyimiz əmin və polad kimi möhkəm əllərdədir.**


**Kərim Novruzov,**
**Ağdam rayon 95 saylı tam orta məktəbin direktoru**



AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# RUH ADAMI VƏ YA NİZAMİ GÖYDƏRƏLİNİN 65 YAŞINA SÖZ ÖNÜ

**Min illərin yaxasından damla-damla süzülərək gələn sözün sehri haqqında dahilər zaman-zaman öz dahiyanə fikirlərini söyləmişlər. Mövlanə Məhəmməd Füzuli sözün qüdrətini "Xazini-gəncineyi-əsrardır, hərdəm çəkər, Riştəyi-izharə min-min gövhəri-əsrar söz", - deyərək izah edir. Yəni, "Söz sirlər xəzinəsinin xəzinədarıdır, qoruyucusudur. Hər zaman sirli gövhərlərini sapa düzüb aşkar edər", - deyir böyük söz ustadı.**



65 illik ömrünün ən azı 45 ilini sözün qüdrətinə sığınaraq sözün kölgəsində yol gələn ruh adamı Nizami Göydərəli də hər zaman ali sözə hörmətlə yanaşmış, sözünün qədərini bilmiş, sözə mehrini salmış şairlərdəndir.

Nizami Göydərəlinin bütün şeirlərində onun şair qəlbinin həssas olduğunu görmək mümkündür. O, sözü heç vaxt hayqıraraq ifadə etmir. Fikirlərini oxucusuna sakit səslə ifadə edərək çatdırmağı bacarır. Bu da onun ruh adamı olduğunun bariz nümunəsidir. Bu günlərdə şairin 65 yaşı tamam olur. 65 illik ömür yolunda şair incə ruhlu şeirləri ilə oxucularının qəlbinə yol tapa bilmişdir. Bir yaradıcı insan üçün bu həyatda ən böyük xoşbəxtlik özünü oxucularına sevdirə bilməkdir, məncə. Nizami Göydərəli bu xoşbəxtliyi qazana bilən şairlərdəndir.

Şairin 65 yaşını təbrik edir, ona bərəkətli ömür arzulayıram. İnanıram ki, bundan sonra da Nizami Göydərəli yeni-yeni poetik misraları ilə oxucularının görüşünə gələcək.

Sonda Nizami Göydərəlinin öz 65 yaşına yazdığı şeiri oxuculara təqdim edirik. Buyurun, oxuyun!


**Hörmətlə:**
**Xalid Mahmud**


## 65 YAŞIMA

*Heç bilmirəm haçan gəldim,*
*hardan gəldim, necə gəldim,*
*gündüz gəldim, gecə gəldim,*
*deyim bir az təngimisən,*
*bəlkə qaça-qaça gəldin?!*
*Bəlkə bir az tələsmisən,*
*bəlkə bir az ləngimisən?!*
*Yollar, boran-qar görmüsən.*
*Demirəm ki, beca gəldin,*
*yaman gəldin, necə gəldin?!*
*Daha durub gəlmisən də...*
*Xoş gəmisən, 65!*
*Yolda qoydun uşaqlığı,*
*yolda qoydun cavanlığı.*
*Məhəbbəti, sevgini də yoda qoydun.*
*Hər saatı, hər günü də yoda qoydun.*
*Baxım, görüm xurcunumda daha nə var.*
*Ağ saçları gətirmisən,*
*qaraları itirmisən.*
*Gözlərimin işığı hanı,*
*boyumun yaraşığı hanı,*
*hanı şaqraq gülüşlərim,*
*hanı iti yerişlərim,*
*hanı iti baxışlarım?!*
*Sinədə dağlar gətirdin,*
*şairi ağlar gətirdin,*
*darıxan çağlar gətirdin,*
*dada durub gəlmisən də...*
*Xoş gəmisən, 65!*
*Ağacda yatdığım hanı,*
*göyə daş atdığım hanı,*
*mənim cavan çağım hanı?!*
*Qocalığım,*
*qovladığım quşlar, böcəklər,*
*mənsiz qalıb öləcəklər,*
*ya da baxıb güləcəklər.*
*Çox şeyləri itirmisən,*
*ağrı-acı gətirmisən.*
*Yaman gəldin, necə gəldin?!*
*Deyən qaça-qaça gəldin.*
*Daha durub gəlmisən də...*
*Xoş gəmisən, 65!*
*Hanı dəvə kimi dostlar,*
*hara getdi, harda itdi?!*
*Nə yaxşı var nəvə dostlar,*
*işığına qızınıram.*
*İtənləri qazanıram, gülüşümü,*
*yerişimi qaytarırlar.*
*Hərdən məni yamsılayıb*
*vərdişimi qaytarırlar.*
*Allah bir yandan alanda,*
*bir yandan verir, -deyirlər.*
*Xurcunundа daha nə var, 65!*
*Nə yaxşı ki,*
*nəvələrin, dəvələrin əvəzinə*
*davamçılar gətirmisən,*
*Vətənə əsgər verməyə*
*idmançılar gətirmisən.*
*Şükür sənin xurcununa,*
*içində çox şey var imiş.*
*İndi bildim boş deyilsən,*
*Xoş gəmisən, 65!*
*Xoş gəmisən, 65!*
*Bir də nə vaxt gələcəksən,*
*bir də neçədə gələrsən?!*
*Qapıları açıq qoyum,*
*gəlişinə yaraşıq qoyum,*
*qarşına çıxım kişi tək.*
*Oturaq bir süfrə açaq,*
*səninçün xatirə bişirim,*
*yeyək doyunca danışaq.*
*Pisləri zibil qabına,*
*yaxşıları önə qoyaq.*
*Nə yaxşı ki, boş gəlmədin,*
*xoş gldin, 65 yaş!*
*Xoş gəmisən, 65!*



*YƏHYA PAŞAZADƏ*

## Yenə möhtac elə sevgiyə məni...

Elə istərəm ki,ayrılıq çəkim,
Səndən öyrənmişəm sirrini də mən.
Götür kəlmələrin ən ağırını,
Birini sən denən, birini də mən...

Birini sən denən,mən də birini,
Həsrətin abrını hörək,ayrılaq.
Bir az da tanınaq günahkar kimi,
Gedib cəhənnəmi görək,ayrılaq.

Sən də təvəqqe et ayrılıq üçün,
Mən də əllərimi vurub,yalvarım.
Sonra da Tanrıya bağışlanmağı.
Səninlə birlikdə durub,yalvarım...

Sənə küs, demirəm,barış ,demirəm,
Demirəm tək qoydun bəs niyə məni,
Nolar uzaqda qal,kənarda dolan,
Yenə möhtac elə sevgiyə məni...

## Adamları...

Nədənsə həyatda qəbul etmədim,
Sevmədim heç zaman qul adamları...
Bir başda papaqtək duran görmədim
Ayaqlar altında çul adamları...

Cəbr edən adını xeyrə yazdırdı,
Hökm edən hər səmtə quyu qazdırdı...
Əyrilik düzdə də tamam azdırdı
Gözləri yer seçməz hul adamları.

Çoxunun ruhuna it hürdü,getdi,
Çoxusu ömrünə tüpürdü,getdi...
Zəmanə biryolluq süpürdü,qetdi,
Əzəldən taledən dul adamları...

Saf qəlbi eşdilər, qurdaladılar,
Düz sözü təkləyib, daldaladılar...
Qəpiktək təkbətək xlrdaladılar
Şöhrəti,hörməti pul adamları...

Nədənsə həyatda qəbul etmədim,
Sevmədim heç zaman qul adamları.
Bir başda papaqtək duran ğörmədim,
Ayaqlar altında çul adamları...

## Oxunmur

Görünən işıqdır,yoxsa,qaranlıq?..
Nə qədər baxırsan,qarşı oxunmur...
İrəli getməyə çəkinir zaman,
Səhərmi,gecəmi,yaxşı oxunmur...

Tələssən,nahaqdan kəsilər heyin,
Yeriyə bilməzsən əcəldən yeyin...
Ünvanı tapılan,bəxtin,taleyin
Yazısı pozulub,daşı oxunmur.

Mənzili qısadır uzun əllərin,
Binası tez uçur səhv təməllərini.
Nədənsə həmişə pis əməllərin
Ayağı oxunur,başı oxunmur...

Artıbdır sayı qəlb təlaşlarının,
Ağılla hisslərin savaşlarının...
Kim anlar dilini göz yaşlarının?
Gözlərin yaşları daşır, oxunmur.

Deyən yox ,günləri tamam xoş keçib,
Keçsə də,hamısı ancaq borc keçib...
Həyatda o qədər ömür boş keçib,
Məzarda çoxunun yaşı oxunmur...

## Gözünün yaşı qalmadı...

Şam kimi titrəmə əcəl yelindən,
Yarıldı bağrının başı qalmadı.
Bu qədər ağlama,ağlama,bəsdir,
Az ağla,ğözünün yaşı qalmadı...

Az ağla,qəmlənib,,kədərlənmə də,
Saçınla dərdlərə hörməyim səni.
Bir qədər yeyinlət addımlarını,
Bir daha ağlayan görməyim səni...

Çoxları bilinmir ağlayanda da,
Baxırsan ,çoxunun gözü ağlamır.
Səni ağladan var,adam balası,
Adam yıxılanda özü ağlamır...

Həmişə nədənsə tikan sayıram
Özgənin əlində gül olanları.
Arxadan atılan çamur görmüşəm,
Qarşımda bir ovuc kül olanları...

Ömürdən seçdiyin hər məqam keçməz,
İş elə tək ancaq ağlamaq olmur.
Həyatda açılan çox qapıları
Tək sənin adınla bağlamaq olmur...

Yaxşısı budur ki, kədərlənmə heç ,
Saçınla dərdlərə hörməyim səni.
Bir qədər yeyinlət addımlarını,
Bir daha ağlayan görməyim səni...

## Dərk edə bilmədim...

Gözlərə yaş kimi dolub,gedirsən,
Həsrətə tez təslim olub, gedirsən,
Hər dəfə açmamış solub,gedirsən,
Ömürdən bir gülsən,çiçəksən,həyat.

Odunu yandıran od sanmaq olmur,
Sevdikcə sevgindən usanmaq olmur...
Elə iş tutursan,utanmaq olmur,
Həmişə şübhəsən,bir şəksən,həyat.

Çox qaçdın,addımı bərk eləmədim,
Adına,sanına ərk eləmədim,
Mən səni heç zaman dərk eləmədim,
Bilmədim,nağılsan,gerçəksən, həyat

Demə ki, dərdlərdən dəryam,gölüm var,
Tanrıdan buyrulan tək haqq bölüm var.
Dünyada sən varsan,bir də ölüm var,
Düşünmə,yalnızsan, sən təksən,həyat.

Çətindir sən verən xoş günü sürmək,
Sevinib,sonra da durub hönkürmək...
Kiminə hazırca yumruqtək dürmək,
Kiminə görsənən dirsəksən,həyat...

## Nə gündədir!..

Ümidlər verilir hər dəfə yelə,
Arzular,istəklər tökülür selə...
Taleyi məchuldur göylərin belə,
Zaman nə gündədir, yer nə gündədir!

Dalana qısnanır yollar hərlənib,
İşləklər,,əməllər tamam vərlənib...
Noxta təzələnib,çul məxmərlənib,
Palan nə gündədir, xər nə gündədir!

Mətləblər olubdur indi çox dərin,
Sırası böyüyüb söyüdün,gərin.
Paxırı çıxıbdır daha zərgərin,
Gümüş nə gündədir ,zər nə gündədir!

Daşyonan külüngü düz çala bilmir,
Aşıq havalanır,saz çala bilmir,
Şair halva çalır,söz çala bilmir,
Sənət nə gündədir,şer nə gündədir!

Gözlərdən asılıb hələ də pərdə,
Ürəklər köklənir hər zülmə,dərdə.
Şöhrtdən başlanır xeyir də,şər də,
Xeyir nə gündədir,şər nə gündədir!..

## Çağlaya bilməz!

Taleyin əliylə açılan yolu
Nə duman,nə də çən bağlaya bilməz!
Zamanın sözündən qopar rüzigar,
Dəniz də iznsiz çağlaya bilməz!..

Tək yaşla yuyulmur yaradakı qan,
Tarixin hökmünü yaza bilir an...
Tanrının əmriylə çıxarsa bir can,
Min təbib,min loğman saxlaya bilməz!

Göylərə zülmətdən çətin tül olar,
Vədəsiz ocaqlar yanıb , kül olar...
Hər gülün bir dəfə ömrüü gül olar,
Xar,tikan bar tutub,tağlaya bilməz!

Həqiqət uzaqda dövr edə bilər,
Əzablar sinədə qövr edə bilər ...
Zalımlar zülm edə,cövr edə bilər,
Ürəklər bu qədər ağlaya bilməz!

Dünyaya sahib dur,sənindir,atam,
Kənarda dayanıb, demə ki,yadam.
Həyatı bircə yol haqlayar adam,
Sonradan bir daha haqlaya bilməz!

## Küləyin də heç vaxt belə əsməzdi

Qoca dünya,söylə,necə uçursan,
Qanadların,lələkləri hardandır?
Yer seçmisən göy üzündə haçandan,
Başındakı fələklərin hardandır?

Zamanları tez çıxardın səbirdən,
İşin aşdı ancaq zordan,cəbrdən...
Həqiqəti çox keçirdin xəlbirdən,
Bəs bu qədər ələklərin hardandır?

Sən deyildin,aləmə od yolduran,
Ümidləri qəfəslərə dolduran?
Ay gülləri beşiyində solduran,
Qoynundakı çiçəklərin hardandır?

Yollarının dalanına inandıq,
Səhv addımın qalanına inandıq,
Yalan dedin,yalanına inandıq,
Doğru sözün,gerçəklərin hardandır?

Məhvərindən günah tutdun, suç etdin,
Düz əməli əyənələrə tuş etdin...
Neçə-neçə ömürləri puç etdin,
Arzuların, diləklərin hardandır?

Tac-taxt oldun,zər libastək geyildin,
Aşkar-xəlvət loğmalanıb,yeyildin.
İnsanlarla sən ki, şərik deyildin,
Bəs iblisin,mələklərin hardandır?

Yağışların bol yağanda kəsməzdi,
Ulduzların buludları gəzməzdi...
Küləyin də heç vaxt belə əsməzdi,
İndi əsən küləklərin hardandır?

## Əlin salam götürmür...

Susduqca, dinmədikcə
Dilin kəlam götürmür.
Görüşəndə, elə bil,
Əlin salam götürmür...

Ürəyinə nə qədər
Dərd yığsan da, saxlamaz.
Gözlərin yaşlarını
Hey sıxsan da, saxlamaz.

Söz mülkünün çökməyi
Hələ süqut deyildir.
Özün də varlığın da
Mənə sübut deyildir.

Sənintək yoxdur döyən
Ümidin qapısını.
Yalvardıqca açırsan,
Çox bütün qapısını.

Ayaqla saf sevgini,
Ruh versin həzzlər sənə
Tək küfr söyləməklə
Kafər deməzlər sənə.

# "Vaxtı vaxtında ruhumuzu qidalandıraq ki..."

***Biz bu dəfə də bütün zamanların əsas mövzusu olan insan psixologiyasından danışacağıq. Müsahibimiz illərdir bu sahədə öz peşəkarlığı ilə fəaliyyət göstərən psixoloq Könül Həsənovadır.***

**- Öncə özünüz və fəaliyyətiniz barədə ümumi məlumat verməyinizi istərdim.**

- Mən Həsənova Könül Əbülfət qızı Azərbaycan Pedaqoji Universitetinin Psixologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. Qeyd edim ki, 2005 - ci ildən ilk fəaliyyətimə məktəb psixoloqu kimi başlamışam. Bundan sonra fəaliyyətimi Narınc psixologiya mərkəzində davam etdirmişəm. Hal - hazırda isə Primida psixoloji mərkəzdə fəaliyyətimi davam etdirirəm.

**- Bəzi adamlar psixoloqla psixiatrın işini fərqləndirə bilmir. Bu peşələr arasında fərqləri necə izah edərdiniz?**

- Sualınıza elmi aspektdən cavab verərərək bildirim ki, Psixiatriya ruh və sinir xəstəliklərinin diaqnozunu müəyyən edib, medikal müalicəsini həyata keçirir. Psixologiya isə ruh haqqında elm olub, var olan simptomları və ya təsdiqlənmiş diaqnozu psixoterapiya metodları ilə terapiya edir. Psixiatr tibb universitetindən məzun olduqdan sonra psixiatriya sahəsində uzmanlaşan tibb işçisidir. Uzmanlıq təhsilini bitirdikdən sonra əhval-ruhiyyə pozuntuları, psixotik pozuntular, həyəcan pozuntuları başda olmaqla psixiatrik xəstəliklərin diaqnozunu müəyyənləşdirmə və medikamentoz (dərman) müalicə etmə haqqına sahib olur.

Psixoloq isə dörd illik psixologiya təhsilini bitirərək psixologiya haqqında ümumi məlumatlara sahib olan və daha sonra təhsilini davam etdirərək psixologiya sahələrindən birini seçib ixtisaslaşacaq olan şəxsdir.

**- Məlumdur ki, psixi pozuntuların bir çox versiyaları mövcuddur.Yüngül və ağır psixi pozuntular nədir? Və onlar arasındakı fərqi nədir?**

- Adətən səhhətimizdə hər hansısa bir narahatlığımız olanda vaxtında müdaxilə etdiyimiz zaman bu xəstəliyin ağırlaşmamasının qarşısnı alırlar. Psixi pozuntular dediyimiz pozuntular birdən - birə ağır formada özünü göstərmir. Müəyyən problemlər var ki, onlar xırda narahatçılıq kimi üzə çıxır. Məsəl üçün - həyəcan , təşviş ola bilər. Obsessiv düşüncələr demək olar ki, bütün insanlarda var. Lakin bu getdikcə artıqca mütəxəssisə müraciət edilmədikdə obsessiv və kompulsiv pozuntulara çevrilir. Təcrübəmə güvənərək söyləyə bilərəm ki, mütəxəssisə vaxtında müraciət etmək lazımdır. Çünki bu hal sonra hansısa ciddi pozuntuya çevrilməsin.

**- İnsanların özünə qəsd etməsi halları da ciddi narahatlıq doğuran məsələlərdəndir. Sizcə intihara meyilli və ya intihar edən insanı "psixiatrik xəstə" adlandırmaq olarmı? Yaxud hər hansı normal adam da bir anın içində intihar vəziyyətinə gələ bilər?**



- Özünəqəsd - psixologiya elmində buna suisis deyilir. Hal - hazırda dövrümüzün qlobal problemlərindən biridir. Lakin biz buna psixiatrik xəstəlik deyə bilmərik. Çünki hal - hazırda özünəqəsdə bəzi insanlar adi məişət problemlərindən çıxıç yolu kimi baxırlar. Təcrübəmdə gördüklərimdən sizininlə bölüşmək istəyirəm. Misal üçün valideynləri tərəfindən abiturient edə biləcəyindən daha çox mənəvi cəhətdən yüklənib. Və valideynlərinə bu yükü daşıya bilmədiyini, qarşısına qoyulan öhdəliyi icra edə bilmədiyini deyə bilmir. Nəticədə özünə qəsd etməyi qərara alır. Yəni yalnız sırf psixi pozuntuları və psixiatrik xəstəliyi olanlar özünə qəsd etmir. Əfsuslar olsun ki, bəzi insanlar özünəqəsdi bir çıxış yolu kimi seçirlər. Bu bir psixiatrik problem deyil.

**- Təcrübənizə əsasən deyə bilərsinizmi, depresiyada olan insan öz-özünü müalicə edə bilərmi?**

- Əvvəlcə onu deyim ki, depressiya psixi pozuntudur. Və statistikaya görə hər 5 nəfərdən biri ömründə bir dəfə də olsun depressiv vəziyyətə düşür. İnsanlar bu vəziyyətə müxtəlif situasiyalara görə düşə bilir. Misal üçün işimizdən ayrılmağımız, sevgilimizdən ayrılmağımız bizi depressiyaya sala bilər. Depressiyanın iki əsas müalicə üsulu mövcuddur. Birinci dərmanla müalicə üsulu. İkinci isə psixo terapiya. Təbii ki, bu ikisi eyni zamanda aparılsa daha yaxşı nəticə əldə etmək olar. İnsanın özünün depressiyaya qalib gəlməsi əlbəttə ki, mümkündür.

Belə ki o insanlar depressiyaya düşdükərini vaxtında anlayıblar və doğru müdaxilə edərək həmin depressiv vəziyyətdən çıxıblar. Amma hər kəs bunu edə bilmir. Əgər biz özümüzü depressiv vəziyyətdən vaxtında çıxarda bilmədiyimizi hiss etdiyimiz zaman mütləq şəkildə peşəkar psixoloqa müraciət etməliyik.

**- Hər bir psixoloqun özünəməxsus müalicə metodları barədə bilirik. Bəs siz bu sahə üzrə mütəsəssis olaraq hansı psxioloji üsula üstünlük verirsiniz və bunun avantajları nələrdir?**

- Bəli psixologiyada müxtəlif metodlar var. Mənim ən çox istifadə etdiyim metodlar Pozitiv psixologiya, koqnitiv bihevioral terapiya və art terapiyadı. Bunlardan mütəmadi istifadə edirəm. Və yaxşı nəticələr əldə etmişəm. Lakin ən çox koqnitiv bihevioral terapiyadan istifadə edirəm. Bu terapiyaya niyə üstünlük verirəm?

Çünki insanlar daha çox duyğu, düşüncə və davranışları ilə formalaşırlar. Bir hadisə baş verirsə bu mütləq şəkildə bizim duyğularımıza təsir edir. Duyğularımı düşüncələrimizi formalaşdırır. Düşüncələrimiz isə özünü davranışlarımızda göstərir.

Bu terapiya növünə ona görə üstünlük verirəm ki, bununla məsələ kökündən tam həll olunmuş olur.

**- Sonda cəmiyyətimizə bir psixoloq kimi nə mesajınız var?**

- Bir psixoloq kimi qənaətim budur ki, sağlam ruhun sağlam bədəni olar. Bu günə qədər sağlam bədəndə sağlam ruh olar deyirdilərsə mən isə sağlam ruhun sağlam bədəni olar deyirəm. Vaxtı vaxtında ruhumuzu qidalandıraq ki, bədənimizin də sağlam qidalanmasının faydasını görək. Və hər birinizə sağlam ruh və sağlam bədən arzulayıram.

**- Könül xanım çox maraqlı müsahibəyə görə sizə təşəkkür edirəm. İşlərinizdə uğurlar arzu edirəm. Sağ olun!**

- Mən də sizə minnətdaram. Sağ olun!

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

## *Yusif Məhəmmədoğlunun "İsmayıllının Zəfər Şəhidləri" adlı kitabının təqdimatı olub*



**İsmayıllı Rayon İcra Hakimiyyətinin və İsmayıllı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev adına Mədəniyyət Mərkəzində yazıçı jurnalist Yusif Məhəmmədoğlunun "İsmayıllının Zəfər Şəhidləri" adlı kitabının təqdimat mərasimi keçirilib.**

Adalet.az Təqdimat mərasimində RİH-nin əməkdaşları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi və Şəhidlər Xiyabanı ziyarət olunaraq gül dəstələri qoyulub.

Daha sonra ərazilərimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən şəhid ailələri kitabın ərsəyə gəlməsində əməyə keçən hər kəsə minnətdarlıqlarını bildirib, "İsmayıllının Zəfər Şəhidləri" kitabının gələcək nəslin Vətənpərvərlik ruhunda böyüməsində əhəmiyyəti olduğunu vurğulayıblar.

Kitabın müəllifi Yusif Məhəmmədoğlu kitab haqqında məlumat verərək bildirib ki, "İsmayıllının Zəfər Şəhidləri" kitabında 44 günlük Vətən müharibəsində canlarını ölkəmizin ərazi bütövlüyü uğrunda fəda etmiş İsmayıllı şəhidlərindən, onların keçdiyi şərəfli döyüş yolundan və qəhrəmanlıqlarından bəhs edilib.

Tədbir "Niyal" instrumental ansambılının konsert proqramı və məktəblilərin ifasında vətənpərvərlik mövzusunda şeirlərlə davam edib.

# "EMİN PİRİNİN ƏSƏRLƏRİNDƏ ANA OBRAZI" VƏ YA "BİR ANANIN ƏSƏRİ"

### *"Bir ananın əsəri - Emin Piri"*

**Şair, jurnalist, müəllim və 2-ci Vətən müharibəsi iştirakçısı Emin Piri, müasir Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilən uğurlu imzalarındandır. Şairin yaradıcılığı haqqında ədəbiyyatçılar, tənqidçilər yetərincə dolğun fikir söyləmiş, məqalələr yazmışlar. Təkrarçılıq olmasın deyə onların toxunduqları mövzular haqda yazmamağa çalışdım. Bir oxucu kimi öz müşahidəmi, təəssüratımı qələmə almaq istədim.**

Emin Pirini təxminən yeddi il əvvəl bir tədbirdə görmüşdüm. Sakit təbiətli, müşahidəçi, həyalı bir görkəmi var idi. Demək olar ki, heçnə danışmadı. (hərçənd ki, dostları onun çoxdanışan, ünsiyyətcil olduğunu deyirlər) Sonuncu dəfə isə təxminən bir ay əvvəl şairlə Sumqayıtda təşkil olunmuş tədbirdə görmüşdüm. Eyni susqunluq, eyni həyalı, təmkinli sima. Müəyyən qədər geniş sosial çevrəsi olan Emin Piri simasındakı saflığı necə qoruya bilmişdi? Axı peşələrin insanın xarakterinə və şəxsiyyətinə müəyyən qədər sirayət etdiyini bilirik. Kim idi, nə idi Emin Pirinin sirri?

Şairin qələmini "Mən qütb soyuğuyam" şeiri ilə sevmişəm.

*"Məndən baş çıxara bilmir*
*Öz doğmaca anam belə*
*Sənə də qəribə gəlir*
*Nə təhər insanam belə"*

Burada şair anasının onun haqqında olan təəssüratından söhbət açaraq şeirdə insan xislətinin dəyişməyəcəyini vurğulayır.

Daha sonra bir məktəblinin dilindən təbəqələşmənin ağrı - acısını söyləyən, ən böyük dəstəkçisinin anası olduğunu vurğulayan, sosial mesaj ötürən" Üç alma" şeirində şair yazır :

*Kişilər ağlamaz deyən anam*
*yerimə özü ağlardı.*
*Nağıl söyləyərdi,*
*göydən üç alma*
*düşməzdi nağıllarda*
*deməzdi bunu anam -*
*birdən ürəyimiz alma*
*istəyər...*

Şairin 44 günlük Vətən müharibəsindən sonra qələmə aldığı "Sən azadsan" şeirinin ilk misralarına baxaq (şair xatirələrindən birində cəbhəyə yollanmamışdan əvvəl anasının onun saçına xına qoyduğunu yazır, bu inancla ana oğlunun sağ salamat geri dönəcəyinə ümid edir) :

*Saçımda anamın xınası,*
*yolların ayaqlarımçün duası,*
*gözlərimdə hələ bizim olmayan*
*uzaqlıq*
*deyir :*
*Sən azadsan*

* * *

*Günlərdir danışmırıq*
*bilirəm, narahatsan, ana.*

Vətəni uğrunda ölümlə göz gözə, nəfəs nəfəsə dayanan şair, ölümdən qorxmur, özünü yox, anasını düşünür, onun nigarançılığına üzülür.

Bundan başqa "Mələklərə atılan mərmilər", "Sağ qalan varmı?!. " (maraqlıdır ki, şair burda ana obrazı olaraq əsgər anasını yox, əsgərin sevgilisinin anasını göstərir, əsgərə məktub yazan qızın anası öz balası üçün narahat olur,



gecə niyə yatmadığının səbəbini soruşur. Atalar əbəs yerə deməyib ki, ağlarsa anam ağlar, gerisi yalan ağlar.), "Ayağım özümdən qeyrətli çıxdı", "Atəşkəs", "Allahın zarafatı" şeirlərinin hamısında ana obrazı var.

Şeirlərinin birində Allahı sevməyə qorxduğunu deyən şair digər bir şeirində Allahı Tanrıya əmanət edir. "Tanrı Səni qorusun, Allah! " deyir. Burada İslam dinindən çox-çox əvvəl Türklərin sitayiş etdiyi Tanrıçılığın (Tengrinin) izlərini görürəm. Və nəzərə alsaq ki, qadın - ana İslamla müqayisədə Tengriçilikdə daha qutsaldır, yəni Tengridə matriarxal düşüncə tərzi, islamda isə patriarxal düşüncə ön plandadır. (bu islam hüququnun miras bölgüsündə daha aydın görünür)! Şairin anaya olan ülvi məhəbbətinin, sevgisinin Tanrıçılıqdan qaynaqlandığını düşünə bilərik.

Maraqlıdır ki, ata obrazına şairin yalnız bir şeirində və ilk, hələki həm də tək hekayəsi olan "Əyyaş ata" da rast gəlmişəm. "Dünyanın ən təmiz yalanı" şeirində şair deyir :

*Yağma qar,*
*yağma*
*əlcəyim olmasa da*
*əllərim üşümür mənim*
*atamın*
*"daha yeddi yaşın var*
*böyük kişisən*
*heç kişi də əlcək taxar?!"*
*sözləri üşüdür məni.*

(Burda yeddi rəqəmi də təsadüfi deyil, belə ki, psixoloqlar insanın formalaşmasının ilkin və əsas mərhələsini 0-7 yaş aralığında götürürlər. Və insan yeddisində nədirsə yetmişində də odur məsəli burdan qaynaqlanır.)

Sosial problemlərin ağuşunda çarəsiz qalan atanın məsum yalanı obrazın ruhunu üşüdür. O atasını anlayır, amma anası ilə dostlaşır. Çünki ana obrazı ona heç yalanın məsum olanını da danışmır, sadəcə dəstək olur, aralarında güvəndən, inamdan yaranan möhkəm bir bağ var. Və yenə əvvəl də qeyd etdiyim kimi "Əyyaş ata" hekayəsində daha bir ata obrazı var, əyyaş ata içki ala bilmək üçün qəhrəmanın anasını döyüb, zorla nişan üzüyünü əlindən alanda qadın qayıdır ki, "heç olmasa uşaqlara da nəsə al", biz bu səhnədə də qadınlığını analığına, övladlarına qurban vermiş fədakar, cəfakeş ana obrazı görürük.

Şairin qadını qınaq obyektinə çevirməsini isə "Abort stolunda yalvaran körpə" şeirində görürük, şair burada qadını ana olmaq istəmədiyi üçün, bətnindəki körpəyə qıydığı üçün qınayır. Və bundan da bir daha aydın olur ki, şairin əsas obrazlarından biri fədakar, cəfakeş ana obrazıdır.

Daha maraqlı bir məqam da odur ki, səngərdə komandir Piriyevin hədəfi düşmən cəbhəsi, düşmən əsgəri olsa da, şair Emin Piri Allahla haqq hesab çəkir, (atalar yaxşı deyib ki, uman yerdən küsərlər) .

Hərbi xidmətdə olduğu dövrdə canlı şahidi olduğu bir səhnəni qələmə aldığı "Sağ qalan varmı?!" şeirində fevral şaxtasında üşüyən güllə isinmək üçün əsgər sinəsi axtarır. 44 günlük Vətən müharibəsindən sonra qələmə aldığı "O na məktub" şeirində isə "ürəyi istidən sıxılan bir düşmən mərmisi mayorumuzun ürəyində sərinlədi " deyir . Bu humanizm də onun şeirlərini bəşəriləşdirir.

**Bu yaxınlarda şair sosial şəbəkələrdən birində uşaqlıq xatirələrindən birini paylaşaraq yazır : "Anam mənə toplama - çıxmanı fındıqla öyrətmişdi. Ən çox sevdiyim çıxma əməli idi. Məsələn, on fındıq qoyurdu, deyirdi birini ye, neçəsi qaldı? Mən də birini yeyirdim, qalanlarını sayırdım. Beləcə öyrənirdim. Anama deyirdim ki, üstəgəllərdən sual vermə, ancaq çıxmalardan soruş. Həyatda da çox şey belədir" yazır. Mən bu sətirləri oxuyanda həm də türkcədə oğlumun ev tapşırığını yazdırırdım. Tapşırıq Atatürk haqqında verilmiş mətnlə bağlı sualları cavablandırmaq idi. Mətndə yazılmışdı ki, balaca Mustafa (M. K. Atatürk nəzərdə tutulur) atasının ölümündən sonra anası və bacası ilə birgə dayısının fermasına köçür və orda tarlada gözətçi olur, təhsildən uzaq düşür, bu vəziyyətə anası Zübeydə xanımın ürəyi dözmür, Mustafanın təhsil alması üçün bütün çətinliklərə baxmayaraq Selanikə geri dönür və beləliklə M. K. Atatürk təhsilinə davam edir. Elə həmin məqamda mən Emin Pirinin təmkinli görkəminin, həyalı simasının sirrini çözmüş oldum. Bu sirr kim idi? Ana idi. Şairin ilk müəllimi olmuş anası idi. Bu sirr nə idi? Zamanında verilmiş doğru, düzgün tərbiyə, təhsil idi. Emin Piri - möhtəşəm bir ananın əsəridir. Vətən anadan başlayır deyirlər. Vətən, xalq öz qeyrətli, vicdanlı, mübariz oğullarını layiqli, gözəl analara, Zübeydə analara borcludur. Əllərinizdən öpürəm, gerçək analar, gözəl analar.**

**Turan Novruzlu**

# Fəal müəllim, vətənpərvər insan

**Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir. Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər.**

Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq.



Söhbət açacağımız müəllimlərdən biri də, Sabunçu rayonu 170 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Vüsalə Qasımovadır.

Vüsalə Qasımova 27.12.1972- ci ildə Cəbrayıl rayonunda anadan olub. 1980-1990 cı illər orta məktəbdə, 1990-1995 cı illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda təhsil alıb.

2000-ci ildə ixtisasını dəyişərək İbtidai sinif müəllimi peşəsinə yiyələnib və bundan sonra ibtidai sinif müəllimi kimi fəaliyyət göstərir.Müəllimlik fəaliyyəti ilə bərabər Vüsalə xanım əsl vətənpərvər,xalqını sevən və savadlı şagirdlər hazırlayır desək, yanılmarıq. Bu ilki dərs ilin onun üçün xüsusilə yaddaqalan olub.Belə ki,il ərzində Vüsalə Qasımova xeyli maraqlı və mühüm tədbirlər həyata keçirib. 44 günlük II Vətən Müharibəsinin, eləcə də,Qələbəmizin işıqlandırılması və şagirdlərə çatdırılması mövzusunda müxtəlif işlər görüb. 20 dən çox Şəhid ailəsinin evinə ziyarət təşkil edib,onların dərdinə şərik olub. Bu il sentyabrın 27 də " 44 günlük Müharibə və Qələbə" ilə əlaqədar möhtəşəm tədbir keçirib,müxtəlif qurumlardan qonaqlar çağırıb,çıxışlar edib və videoçarxlar hazırlayıb. 9 Noyabr Bayraq günü münasibətilə yenidən sinif şagirdlərilə birgə tədbir keçirib,qonaqlar dəvət olunub və respublikamızın üçrəngli bayrağının tarixi haqqında fikirlər söylənib. Azərbaycan Respublikası tərəfindən 2022-ci ilin "Şuşa"ili elan olunması ilə əlaqədar olaraq İşlədiyi 170 saylı orta məktəbdə şagird və valideynlər qarşısında Qarabağın və Şuşanın tarixi barədə nitq söyləyib. Qarabağın tacı olan Şuşanın xalqımız üçün necə müqəddəs və əziz məkan olmasını,Şuşa sevgisinin hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçası olduğunu qeyd edib. Cəbrayılın alınması uğrunda Şəhid olmuş Vüqar Cəfərovun doğum günü onların evinə getmiş və ailəsi ilə birlikdə anım gününü qeyd etmişdir. Məktəbin iki Şəhidi, Qələndər Alıyev və Taleh Mehdiyevin adına bulağın açılışında sinif şagirdlərilə birgə iştirak edib. Onu da qeyd etmək lazımdır ki,"44 günlük müharibə" başlayan gündən Vüsalə Qasımova şagirdləri ilə birlikdə arxa cəbhədə ön cəbhə üçün vətənpərvərlik ruhunda əlindən gələn işləri görmüşdür. Müxtəlif qurumlar,eləcə də media nümayəndələri dəfələrlə Vüsalə müəllimənin tədbirlərində iştirak edib və onun fəallığı barədə fikirlər söylənib. Əslən Cəbrayıldan olan Vüsalə Qasımova əsl Qarabağlı,vətənpərvər müəllimə kimi Azərbaycanın tarixində baş verən əlamətdar hadisələrə biganə qala bilmir.Bununla bağlı bütün bilgilərini şagirdlərlə bölüşür. Təsadüfi deyil ki,bu il Vüsalə Qasımova Azər KİVİHİ və Təhsil Forumunun təşkilatçılığı ilə keçirilən "İlin müəllimi" və "İlin vətənpərvər adamı"adına layiq görülüb.

İlin əvvəlindən 4-cü siniflərlə işləyən Vüsalə müəllimə Məktəb Şəhidlərinin ,eləcə də Ceyhun Şalıyevin doğum günü ilə əlaqədar Şəhidin evində anım günü keçirmişlər.

**10 May tarixində Heydər Əliyevin Anım günü,1 İyun Beynəlxalq Uşaqların müdafiəsi günü ilə bağlı sinifdə tədbir keçirərək şagirdləri bilgiləndirib. Məktəb yarışlarında onun sinifi həm idman üzrə,həm də bilik üzrə yüksək yerləri tutub. Vüsalə müəllimənin bu ilki fəaliyyəti barədə onu deyə bilərik ki, bəli cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Müəllim cəmiyyətdə çox böyük rol oynayır. O, yaşlı nəslin təcrübəsini gənc nəslə verir. Müəllim gözünün nurunu, ürəyinin sevgisini, illərinin zəhmətini şagirdlərinə verir. Sonda fəal müəllim,əsl pedaqoq olan Vüsalə Qasımovaya uğurlar və can sağlığı arzulayırıq.Arzu edirik ki,bütün müəllimlər vəzifisinin öhdəsindən onun kimi layiqincə gələ bilsin.Çünki,uşaqlarımızın gələcəyi onların əlindədir. Gözəl müəllim, biz sizin kimi müəllimlərmizlə qürur duyuruq! Üzündən, çəkdiyin zəhmətin bəhrəsindən doğan təbəssüm, xoşbəxtlik əskik olmasın !**

# *Həddən artıq yas tutmaq psixi pozuntu sayılacaq*

**İnsan cəmiyyətində hər zaman xeyr və şər qardaşdır deyiblər. Təbii ki, kainat qanunlarına qarşı çıxmaq mümkün olmadığı üçün insan öz itkiləri ilə üz -üzə qalanda ən son ümid kimi bir təsəlliyə ehtiyac duyur. İnsan həyatının sona çatması onun yaxınları üçün dərin mənəvi gərgiliklər yaradır.**

**Lakin həddin artıq kədərlənmək və mənəvi sarsıntı içində yaşamaq isə heç də doğru deyil. Hətta bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatının psixixəstəliklərlə bağlı yeni təsnifatı var. Bu təsnifata görə həddən artıq yas saxlamaq və kədərlənməkyeni psixi pozuntu kimi qəbul ediləcək.**



Bundan başqa psixiatrlar da bildirir ki,insanhər hansı həyati vacib məsələdə doğma adamınınitkisindən 1 il sonra hələ də kədər içindədirsə, normal həyat və iş rejiminə qayıda bilmirsə, o zaman ona psixi pozuntu kimi yanaşıb müvafiq müalicə yazmaq lazımdır.Öz kədərinə, itkisinə fokuslanmış insan bəzən yardım olmadan bu vəziyyətdən özü çıxa bilmir.

B ü t ü n dünyada itkidən sonra insanın narahatlığı, kədərlənməsi təbii bir proses olsa da bunun ifrat dərəcədə olması heç də yaxşı hal sayılmır.1990-cı illərdən mütəxəssislər uzun müddət çəkənkədər və neqativhallarüçün psixiatrik yardımı vacib hesab edir. Araşdırmalara əsasən məlum olub ki,təxminən1 ildən artıq davam edən qapalılıq, yas,depressiyanın əsas səbəblərindəndir. Yeni təsnifathəkimlərə imkan verəcək ki, dəhşətli itkidən sonra izolyasiyada qalan, özünə qapanan şəxsləri, məsələn ərinin ölümündən sonra tək qalan dul qadınlara və ya övladını itirən anaya düzgün tibbi xidmət göstərsin. Ümumdünya Səhiyyə Təşkilatıtövsiyə edir ki, həkimlər belə diaqnozu olan xəstələrin müalicəsini tibbi sığorta hesabına edə bilər. Təbii ki, bu məsələ hər bir ölkənin öz daxili səhiyyə qaydaları ilə həll olunmalıdır. Lakin tibbi sığorta hesabına müalicə, maliyyə səbəbindən həkimə getməyən şəxslər üçün çox əlverişli hesab edilə bilər.

**Sonda dünyamıza bolluca sevgi, sevinc və gülüş arzu edirəm. Kədər, ağrı hər nə qədər qaçılmaz olsa da sonucda xoş auranın neqativlər üzərində qələbəsinə inanıram...**

**Hazırladı:**
**Bünyamin BÜNYADZADƏ**

# Bu ölkələr yox olacaq...

**Bu gün dünyada ümumi hesablamalara görə 245 ölkər mövcuddur. Bu ölkələrdən 193 -ü rəsmən tanınan ölkələrdir. Təbii ki, dünyada rəsmi olaraq tanınmaya ölkələr də var. Dünya ölkələrini özündə cəmləyən Birləşmiş Millətlər Təşkilatına 192 ölkə üzvdür. Beynəlxalq aləmdə tanınan lakin BMT -yə üzv olmayan yeganə ölkə isə Vatikandır.**

Bununla bərabər dünyada elə ölkələr də var ki, onların yaxın gələcəkdə mövcud olması sual altındadır. Ölkələri tədqiq edən mütəxəssislərin son araşdırmalarına görə bir neçə ölkə tamamilə tarixdən silinəcək. Buna səbəb kimi qlobal istiləşmə, buzlaqların əriməsi və dəniz səviyyəsinin qalxmasıdır. Bu barədə dünyaca məhşur"Express" qəzetində məlumatlar dərc olunub.

Beləliklə iqlim dəyişikliyinin təsir göstərdiyi ərazilərə Kiribati, Tuvalu və Marşal adaları daxildir.

Kiribatidəki qlobal ekoloji qeyri-hökumət təşkilatı olan İqlim Fəaliyyəti Şəbəkəsinin koordinatoru Peleniza Alofa bildirib ki, Qlazqoda keçirilən BMT sammiti ada ölkəsi üçün həyati bir hadisədir. O xatırladıb ki, dəniz səviyyəsinin qalxması və güclənən tropik tufanlar regionda insanların həyatı və kənd təsərrüfatı üçün təhlükə yaradır.

Kiribatinin keçmiş prezidenti Anote Tonq da Qlazqodakı sammitdə iqlim dəyişikliyinin ölkəsi üçün yaratdığı təhlükələrdən danışıb. O, Avstraliyanın bu sahədəki siyasətini də tənqid edib. Alimlər qlobal istiləşmənin mənfi təsirlərini yumşaltmaq üçün Yer kürəsində temperatur artımının 1,5-2 dərəcə ilə məhdudlaşdırılmasının zəruriliyini dəfələrlə qeyd ediblər. Bu məqsədlə 2015-ci ildə 190-dan çox dövlət bu məqsədə nail olmaq üçün konkret fəaliyyət planını nəzərdə tutan Paris Sazişini imzalayıb. Sənəd qalıq yanacaqlardan tamamilə imtina etməyi nəzərdə tutmur, lakin ölkələr istixana qazı emissiyalarını azaltmaq və bərpa olunan enerji mənbələrinə keçid üçün tədbirlər görməlidir.

Zaman ötür, həyat dəyişir və dünya yenilənir. Nəticədədünyanın ümumi mənzərəsi illər sonra indikindən çox fərqli olacaq. Yeniliklər, inkişaf əlbəttə ki, xoşdur. Yetər ki, bu dəyişikliklər insanlara, bəşəriyyətə fayda versin. Ümid edək ki, dünyanın yenilənən siması bütün ölkələrə uğur gətirəcək.

**Bünyamin BÜNYADZADƏ**

17.03.1981-ci il doğum tarixli Önen İrfan Gani oğlunun nüfus cüzdanı itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas **Rizvan və Yaşar Nəbiyev** qardaşlarına ataları
**Nəcəf kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir

Əbülfət Mədətoğlu, Faiq Qismətoğlu, Məzahir Əhmədoğlu, Şamxal Şəbiyev və Ceyhun Rüstəmov **Rizvan və Yaşar Nəbiyev** qardaşlarına ataları
**Nəcəf kişinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ramiz Məmmədzadə və Dilafət Hacıyev tanınmış iş adamı, professor,
**Müzamil Abdullayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 84**
Çapa imzalanmışdır: 24.06.2022